Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 259 (7986) ŞƏNBƏ, 17 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



## 17 Noyabr Milli Dirçəliş Günüdür

# Tarixin ən güclü Azərbaycanı



Ötən əsrin 80-ci illərinin sonlarında artıq çürümüş sovet imperiyasının əsl mahiyyəti aydınlaşır, uzun illər təlqin olunan kommunist beynəlmiləlçiliyinin puç olduğu üzə çıxırdı. Belə bir vaxtda öz mövcudluğunu qorumağa çalışan imperiya bu məqsədlə yerlərdə milli zəmində münaqişələrin baş qaldırmasına rəvac verirdi. 1988-ci ildən açıq müstəviyə qədəm qoyan erməni separatizmi də imperiyanın dəst-xətti idi.

Azərbaycan xalqı o zaman ölkəyə rəhbərlik edənlərdən fərqli olaraq erməni separatizminə, Ağdamda iki azərbaycanlının qətlə yetirilməsinə, Topxana meşələrində törədilən vəhşiliklərə ilk gündən etiraz səsini ucaltdı. Baş verən hadisələr həm də xalqımızın milli hisslərini alovlandırdı. Milyonlarla insanın toplaşdığı Bakının Azadlıq meydanında səslənən tələblərin mahiyyəti getdikcə dəyişir, müstəqil dövlət qurmaq ideyası milli düşüncəyə hakim kəsilirdi. İnsanlar meydanlara çıxmaqla Azərbaycanı müstəmləkə əsarətində saxlayan sovet imperiyasına qarşı ilk kütləvi etiraz səsini qaldırdılar. Beləliklə, 1988-ci ildən başlayaraq Azərbaycanda milli istiqlal hərəkatı geniş vüsət aldı. XX əsrin əvvəllərində istiqlalın ləzzətini dadan xalq bu dəfə müstəqillik arzularını reallaşdırmaq üçün tarixi bir fürsətin yarandığını hiss etdi. 1988-ci il noyabr günləri göstərdi ki, xalqımız müstəqil olmağa, azad yaşamağa layiqdir.

Proseslərin gedişatı göstərirdi ki, yalnız yüksək amallara xidmət edən cahanşümul ideya xalqımızı qarşıya qoyduğu məqsədə çatdıra, bu gün böyük qürur hissi ilə danışdığımız müstəqil Azərbaycan reallığını gerçəkliyə çevirə bilərdi. Ölkəyə rəhbərlik edənlər bu ideyadan kifayət qədər uzaq idilər. Özlərini milli azadlıq mücadiləsinin lideri hesab edənlərin də gələcəyə hesablanmış təkmil ideyaları yox idi. Azadlıq istəyi xalq hərəkatından başlasa da, meydanda rəhbərlik iddiasında olanların səriştəsizliyi nəticəsində və respublikanın dərin böhrana sürükləndiyi bir vaxtda insanlar getdikcə daha da dərindən əmin olurdular ki, həqiqi liderə böyük ehtiyac var. Tarix də sübut edir ki, xalqların və millətlərin taleyində, formalaşmasında, dünyadakı yerinin müəyyənləşdirilməsində tarixi şəxsiyyətlərin, dahi siyasətçilərin müstəsna rolu danılmazdır. Tarix isə təkrarlanır və belə tarixi şəxsiyyətin, dahi siyasətçinin Heydər Əliyev olduğu xalq tərəfindən qəbul olunurdu. Bunu o vaxtkı İttifaq və respublika rəhbərliyi də aydın dərk edirdi. Ona görə də dahi siyasətçini siyasi təqiblərə, əsassız böhtanlara məruz qoyur, xalqın onun ətrafında birləşəcəyindən qorxur, Azərbaycana qayıdaraq siyasi fəaliyyətlə məşğul olmasına əngəllər törədirdilər.

Bütün mənəvi və siyasi təqiblərə mətinliklə sinə gərən Heydər Əliyev hətta həyatı üçün yaradılan sui-qəsdlərdən çəkinməyərək sovet rəhbərliyi ilə cəsarətlə mübarizə apardı və doğma vətəninə - Azərbaycana gəldi.

Ardı 9-cu səh.

# Cənubi Qafqazın ikinci sənaye şəhəri olan Sumqayıt inkişafının yeni mərhələsini yaşayır

## İsveçrənin "SİKA AG" şirkətlər qrupuna daxil olan inşaat kimyəviləri zavodunun məhsulları xarici ölkələrə də ixrac ediləcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkının rezidenti inşaat kimyəviləri zavodunun açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə iqtisadiyyat naziri Şahin Mustafayev Prezident İlham Əliyevə Sumqayıt Kimya Sənaye Parkında görülən işlər, parkın rezidentləri barədə məlumat verdi. Bildirildi ki, 2013-cü ildə dövlət başçısının iştirakı ilə təməli qoyulmuş Sumqayıt Kimya Sənaye Parkında ötən müddətdə intensiv tikinti-quraşdırma işləri aparılıb, köhnə bina və qurğular sökülüb, müvafiq infrastruktur yaradılıb.

Zavodun baş direktoru Adəm Yayla Prezident İlham Əliyevə müəssisə haqqında məlumat verdi. İnşaat kimyəviləri zavodu 1910-cu ildə yaradılan və dünyanın 100-ə yaxın ölkəsində müəssisələri fəaliyyət göstərən İsveçrənin "SİKA AG" şirkətlər qrupuna daxildir. Son 18 ildə şirkətə dünya miqyasında beton konstruksiyalarının təmiri ilə bağlı 100-ə qədər layihənin icrası həvalə olunub. Struktur birləşdirmə, birbaşa şüşələmə, akustik və gücləndirici sistemlər, avtomobillərə xidmət, o cümlədən avtomobil şüşələrinin əvəzlənməsi, avtomobil gövdəsinin təmiri, dəniz gəmiləri, sənaye laminasiyası, texnika, bərpa olunan enerji və fasad mühəndisliyi sahələri bu şirkətin fəaliyyət istiqamətinə daxildir. Şirkətin məhsullarının əsas tətbiq sahələri kommersiya məqsədli nəqliyyat vasitələri sənayesi, məişət cihazları və sənaye komponentləri, sənaye məqsədli laminasiya, bərpa olunan enerji sənayesi, mexaniki emal və kompozitlər, həmçinin dəniz sənayesidir.

Prezident İlham Əliyev zavodu işə saldı.

2016-cı ilin martında rezident kimi qeydiyyata alınan zavod İsveçrə və Türkiyə texnologiyaları əsasında yaradılıb. İlkin mərhələdə müəssisənin illik istehsal həcmi 40 min ton tikinti qatqılarıdır. Zavodun məhsullarının Rusiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Gürcüstan və İrana ixracı nəzərdə tutulur. İnşaat kimyəviləri zavodu beynəlxalq miqyaslı İsveçrə şirkətinin yerli təmsilçisi kimi Sumqayıt Kimya Sənaye Parkının 100 faiz xarici kapitallı rezidentidir. İnvestisiya dəyəri 3,5 milyon dollar olan layihə çərçivəsində 60 nəfər daimi işlə təmin olunacaq. Hazırda tikinti məhsullarının istehsalında xammal kimi istifadə edilən "Sikament 300", "Sikament FF5" və "Sigunit L25" kimi maddələrin Azərbaycana illik idxalı təqribən 800-1000 ton təşkil edir. Bu maddələrin ölkəmizdə istehsal edilməsi idxalı əvəz etməyə imkan yaradacaq, məhsullarda xarici komponentlərdən istifadəni azaldacaq.

Ardı 2-ci səh.



## Əbədi ehtiram ünvanı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt şəhərinə səfərə gəlib.**

**AZƏRTAC xəbər verir ki, dövlət başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.**

**Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov şəhərdə görülən işlər haqqında dövlət başçısına məlumat verdi.**

**Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.**

# Sabit və faydalı münasibətlər yüksək səviyyədə etimada əsaslanır

Beynəlxalq münasibətlərdə dövlət başçılarının görüşləri tez-tez olur. Lakin Azərbaycan Prezidenti İlham Əliyevin Belarusa gözlənilən səfəri ərəfəsində bu dövlətin ölkəmizdəki diplomatik korpusunun rəhbəri Gennadi Axramoviçi qəbul etməsi qarşıdakı səfərə nə dərəcədə böyük əhəmiyyət verilməsinin təsdiqidir. Səfərin proqramının və ikitərəfli münasibətlərin bəzi aspektlərinin səfəröncəsi müzakirəsi həm də Belarusun Azərbaycan Prezidentinin rəsmi səfərinə xüsusi dəyər verməsi ilə bağlıdır.

Belarus Respublikası ilə Azərbaycan arasında diplomatik münasibətlərin əsası 11 iyun 1993-cü ildə qoyulmuş, ikitərəfli əlaqələrin sınanmış ənənələri dostluq və qarşılıqlı inam üzərində təşəkkül tapmışıdır. Artıq 25 ili arxada qoyan Belarus-Azərbaycan əməkdaşlığının təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndərin bünövrəsini qoyduğu bu qırılmaz dostluğun bütün istiqamətlərdə inkişaf etməsində və dərinləşməsində Azərbaycan Prezidenti İlham Əliyevin əvəzsiz xidmətləri olmuşdur. İki ölkə arasında diplomatik münasibətlərin intensivliyini, qarşılıqlı əməkdaşlığa böyük marağın olmasını sübut edən əsas faktlardan biri də Azərbaycan Prezidentinin 4 dəfə Minskə, Belarus Prezidentinin də bir o qədər Bakıya səfər etməsidir.

2006-cı ildə Azərbaycan və Belarusun Bakıda və Minskdə diplomatik missiyaları açılmış və həmin ildə cənab İlham Əliyevin Belarus Respublikasına ilk rəsmi səfəri olmuşdur. Bir il sonra isə ilk dəfə Bakıda Prezident Aleksandr Lukaşenko başda olmaqla Belarusun nümayəndə heyəti qarşılanmışdır.

2011-ci ildə Belarus çətin duruma düşəndə Azərbaycan etibarlı qardaş, sədaqətli tərəfdaş olduğunu əməldə sübut etmişdir. Bundan bir il sonra - 2012-ci ildə Prezident İlham Əliyevin Belarus Respublikasına üçüncü rəsmi səfəri baş tutmuş və səfər çərçivəsində iki ölkə arasında strateji əməkdaşlığın inkişafına verdiyi töhfəyə görə Prezident İlham Əliyevə Belarusun "Xalqlar dostluğu" ordeni təqdim olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev Belarusun ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri ilə görüşündə Belarusa qarşıdakı səfəri ilə bağlı demişdir: "Biz siyasi müstəvidə fəal qarşılıqlı fəaliyyət göstəririk. Artıq dediyim kimi, qarşılıqlı etimadın səviyyəsi o qədər yüksəkdir ki, biz ikitərəfli, regional, beynəlxalq gündəliyin bütün məsələlərini müzakirə edirik. İqtisadi sahədə yaxşı göstəricilər görürük. Əmtəə dövriyyəsinin artımı buna yaxşı nümunədir. Həmçinin artıq Belarusun Azərbaycanda, Azərbaycanın isə Belarusda ticarət nümayəndəlikləri fəaliyyət göstərir".

Dövlət başçısının fikrinə görə, iki ölkə arasında nəzərdə tutulan layihələrin gerçəkləşdirilməsi Azərbaycanın sənaye potensialını möhkəmləndirir, təhsil, elm, mədəniyyət sahələrinə müsbət təsir edir. Hərbi-texniki sahədə əməkdaşlıq isə Azərbaycan-Belarus münasibətlərinin ölkələrimiz üçün mühüm əhəmiyyət kəsb etdiyini bir daha təsdiqləyir.

Ardı 8-ci səh.

# Azərbaycan qazı sürətlə Avropaya yaxınlaşır



Dörd mühüm hissədən ibarət olan nəhəng "Cənub qaz dəhlizi" layihəsinin üç seqmenti artıq istifadəyə verilib. Sonuncu seqment olan TAP-ın (Transadriatik Qaz Boru Kəməri) çəkilişi müvəffəqiyyətlə davam edir.

## Prezident İlham ƏLİYEV: "Cənub qaz dəhlizi" Avropanın enerji xəritəsini yenidən tərtib edən layihədir"

TAP strateji əhəmiyyətli layihədir. Avropanın enerji təhlükəsizliyinə ciddi dəstək verəcək. Kəmərin uzunluğu təxminən 878 kilometr təşkil edəcək. Xəttin 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçəcək və sonuncu hissəsi İtaliya torpağında quru sahəyə çıxacaq. Orada "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsi ilə birləşdiriləcək.

Layihənin İtaliyada bitməsinə baxmayaraq, gələcəkdə ara keçid boru kəmərləri vasitəsilə İsveçrə, Avstriya, Fransa, Almaniya, Belçika, hətta İngiltərəyə təbii qazın ötürüləcəyinin mümkün olacağı da istisna edilmir. TAP-ın əhəmiyyəti həm də ondadır ki, o, Yunanıstan-Bolqarıstan İnterkonnektoru və İon-Adriatik qaz kəmərinin təchizatını asanlaşdıracaq.

TAP layihəsi üzrə beynəlxalq saziş 2013-cü il iyunun 30-da imzalanmışdır. TAP və "Şahdəniz" konsorsiumlarının bağladıqları sazişlə Azərbaycan qazı Avropa bazarına ilk dəfə olaraq birbaşa çıxış əldə etmişdir. 2015-ci ildə "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının birinci iclası, növbəti illərdə daha üç toplantısı keçirilmiş və layihənin reallaşdırılması ilə bağlı mühüm qərarlar qəbul olunmuşdur. O cümlədən, TAP-la bağlı prinsipial razılaşmalar əldə edilmiş və layihənin gerçəkləşdirilməsinə başlanmışdır.

Kəmərin təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulmuşdur. Həmin vaxtdan da tikinti işlərinə start verilmişdir.

Ardı 6-cı səh.

# Cənubi Qafqazın ikinci sənaye şəhəri olan

## İsveçrənin “SİKA AG” şirkətlər qrupuna daxil olan inşaat kimyəviləri zavodunun məhsulları xarici ölkələrə də ixrac ediləcək







*Əvvəli 1-ci səh.*

***

Qeyd edək ki, Prezident İlham Əliyevin 2011-ci il 21 dekabr tarixli fərmanı ilə yaradılmış Sumqayıt Kimya Sənaye Parkı ölkənin ilk sənaye parkıdır. Parkın idarəedici təşkilatı İqtisadiyyat Nazirliyinin tabeliyində olan “Sumqayıt Kimya Sənaye Parkı” MMC-dir. Sumqayıt Kimya Sənaye Parkının 508 hektarlıq ümumi ərazisinin 450 hektarı sənaye zonasıdır. Artıq burada 74 faiz məskunlaşma qeydə alınıb. İndiyədək 18 sahibkarlıq subyektinə rezident statusu verilib. Sumqayıt Kimya Sənaye Parkının mövcud rezidentlərinin layihələrinin investisiya dəyəri 2,8 milyard dollardır. Bunun da 2,2 milyard dolları artıq layihələrə yatırılıb. Hazırda mövcud layihələr üzrə istehsalatda və tikintidə 7000-dək işçi çalışır.

Sumqayıt Kimya Sənaye Parkında 9 müəssisə fəaliyyət göstərir və bu müəssisələr tərəfindən istehsal olunan məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, “Made in Azerbaijan” brendi ilə xarici bazarlara ixrac edilir.

Belə ki, sənaye parkının ilk rezidentlərindən olan “Azertexnolayn” zavodu 2013-cü ildən fəaliyyət göstərir və burada polad və polietilen boru, mexaniki və hidrotexniki avadanlıqlar istehsal edilir. Müəssisədə 750-dən çox işçi çalışır. 2017-ci ildə müəssisə üzrə 72 milyon manat dəyərində satış həyata keçirilib ki, bunun təqribən 17 milyon manatı ixracın payına düşür. 2018-ci ilin 9 ayında isə zavod 12,6 milyon manat dəyərində məhsul ixrac edib.






Müxtəlif təyinatlı sənaye məhsullarını istehsal edən “STP” MMC 2014-cü ildən fəaliyyət göstərir və hazırda burada 2000-dən çox işçi çalışır. 2017-ci ildə “STP” tərəfindən 80 milyon manat, bu ilin 9 ayında isə 64,3 milyon manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun 2,9 milyon manatlıq hissəsi ixrac olunub.

Sumqayıt Kimya Sənaye Parkının bir sıra digər rezidentləri də məhsullarını xarici ölkələrə ixrac edirlər. 2017-ci ildə 4 müəssisə - aşağı, orta və yüksək təzyiqə davamlı xortum və fitinq birləşmələrini istehsal edən “MST Engineering Services” MMC, yüksək keyfiyyətli sintetik və yarımsintetik sürtkü yağları istehsal edən “Alco” MMC, pestisidlər və aqro-kimyəvi məhsullar istehsal edən “Aqrokimya Azərbaycan” MMC, məlumatların emalı, qeydə alınması və ötürülməsini həyata keçirən “STDC” MMC fəaliyyətə başlayıb. 2018-ci ilin aprelindən elektron təhsil avadanlıqları istehsal edən “Labdisc Azərbaycan” MMC, iyuldan “SOCAR Polymer” MMC-nin polipropilen qurğusu, noyabr ayından şüşə və saxsı məmulatlar istehsal edən “ARCHİ Glass” MMC fəaliyyətdədir. Bu ilin sonunadək daha iki müəssisənin - “SOCAR Polymer” MMC-nin yüksək sıxlıqlı polietilen istehsalı və karbamid zavodlarının fəaliyyətə başlaması gözlənilir. Bu müəssisələrdə 800-ə yaxın yeni iş yerinin açılması nəzərdə tutulur.

Sumqayıt Kimya Sənaye Parkının rezidentləri 7 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, eyni zamanda, parka istehsal məqsədilə gətirilən texnika, texnoloji avadanlıqlar və qurğulara görə əlavə dəyər vergisindən və gömrük rüsumundan azad olunur. Bu günədək sənaye parkının rezidentləri artıq 255 milyon manat məbləğində vergi və gömrük rüsumlarından azad olunublar.

# Əlvan metallar və ferroərintilər zavodunda Azərbaycan tarixində ilk dəfə olaraq ferrosilisium, ferrosilikomanqan istehsal olunacaq







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan “Baku Non Ferrous and Foundry Company” MMC-nin əlvan metallar və ferroərintilər zavodunun açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, “Baku Steel Company” Məhdud Məsuliyyətli Cəmiyyətinin müşahidə şurasının sədri Rasim Məmmədov Prezident İlham Əliyevə əvvəlcə yaxın gələcəkdə inşası planlaşdırılan layihənin üçüncü fazası, yəni, fasonlu tökmə zavodunun tikintisi barədə məlumat verdi.

Bildirildi ki, bu zavodda maşınqayırmada, kənd təsərrüfatında, dağ-mədən sənayesində istifadə olunan məhsullar istehsal ediləcək. Bu məhsullar arasında yayma valları, 3D printer vasitəsilə hazırlanan detallar, dəyirman kürələri, müxtəlif növ maşın avadanlıqları üçün detallar var. Zavodun illik istehsal gücünün 12000 ton olması nəzərdə tutulub.





Dövlət başçısına Daşkəsən rayonundakı dəmir-filiz yataqlarından istifadə edilməklə Gəncədə böyük metallurgiya zavodunun tikintisi ilə bağlı da məlumat verildi. Artıq tikinti ilə bağlı texniki işlər yekunlaşıb. Qeyd edildi ki, Daşkəsəndəki yataqlarda yeni geoloji işlər və ehtiyatların qiymətləndirilməsi aparılıb.

Prezident İlham Əliyev əlvan metallar və ferroərintilər zavodunu işə saldı.

Zavodda İtaliya texnologiyası əsasında ildə 50 min ton ferrosilisium və 72 min ton ferrosilikomanqan istehsal ediləcək. Məhsullar daxili bazarın tələbatını tam ödəməklə yanaşı, xaricə də ixrac olunacaq. Bu zavodda Azərbaycan tarixində ilk dəfə olaraq ferrosilisium, ferrosilikomanqan və gələcəkdə ferroxrom da istehsal ediləcək. Bu ferroərintilərin istehsalı yüksək temperaturda manqan filizindən və kvarsitdən karbon tərkibli maddələrin vasitəsilə müvafiq olaraq manqan və silisium elementinin bərpasına və onların dəmirlə birləşmə yaradaraq kristallaşmasına əsaslanır. Ferroərintilərin istehsalı üçün lazım olan komponentlər elektrik qövslü sobada əridilərək çalovlar vasitəsilə konveyerdə qəliblərə tökülür və müvafiq fraksiyalar şəklində hazır məhsul əldə edilir. İstehsal olunmuş məhsul avtomatik paketləmə maşınında 1 tonluq kisələrə qablaşdırılır.

Zavodda ekoloji tələblərə uyğun, mükəmməl konstruksiyalı qaz-toz təmizləyici qurğu işə salınıb. Qaz-toz tutucu qurğuda isə istehsal prosesi zamanı ayrılan uçucu maddələr və qazlar xüsusi filtrlər vasitəsilə tutularaq təmizlənir və bərk hissəciklər islatma üsulu ilə xüsusi konveyerlərdən keçirilərək dənəvarı hala salınır. Bundan sonra həmin maddələr kisələrə yığılaraq qablaşdırılır. Bu məhsul həm satıla, həm də təkrar istehsal prosesinə qaytarıla bilər. Bütün bu maddələrdən təmizlənmiş hava kütləsi filtrlərdən keçdikdən sonra ekoloji normativ tələblərə uyğunlaşdırılır, daha sonra atmosferə buraxılır.

Burada istehsal olunan məhsulun keyfiyyəti bir çox beynəlxalq standartlara, o cümlədən QOST və İSO-ya uyğunlaşdırılıb. Zavodda sınaqlar quru və yaş, spektrometr vasitəsilə müxtəlif üsullarla yoxlanılır. Məhsulun keyfiyyəti spektral təhlil və kimyəvi üsulla analiz olunur. İnvestisiya dəyəri 51 milyon dollar olan zavodda 230 nəfər işlə təmin olunacaq. Zavod 2016-cı ilin fevralında rezident kimi qeydiyyata alınıb. Layihənin əsas təyinatı metallurgiya sənayesində son məhsulun istehsalı üçün tələb olunan ferroərintilərin lazımi səviyyədə təmin edilməsi və həmin sənaye sahəsinin idxaldan asılılığının nisbətən aradan qaldırılmasıdır.

Dövlət başçısı müəssisənin istehsal prosesi ilə tanış oldu.

# Sumqayıt inkişafının yeni mərhələsini yaşayır

## Azərbaycan Prezidentinin sənayeləşmə siyasəti uğurla davam edir







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkında "Tabaterra" Qapalı Səhmdar Cəmiyyətinin tütün məmulatları istehsalı fabrikinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, "Tabaterra" QSC-nin direktoru Elman Cavanşir dövlət başçısına burada yaradılan şərait barədə məlumat verdi.

Qeyd olundu ki, zavod ötən il parkda rezident kimi qeydiyyata alınıb. Burada 3 formatda olmaqla beynəlxalq standartlara uyğun siqaret istehsal ediləcək. Fabrik məhsullarını "Made in Azerbaijan" brendi altında istehlakçılara təqdim edəcək. Böyük Britaniya, Almaniya və İtaliya texnologiyaları əsasında qurulan fabrikdə il ərzində 11 milyard ədəd 3 növdə filtrli siqaretlər istehsal ediləcək. Bu isə ölkənin tütün məmulatlarına olan tələbatının 80 faizini ödəyəcək. Ümumilikdə, fabrikdə 13 brendin 80 çeşiddə məhsulunun istehsalı nəzərdə tutulur. Burada "Tabaterra"nın hər biri 6 çeşiddə "Senate", "Kingston", "Argo" adları altında məhsulu istehsal ediləcək. Bundan başqa, "British American Tobacco", "Japan Tobacco International", "Imperial Tobacco" şirkətlərinin məhsulları da lisenziya əsasında müəssisədə istehsal olunacaq. Bu şirkətlərin siqaretləri indiyədək ölkəmizə idxal edilirdi. Beləliklə, bu layihə Azərbaycanda yerli istehsalın inkişafına xüsusi təkan verməklə yanaşı, xaricdən idxalın, eyni zamanda, tütün məhsullarının alınması üçün sərf olunan valyuta axınının azalmasına imkan yaradacaq.

Fabrik beynəlxalq standartlara uyğun istehsal olunacaq məhsullarını müxtəlif formatlarda və qiymət seqmentlərində istehlakçılara təqdim edəcək. Burada istehsal prosesi beynəlxalq keyfiyyət standartlarına tam uyğun olaraq aparılacaq. Ümumi dəyəri 48 milyon dollar olan layihə çərçivəsində 200 yeni iş yeri yaradılıb.

Dövlət başçısı müəssisəni işə saldı.

Sonra Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkındakı müəssisələrin kollektivlərinin nümayəndələri ilə görüşdü.

Dövlət başçısı görüşdə çıxış etdi.





## Prezident İlham Əliyevin çıxışı

- Bu gün Sumqayıt Kimya Sənaye Parkında üç yeni müəssisə fəaliyyətə başlayır. Mən bu münasibətlə müəssisələrin kollektivlərini salamlayır və təbrik edirəm. Əminəm ki, bu müəssisələr çox səmərəli işləyəcək və ölkə iqtisadiyyatına böyük töhfə verəcəkdir.

Bu müəssisələr ən yüksək standartlara cavab verir və bizim sənaye potensialımızı böyük dərəcədə möhkəmləndirən müəssisələrdir. Ferroərintilər, inşaat kimyəvi qatqılar zavodları, siqaret fabriki bu gün fəaliyyətə başlayır. Birinci mərhələdə bu müəssisələrdə 400-dən çox iş yeri yaradılıb, gələcəkdə isə iş yerlərinin sayı 700-ə çatacaq. Mənə verilən məlumata görə, bugünkü mərhələdə siqaret fabrikinə 35 milyon dollar, ferroərintilər zavoduna 25 milyon dollar və inşaat materialları zavoduna isə 3,5 milyon dollar sərmayə qoyulub. Ancaq indi təqdimatda deyildi ki, siqaret fabrikinə bundan sonra da əlavə vəsait qoyulacaq və investisiya həcmi təxminən 50 milyon dollara çatacaq, ferroərintilər zavoduna isə 100 milyon dollar investisiya qoyulacaqdır. Yəni, bu, onu göstərir ki, vaxtilə Sumqayıt Kimya Sənaye Parkının yaradılması ilə bağlı qərar düzgün və vaxtında qəbul edilmiş qərar idi.

Mən 2011-ci ilin sonunda müvafiq fərman imzaladım və biz parkın yaradılmasına start verdik. Bu ərazidə vəziyyət çox acınacaqlı idi. Vaxtilə tikilmiş və dağılmış, avadanlığı paslanmış müəssisələrin qalıqlarını təmizləmək, torpaq qatını yaxşılaşdırmaq, rekultivasiya işləri aparmaq böyük səy və vəsait tələb edirdi. Ondan sonra kommunikasiya və infrastruktur layihələri icra edildi, 500 hektardan çox ərazi tamamilə təmizləndi və özəl sektorun sərəncamına verildi. Bu, dövlətin özəl sektora göstərdiyi dəstəyin növbəti təzahürüdür. Bu, onu göstərir ki, dövlət-özəl sektor tərəfdaşlığı Azərbaycanda ən yüksək səviyyədə təşkil edilir.

Hazırda Sumqayıt Kimya Sənaye Parkında 18 rezident var, 9 müəssisə fəaliyyətdədir. Bu il 5 müəssisə fəaliyyətə başlayacaq. Onlardan 3-ü bu gün fəaliyyətə başlayır. Gələn il əlavə 4 müəssisə fəaliyyətə başlayacaq və beləliklə, bu parkda ən müasir standartlara cavab verən 18 müəssisə fəaliyyət göstərəcək.

Sumqayıt Kimya Sənaye Parkı, əslində, şəhər içində bir sənaye şəhəridir. Gələcəkdə parkın hüdudları genişləndiriləcək və təbii ki, yeni rezidentlər qəbul ediləcəkdir. On səkkiz müəssisə tam gücü ilə işləyəndən sonra 6 min iş yeri təmin ediləcəkdir. Əlbəttə ki, Sumqayıt şəhərində işsizliyin bundan sonra da aşağı səviyyədə saxlanması üçün bu parkın çox böyük əhəmiyyəti var. Ümumiyyətlə, bu günə qədər Sumqayıt Kimya Sənaye Parkının yaradılmasına, müəssisələrin fəaliyyətə başlamasına 2,2 milyard dollar sərmayə qoyulub və növbəti dövrdə bu rəqəm təxminən 3 milyard dollara çatacaqdır. Əgər biz bu parkı yaratmasaydıq və sahibkarlara güzəştli şərtlər təqdim etməsəydik, dövlət tərəfindən böyük dəstək göstərməsəydik,







bu vəsait də qoyulmayacaqdı və iş yerləri də yaradılmayacaqdı. Ona görə biz Sumqayıt Kimya Sənaye Parkının timsalında uğurlu sənaye siyasətimizi görürük və bu siyasət bundan sonra da davam etdiriləcək.

Təsadüfi deyil ki, bu ilin 10 ayında ölkəmizin qeyri-neft sənayesi 10 faiz artmışdır. Bu, çox gözəl göstəricidir. Kənd təsərrüfatı 5 faiz artmışdır. Sumqayıt Kimya Sənaye Parkında əlbəttə ki, sənaye müəssisələri fəaliyyət göstərir, ancaq onların bəziləri kənd təsərrüfatına sıx bağlı olan müəssisələrdir, o cümlədən siqaret fabriki. Mən əminəm ki, bu fabrikin fəaliyyəti nəticəsində Azərbaycanda tütünçülüyün inkişafı daha yüksək templərlə gedəcək. Biz tütünçülüyü bərpa edirik, əgər keçən il 3 min ton quru tütün yığılmışdısa, bu gün artıq 4500 ton yığılıb və 5 min tonu keçəcək. Əlbəttə ki, gələcəkdə bu fabrikdə bizim yerli tütündən daha da böyük həcmdə istifadə olunacaq. Yəni, bu, kənd təsərrüfatına böyük təkan verir.

Sumqayıt Kimya Sənaye Parkında hazırda əyirici boyaq fabrikinin tikintisi davam edir. Bu da xalçaçılığın inkişafına böyük təkan verəcək. Xalçaçılıq indi inkişaf edir, 30 xalça fabrikinin yaradılması nəzərdə tutulur. Xalçaçılığın əsas xammalı yun və ipəkdir. İndi yun tədarükü mərkəzləri yaradılır, baramaçılığa böyük təkan verilib. Şəki ipək kombinatı böyük həcmlə işləyir, fermerlər baramadan böyük gəlir əldə edirlər. Yəni, sənayenin və kənd təsərrüfatının inkişafı paralel şəkildə getməlidir, bir-birini tamamlamalıdır, bir-birinə dəstək verməlidir və biz bunu görürük. Eyni zamanda, əlbəttə ki, bizim əsas məqsədimiz qeyri-neft sektorunu inkişaf etdirmək, idxaldan asılılığı aradan götürmək və qeyri-neft ixracını artırmaqdır və biz burada bunu görürük. Siqaret fabriki tam gücü ilə işləyəndən sonra burada ildə 11 milyard ədəd siqaret istehsal olunacaqdır. Bu gün verilən məlumata görə, daxili tələbat 14 milyarddır. Əminəm ki, bu fabrik idxalı tam əvəzləyəcək. Çünki hazırda yerli istehsal var və gələcəkdə ixrac imkanları da geniş olacaq. Mən istərdim ki, daxili tələbat sıfır səviyyəsində olsun, insanlar siqaret çəkməsinlər, bu pis vərdişdən uzaq olsunlar. Əminəm ki, görülən tədbirlər, o cümlədən qanunvericilikdə atılan addımlar nəticəsində biz bu məqsədə çatacağıq. İstərdim ki, bu siqaret fabriki 100 faiz ixrac məhsulları istehsal etsin. Ancaq bu, hələ ki, mümkün deyil. Biz vətəndaşları keyfiyyətli yerli siqaretlə təmin etməliyik. Lakin, eyni zamanda, hamı, ilk növbədə, dövlət çalışmalıdır ki, Azərbaycanda siqaret çəkənlərin sayı minimum səviyyəyə ensin. Çünki ixrac bizə əlavə valyuta gətirir, əlavə imkanlar yaradır. O cümlədən ferroərintilər zavodunda istehsal olunacaq məhsulun 90 faizi ixraca gedəcək, 10 faiz: isə Azərbaycan müəssisələrində yenidən emal olunaraq hazır məhsula çevriləcəkdir.

Qeyri-neft sektorunun inkişafı, qeyri-neft ixracının artırılması əsas məqsəddir. Bu ilin 10 ayında bizim qeyri-neft ixracımız 12 faiz, ümumi ixracımız isə 37 faiz artıbdır. İxrac artdıqca bizim iqtisadi vəziyyətimiz daha da yaxşılaşır. Bu, makroiqtisadi sabitliyə, manatın məzənnəsinə müsbət təsir göstərir. Təsadüfi deyil ki, Azərbaycanda makroiqtisadi sabitlik çox yaxşı səviyyədədir, inflyasiya on ayda cəmi 2,4 faizdir. Bu müəssisələrin yaradılması yerli və xarici investorlar üçün növbəti bir siqnaldır ki, gəlsinlər Azərbaycana sərmayə qoysunlar. Bu yaxınlarda Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan deyə bilərəm ki, tarixi nailiyyət əldə edib, dünya miqyasında biznes mühitinə görə 25-ci yerdə qərarlaşıb. Keçən il biz 57-ci yerdə idik. Yəni, belə bir böyük irəliləyiş əlbəttə ki, aparılan islahatların məntiqi nəticəsidir. "Doing Business" hər bir yerli və xarici investor üçün əsas amillərdən biridir ki, o ölkəyə pul qoyulsun, yoxsa yox. "Doing Business" hesabatı, belə gözəl müəssisələrin yaradılması, Azərbaycanda ümumi vəziyyət, sabitlik, inkişaf əlbəttə ki, xarici və yerli investorları daha da stimullaşdırır. Təsadüfi deyil ki, son 15 il ərzində ölkə iqtisadiyyatına 250 milyard dollar sərmayə qoyulubdur.

Mən sizi fabriklərin, zavodların açılışı münasibətilə bir daha təbrik etmək istəyirəm. Şadam ki, biz bu gözəl parkı Sumqayıt şəhərində yaratdıq. Sumqayıt ölkəmizin, Cənubi Qafqazın ikinci sənaye şəhəridir. Sumqayıtın inkişafı üçün çox böyük işlər görülür, çox böyük layihələr icra edilir. Sosial layihələr, infrastruktur layihələri, qazlaşdırma demək olar ki, yüz faiz səviyyəsindədir, içməli su 93 faiz səviyyəsindədir, yollar salınır, məktəblər tikilir, gözəl abadlıq işləri aparılır. Sumqayıt bulvarı yaradılıb, sakinlər üçün çox gözəl istirahət zonasıdır, "ASAN xidmət" mərkəzi, Olimpiya Kompleksi, xəstəxana istifadəyə verilib. Əlbəttə ki, Sumqayıt sənaye şəhəri kimi uğurla inkişaf edəcək. Mən əminəm ki, biz qarşıda duran bütün vəzifələri bundan sonra da uğurla icra edəcəyik.

Bir daha sizi təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

* * *

Beləliklə, bütün bu layihələr bir daha sübut edir ki, Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi kursa uyğun olaraq reallaşdırılan sənayeləşmə siyasəti uğurla davam edir. Qeyri-neft sektorunun mühüm tərkib hissəsi olan sənayenin inkişafı, bu sahədə yeni istiqamətlərin müəyyənləşdirilməsi şübhəsiz ki, ölkə iqtisadiyyatının ümumi inkişafına da mühüm töhfələr verir. Belə layihələrin icrası bir neçə mühüm məqamı özündə ehtiva edir. İlk növbədə, bu cür müəssisələrin yaradılması yeni iş yerlərinin açılmasına, işsizliyin azaldılmasına, əhalinin məşğulluğunun artırılmasına töhfə verir. Eyni zamanda, bu cür layihələrin reallaşdırılmasının idxaldan asılılığı azaltmaqla, ixracyönümlü məhsulların sayının və çeşidinin artırılmasında da böyük rolu var.

# Cənubi Qafqazın ikinci sənaye şəhəri olan Sumqayıt inkişafının yeni mərhələsini yaşayır

## Lokomotiv və vaqon parkları yenilənir, müasir dəmir yol stansiyaları tikilir










Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıta səfəri çərçivəsində Dəmir Yolu Vağzalı Kompleksinin açılışında da iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov Sumqayıt stansiyasının tikintisi, Bakı dairəvi, Ləki-Qəbələ, Astara-Astara dəmir yolu xətlərinin çəkilişi ilə bağlı indiyədək görülmüş və bundan sonra layihələrdə nəzərdə tutulan işlər barədə dövlət başçısına ətraflı məlumat verdi. Prezident İlham Əliyevin 2018-ci il 22 yanvar tarixli Sərəncamına əsasən yenidən inşa olunan üçmərtəbəli Sumqayıt Dəmir Yolu Vağzalı binasının ümumi sahəsi 5,5 min kvadratmetrdir. Binanın birinci mərtəbəsində gözləmə zalı, bilet kassaları, məlumat bürosu, polis məntəqəsi, server otağı, əşyaların saxlanması kamerası yerləşir. Yaxın günlərdə burada ticarət mərkəzinin istifadəyə verilməsi planlaşdırılır. Müasir dizaynla tərtib olunmuş istirahət guşələri sərnişinlərin rahatlığını təmin etmək məqsədi daşıyır. İkinci mərtəbədə ofis və maşinistlər üçün istirahət otaqları, mətbəx yerləşir. Binada müasir təhlükəsizlik kameraları, yanğınsöndürmə və havalandırma sistemi quraşdırılıb. Vağzalın zirzəmi hissəsində avtomobil dayanacağı yaradılıb. Əlavə olaraq stansiyada turniket binası, ikimərtəbəli rele və işarəvermə qurğuları binası, hündür və alçaq platformalar, elektrik yarımstansiyası, su nasosxanası, qazanxana və yol sahəsinin məntəqə binası fəaliyyət göstərəcək.

Bildirildi ki, stansiyada, ümumilikdə, 7 yol yenidən qurulub və çəkilmiş ümumi dəmir yollarının uzunluğu 5 min 20 poqonmetrdir. Kompleksdə 12 yoldəyişən quraşdırılıb, uzunluğu 43 metr olan yeraltı piyada keçidi və platformaya yeraltı çıxış keçidi inşa edilib. Bütün stansiya boyu rabitə və işarəvermə işləri tamamilə yenilənib, elektrik dirəkləri, rigelləri və kontakt şəbəkəsi yenidən quraşdırılıb. Vağzal kompleksinin ətrafında yaşıllıq və abadlıq işləri görülüb. Ərazi boyunca müasir işıqlandırma sistemi quraşdırılıb.

Vağzalın belə yüksək səviyyədə yenidən qurulması, ümumilikdə, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi layihələrin uğurla davam etməsinin daha bir nümunəsi olmaqla, ölkənin polad magistrallarının inkişafına göstərilən dövlət qayğısının davamlı xarakter aldığını nümayiş etdirir.

Sonra Prezident İlham Əliyev Sumqayıt-Bakı marşrutu ilə hərəkət edən sərnişin qatarı ilə Bakıya yola düşdü.

Son illərdə lokomotiv və vaqon parklarının yenilənməsi və digər sahələrin müasir tələblər səviyyəsinə çatdırılması istiqamətində görülən tədbirlər nəticəsində İsveçrənin "Stadler Rail Group" şirkətindən "KISS" markalı ikimərtəbəli elektrik qatarları alınaraq ölkəmizə gətirilib. Həmin qatarlar 2015-ci il sentyabrın 12-də Bakı-Sumqayıt marşrutu ilə hərəkətə buraxılıb və qatarın yolasalma mərasimində Prezident İlham Əliyev iştirak edib.



"Stadler Rail Group" şirkətindən alınan bu elektrik qatarları sərnişinlərin rahat, sürətli və təhlükəsiz daşınması üçündür. Dörd vaqondan ibarət olan ikisistemli elektrik qatarlarının hər birinin ümumi sərnişin tutumu 700 nəfər, oturacaq yerlərin sayı isə 367-dir. Qatar saatda 160 kilometr sürətlə hərəkət edir.

Sumqayıtdan Bakıya və əks istiqamətə qatarların hərəkəti müxtəlif intervallarla həyata keçirilir. Sərnişinlərin sayından asılı olaraq, hərəkət qrafikinə əlavələr edilə bilər. Bildirildi ki, Bakı-Sumqayıt marşrutu ilə sərnişinlərin yüksək sürətlə və rahatlıqla daşınmasını təmin etmək məqsədilə genişmiqyaslı tikinti-quraşdırma və təmir-bərpa işləri aparılıb. Sahə üzrə yeraltı piyada keçidi, hündür platformalar, müasir keçid postları inşa edilib, dəmir yolları əsaslı təmir olunub.

Prezident İlham Əliyev Bakı Dəmir Yolu Vağzalına gəldi.

Dövlət başçısı "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən 2016-cı ildən bəri alınmış yeni sərnişin qatarları, lokomotivlər və müxtəlif dəmir yolu texnikaları ilə də tanış oldu. Bildirildi ki, dəmir yollarında xidmətin keyfiyyətinin yüksəldilməsi, habelə dəmir yolu xətlərinin inşası, təmiri və istismarına nəzarəti təmin etmək məqsədilə göstərilən dövrdə müasir beynəlxalq standartlara uyğun bir çox yeni sərnişin qatarları, lokomotivlər və müxtəlif dəmir yolu texnikaları alınaraq istismara verilib. "EVOLUTİON" seriyalı teplovoz Qazaxıstan istehsalıdır. Lokomotiv 2015-ci ildə istehsal olunub və saatda 120 kilometr sürətlə hərəkət edir.

Sabit cərəyanla işləyən lokomotiv isə Gürcüstanın "Elektrovozquraşdırma" şirkətində istehsal olunub və sürəti saatda 100 kilometrdir.

Dövlət başçısına "Alstom Transport" ikisistemli sərnişin lokomotivi də təqdim olundu. Fransanın "Alstom Transport" şirkəti tərəfindən istehsal edilən bu lokomotiv sabit, həmçinin dəyişən cərəyanla işləyir və saatda 160 kilometr sürətlə hərəkət edir. Bütövlükdə, Avstriya, Rusiya, Çexiya və digər ölkələrdən alınan yeni lokomotiv və avadanlıqlar təmir-tikinti və istismar proseslərinin tamamilə avtomatlaşdırılmasına və mexanikləşdirilməsinə imkan yaratmaqla əl əməyini tədricən aradan qaldırır. Yeniliklər həm də nəqliyyatın hərəkətini dayandırmadan köhnə relslərin yeniləri ilə əvəz olunması, şpalların dəyişdirilməsi, yol yataqlarının yenidən qurulması, yolların ətrafının təmizlənməsi, elektrik xətlərinin və dirəklərinin əvəzlənməsinə əlverişli şərait yaradır.

Bildirildi ki, alınan yeni sərnişin qatarları, lokomotivlər və müxtəlif texnikalar həm də dəmir yollarında daşımaların təhlükəsizliyini gücləndirəcək, xüsusilə də sərnişinlərə xidmətin keyfiyyətini daha da yüksəldəcək.

Yeni texnikalar dəmir yolu xətlərinin inşasının, təmiri və istismarının müasir standartlara çatdırılmasını təmin edəcək. Bütün bunlar son illərdə ölkəmizdə nəqliyyat infrastrukturunun davamlı inkişafı üzrə dövlət siyasətinin tərkib hissəsidir. Bu gün Azərbaycanda dəmir yolu infrastrukturunun müasirləşdirilməsi, beynəlxalq standartlara uyğun qurulması Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü iqtisadi inkişaf modelinin bəhrəsidir. Bu model bu gün Azərbaycanı Qərblə Şərq, Şimalla Cənub arasında ən mühüm nəqliyyat qovşağına çevirir.

Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycan Gənclərinin VIII Forumunun iştirakçılarına

Hörmətli forum iştirakçıları!

Əziz gənclər!

Sizi - Azərbaycan Gənclərinin VIII Forumunun nümayəndələrini səmimi qəlbdən salamlayır və ali toplantınızın işinə uğurlar arzulayıram.

Gənclərin növbəti forumunun Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etdiyimiz ildə, "Cümhuriyyətin varisləri - Azərbaycanın gələcəyi" şüarı altında keçirilməsi rəmzi məna daşıyır. İstər Xalq Cümhuriyyətinin mövcud olduğu, istərsə ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə gənclərin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verilmişdir. Hazırda da gənclər siyasəti sosial siyasət kursumuzun və insan kapitalının inkişafı prosesinin əsas istiqamətlərindən biridir.

1996-cı ildə Azərbaycan gənclərinə geniş və açıq müzakirə tribunası vermiş ilk forumun keçirilməsi təşəbbüsü gəncləri daha fəal, daha məsuliyyətli və daha yetkin görmək istəyən ulu öndər Heydər Əliyevə məxsusdur. Ənənəvi olaraq keçirilən forumlar ulu öndərin tarixi qərarına əsaslanaraq gənclərin fikir mübadiləsi aparmaları, öz təklif və ideyalarını səsləndirmələri üçün platformanı təmin etməklə, onların dövlət və cəmiyyətin həyatında fəal iştirakına şərait yaradır.

İqtisadi və hərbi qüdrəti, siyasi nüfuzu regional və qlobal miqyasda davamlı olaraq artan respublikamızda ötən dövr ərzində gənclərin hərtərəfli inkişafını təmin edən, onların intellektual və innovativ yaradıcılıq potensialının reallaşmasına şərait yaradan, ictimai təşəbbüslərini dəstəkləyən çoxsaylı tədbirlər həyata keçirilmişdir. Bu gün Azərbaycan gənci layiqli vətəndaş kimi cəmiyyət həyatının bütün sahələrində fəallıq göstərir, ölkəmizin iqtisadi və hərbi qüdrətinin artması, siyasi nüfuzunun yüksəlməsi, milli-mənəvi və ümumbəşəri dəyərlərə əsaslanan vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi işinə əhəmiyyətli töhfə verir. Gənclər ölkəmizi beynəlxalq arenada da layiqincə təmsil edir, ictimai diplomatiyanın genişlənməsində, xarici həmyaşıdları ilə əlaqələrin qurulmasında səylərini əsirgəmir, Azərbaycanın milli mənafeyini yüksək tuturlar.

Gənclər Siyasəti üzrə I Qlobal Forumun Azərbaycanda keçirilməsi, "Gənclər sahəsində Bakı öhdəlikləri"nin qəbul edilməsi ölkəmizin gənclər siyasəti sahəsində uğurunu, yeni yanaşmaların və standartların tətbiqini əks etdirir. Son illərdə ardıcıllıqla qəbul edilmiş və hazırda uğurla həyata keçirilməkdə olan "Azərbaycan gənclərinin İnkişaf Strategiyası (2015-2025-ci illər)", "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı" gənclərin fərdi inkişafı və qərarların qəbulu prosesində iştirakının artırılması istiqamətində yeni imkanlar yaradır.

Əminəm ki, forum dövlət gənclər siyasətinin daha səmərəli icrası ilə bağlı geniş və hərtərəfli müzakirələr, parlaq və innovativ ideyalar məkanına çevriləcək, gəncləri yeni uğurlara ruhlandıracaqdır.

Bir daha sizin hamınıza və VIII Forumun işinə uğurlar arzu edirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2018-ci il*

# Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin əməkdaşlarına

Hörmətli avtomobil yolu təsərrüfatı işçiləri!

Sizi ölkəmizdə avtomobil yolu təsərrüfatının yaranmasının 100 illik yubileyi münasibətilə təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik və gələcək fəaliyyətinizdə nailiyyətlər arzulayıram.

1918-ci ilin iyun ayında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarına əsasən, Yollar, Poçt və Teleqraf Nazirliyi yaradılmış, bununla da ölkəmizin yol təsərrüfatının ayrıca sahə kimi bünövrəsi qoyulmuşdur. Xalq Cümhuriyyətinin dövlətçilik ənənələrini layiqincə yaşadan müstəqil Azərbaycan Respublikasının ötən müddət ərzində iqtisadiyyatının sürətli inkişaf modeli ilə formalaşmasına yol təsərrüfatı və nəqliyyat sektoru dəyərli töhfələr vermişdir.

Avtomobil yollarının tikintisi, təmiri və saxlanılması ilə məşğul olmuş və ayrı-ayrı illərdə fərqli adlar altında fəaliyyət göstərmiş idarə və təşkilatların bugünkü varisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyidir. Qurum ümummilli lider Heydər Əliyevin "Yol - iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir" sözlərini haqlı olaraq öz fəaliyyətinin başlıca devizinə çevirmişdir.

Ulu öndər respublikamıza rəhbərlik etdiyi illərdə yol infrastrukturunun kompleks şəkildə inkişaf etdirilməsi, avtomobil yolu təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi və onun kadr potensialının gücləndirilməsinə həmişə xüsusi diqqət yetirmişdir. Yol təsərrüfatında əsaslı dönüşün yaradılması və onun idarəetmə mexanizminin bacarıqlı, işgüzar mütəxəssislər hesabına komplektləşdirilməsi məhz Heydər Əliyevin bu istiqamətdə gerçəkləşdirdiyi məqsədyönlü inkişaf strategiyasının bəhrəsidir.

Strategiyanın uğurlu davamı olaraq ölkə həyatının bütün sahələri ilə yanaşı, yol infrastrukturunun sistemli yeniləşdirilməsi və müasir standartlar səviyyəsində avtomobil yolları şəbəkəsinin genişləndirilməsi indi də diqqət mərkəzində saxlanılır. Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin yenidən qurulması artıq başa çatmaq üzrədir. Getdikcə dərinləşən yeniləşmə prosesləri fonunda yol infrastrukturunun sürətlə yaxşılaşması Azərbaycanın hazırkı dinamik inkişaf mənzərəsini səciyyələndirən başlıca cəhətlərdəndir.

İnanıram ki, yüksək peşəkarlığa malik kollektiviniz öz üzərinə düşən vəzifələri bundan sonra da dərin məsuliyyət hissi ilə yerinə yetirəcək, ölkəmizin iqtisadi qüdrətinin artırılması naminə böyük əzmkarlıq və qətiyyətlə çalışacaqdır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2018-ci il*

## "Torpaq bazarı haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq, "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1154-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

1. "Torpaq bazarı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 390; 2002, № 5, maddə 241; 2003, № 1, maddələr 11, 13; 2006, № 6, maddə 478, № 8, maddə 657; 2007, № 1, maddə 3, № 6, maddə 571; 2008, № 5, maddə 348, № 12, maddə 1048; 2012, № 6, maddə 504; 2014, № 3, maddə 235; 2015, № 3, maddə 245, № 10, maddə 1096) 8-ci maddəsinə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin icarəyə verilməsi "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsinə uyğun olaraq həyata keçirilir.".

2. "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 393; 2001, № 12, maddələr 731, 736; 2005, № 12, maddə 1093; 2007, № 5, maddə 401) 6-cı maddəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Məcburi köçkünlərə dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin icarəyə verilməsi "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsinə uyğun olaraq həyata keçirilir.".

2.2. üçüncü cümləyə "Torpaq sahələrinin" sözlərindən sonra "istifadəyə" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 oktyabr 2018-ci il*

## Sumqayıt şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi və abadlıq-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində bu gün də sürətlə inkişaf edən Sumqayıt şəhərində qeyri-neft sənayesinin davamlı inkişafının təmin edilməsi, qabaqcıl texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye sahələrinin yaradılması və əhalinin məşğulluğunun artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, o cümlədən gücü 525 MVt olan Elektrik Stansiyası, "Sumqayıt-3" yarımstansiyası tikilmiş, "Azərkimya" İB-nin müəssisələri yenidən qurulmuş, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin "Azgüntex" Zavodu, "Sağlam qida" Aqrar-Sənaye Kompleksi, "Azərsun Holdinq"in kağız və karton emalı kombinatı və yağ istehsalı fabriki, "Gilan" Tekstil Parkı, Mis Emalı Zavodu, "Alyans Tekstil" MMC-nin uniformalar istehsalı fabriki, "Azkontakt" MMC-nin beton boru və beton döşəmə daşı istehsalı müəssisələri yaradılmış, Kimya Sənaye Parkında İnşaat Kimyəviləri Zavodu, "Tabaterra" QSC-nin tütün məmulatları istehsalı fabriki, Bakı Əlvan Metallar və Ferroərintilər Zavodu, pestisid və aqro-kimyəvi məhsulları, xortum və fitinq birləşmələri, sürtkü yağları, polipropilen qurğusu, elektron təhsil avadanlığı, şüşə və saxsı məmulatları istehsalı müəssisələri, Məlumatların Emalı Mərkəzi, "STP" MMC-nin müxtəlif istehsal sahələri üzrə ixtisaslaşmış 13 zavodu, "Azərtexnolayn" MMC-nin polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsalı zavodları istifadəyə verilmiş, 65 mindən çox yeni iş yeri açılmışdır.

Bununla yanaşı, şəhərdə sosialyönümlü bir sıra infrastruktur layihələri də yerinə yetirilmiş, o cümlədən Olimpiya və Paralimpiya İdman kompleksləri, Bayraq Muzeyi, Gənclər Mərkəzi, Şahmat Məktəbi, Uşaq İncəsənət Məktəbi, əlil və şəhid ailələri üçün ümumilikdə 240 mənzilli 5 yaşayış binası inşa edilmiş, 1 saylı Şəhər Mərkəzi Xəstəxanasının, "Kimyaçılar" Mədəniyyət Sarayının, Sumqayıt Dövlət Dram Teatrının, Tarix Muzeyinin, 1 saylı Uşaq-Gənclər İdman Məktəbinin, 3 saylı Uşaq-Gənclər Şahmat-Dama İdman Məktəbinin binaları əsaslı təmir olunmuş, "ASAN xidmət" mərkəzi fəaliyyətə başlamış, 22 ümumtəhsil müəssisəsi istifadəyə verilmiş, 106 hektar ərazidə dənizkənarı bulvar-kompleksi salınmış, geniş abadlıq-quruculuq işləri görülmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Sumqayıt şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi və abadlıq-quruculuq işlərinin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Sumqayıt şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi və abadlıq-quruculuq işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Sumqayıt Şəhər İcra Hakimiyyətinə 5,0 (beş) milyon manat, o cümlədən 18 çoxmənzilli binanın istismara yararsız 62 liftinin yenilənməsi üçün 2,5 milyon (iki milyon beş yüz min) manat, abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün 2,5 milyon (iki milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2018-ci il*

## "Torpaq bazarı haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1287-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Torpaq bazarı haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1287-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Torpaq bazarı haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Torpaq bazarı haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2018-ci il*

## Sumqayıt şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Sumqayıt şəhərində 1176 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2018-ci il*

## Sumqayıt şəhərində avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Sumqayıt şəhərində avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu sərəncamın 1-ci hissəsində göstərilən işlərin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2018-ci il*

## "Azərbaycan Respublikası Vergilər Nazirliyi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 665 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Vergilər Nazirliyi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 665 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 3, maddə 195; 2005, № 11, maddə 1049; 2009, № 9, maddə 713; 2013, № 7, maddə 822; 2015, № 2, maddə 146; 2016, № 4, maddə 711, № 10, maddə 1653; 2017, № 2, maddə 213) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikasının Vergilər Nazirliyi kollegiyasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikasının vergilər naziri

**Kollegiyanın üzvləri**

Azərbaycan Respublikası vergilər nazirinin birinci müavini

Azərbaycan Respublikası vergilər nazirinin müavinləri

Naxçıvan Muxtar Respublikasının vergilər naziri

Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi siyasəti departamentinin baş direktoru

Azərbaycan Respublikası Vergilər Nazirliyinin İqtisadi təhlil və ekspertiza departamentinin baş direktoru

Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında Milli gəlirlər departamentinin baş direktoru.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2018-ci il*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12, I kitab, maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2, I kitab, maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12, I kitab, maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193; Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1194-VQD və 1211-VQD nömrəli qanunları) 90.3.3.9-cu maddəsində "torpaq sahəsinin ayrılması barədə qərarın və tikintiyə razılıq verilməsi haqqında sənədin surəti" sözləri "torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənədin və tikintiyə icazənin surətləri" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1246-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1246-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2018-ci il*

# Akademik Ramiz Mehdiyevin "Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix" kitabı: bilinməyən həqiqətlərin tarixi təsdiqi

## AMEA-nın Mərkəzi Elmi Kitabxanasında kitabın Livanda ərəb dilinə tərcümə edilmiş nəşrinin təqdimatı keçirilib

Noyabrın 16-da AMEA-nın Fəlsəfə İnstitutunun təşkilatçılığı ilə Mərkəzi Elmi Kitabxanada Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix" kitabının Livanda ərəb dilinə tərcümə edilmiş nəşrinin təqdimatı keçirilib.





AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində çıxış edən AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli kitabda münaqişənin yaranma səbəblərini izah edən, habelə Dağlıq Qarabağın Azərbaycana mənsub olmasını dəqiq göstərən müxtəlif tarixi mənbələrin əksini tapdığını söyləyib. Bildirib ki, tədqiqatda antik və orta əsrlər dövrünə aid çoxsaylı məxəzlər, habelə yeni və müasir dövrün sənədləri əsasında Cənubi Qafqazın həqiqi tarixi, həmçinin ermənilərin XIX əsrin əvvəllərində bu ərazilərə köçürülməsi məsələləri əhatə olunub.

Akademik qeyd edib ki, nəşrdə XIX əsrdən etibarən Dağlıq Qarabağda, eləcə də tarixi Azərbaycan ərazisi olan indiki Ermənistan Respublikasında ermənilərin sayca üstünlük təşkil etməyə başlamasının çar imperiyasının məqsədyönlü siyasətinin nəticəsi olduğu oxucuya çatdırılıb. İsa Həbibbəyli kitabda, eyni zamanda, Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətindən bəhs olunduğunu deyib. O, əsərin ərəb dilində nəşrinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünyaya çatdırılmasında, erməni yalanlarına qarşı mübarizədə əsaslı rol oynayacağını vurğulayıb.

İsa Həbibbəyli akademik Ramiz Mehdiyevin ölkəmizdə böyük rezonans doğurmuş "Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix" kitabının bu yaxınlarda Livanın paytaxtı Beyrut şəhərində "Delta" Dərin Araşdırmalar Mərkəzində nəşr edildiyini bildirib. Qeyd edib ki, bu qiymətli əsər bir çox dillərə, o cümlədən fransız, ingilis, türk, rus dillərinə tərcümə olunub. Kitabı ərəb dilinə əlcəzairli tədqiqatçı, professor Zəim Xənişlavi tərcümə edib. "Ərəb dilinə tərcümə olunmuş "Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix" kitabını AMEA-nın Ədəbiyyat və Fəlsəfə institutlarının ərəb dili üzrə mütəxəssisləri redaktə ediblər. Onlar mənə dedilər ki, tərcüməçi coğrafi adlarda, faktlarda heç bir yanlışlığa yol verməyib", - deyə AMEA-nın vitse-prezidenti bildirib. O, mükəmməl tərcüməyə görə Zəim Xənişlaviyə, eləcə də bu işdə əməyi olan hər kəsə təşəkkür edib.

AMEA-nın vitse-prezidenti kitabın çapında və ölkəmizə gətirilməsində Azərbaycanın Livan və Əlcəzairdəki səfirliklərinin müstəsna xidmətləri olduğunu bildirib.

AMEA-nın Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə isə tərcümə prosesindən danışıb. Qeyd edib ki, professor Zəim Xənişlavi V Bakı Beynəlxalq Humanitar Forumunda iştirak edib və burada akademik Ramiz Mehdiyevlə görüşərək ondan bu kitabın tərcüməsinə və nəşrinə icazə alıb. Tərcüməçinin öyrənilən problemə bələdliyi ərəb oxucusuna Qarabağ problemini aydın şəkildə başa düşmək imkanı verir.

Sonra Zəim Xənişlaviyə Azərbaycan-ərəb əlaqələrinə verdiyi töhfəyə görə AMEA-nın Fəlsəfə İnstitutunun fəxri doktoru diplomu təqdim olunub.

Belə bir sanballı kitabı ərəb dilinə tərcümə etməsindən qürur duyduğunu vurğulayan Zəim Xənişlavi deyib: "Akademik Ramiz Mehdiyevin "Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix" kitabını Fransada bir mağazadan alıb oxudum. Oxuduqca hiss elədim ki, bu kitab təkcə kitab deyil, həm də bütöv bir kitabxanadır. Azərbaycan həqiqətlərini ərəb dünyasına çatdırmaq üçün kitabı ərəb dilinə tərcümə etmək qərarına gəldim və bu işi uğurla başa çatdırdım. Düşünürəm ki, bu kitabı tərcümə etməklə düzgün addım atmışam. Çünki bu kitab dünyanı xilas etmək üçün çox dəyərli bir vəsaitdir".

Xalq yazıçısı, Milli Məclisin deputatı Elmira Axundovanın: "Livanda güclü erməni lobbisi var. Siz bu işi görərkən ermənilərin hücumlarına məruz qaldınızmı" sualına cavabında Zəim Xənişlavi kitabda elmi dəlillərin tutarlı olmasına görə onların təzyiqləri ilə qarşılaşmadığını deyib.

Kitabın məziyyətlərindən söhbət açan Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü, professor Bəxtiyar Əliyev qeyd edib ki, kitabın ərəb dilinə tərcümə olunması çox böyük bir hadisədir. Kitab oxucuya problemin mahiyyətinə varmağa, münaqişənin səbəb və nəticələrini görməyə imkan verir. Diqqətə çatdırılıb ki, kitabda xarici mənbələrdən istifadə olunması onun sanbalını daha da artırır.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, professor Hikmət Babaoğlu isə "Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix" kitabının həqiqətləri öyrənmək istəyənlər üçün mötəbər mənbə olduğunu bildirib. O, kitabın digər dillərə də tərcümə olunmasının vacibliyini vurğulayıb.

Tədbirdə həmçinin Fəlsəfə İnstitutunun şöbə müdiri, professor Rəna Mirzəzadə, həmin müəssisənin aparıcı elmi işçisi Sənan Həsənov, Bakı Dövlət Universitetinin kafedra müdiri, professor İzzət Rüstəmov və başqaları nəşrin tərcüməsinin önəminə toxunub, kitabın oxucuya problemin mahiyyətinə varmağa, münaqişənin səbəb və nəticələrini görməyə imkan yaratdığını qeyd ediblər.

# Azərbaycan öz multikultural və tolerant yaşam tərzi ilə dünyaya nümunədir





Noyabrın 16-da Bakıda Beynəlxalq Tolerantlıq Günü münasibətilə tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) tərəfindən təşkil olunan tədbirdə Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov çıxış edərək Beynəlxalq Tolerantlıq Günü ilə bağlı məlumat verib. O, Azərbaycanda multikultural dəyərlərin və tolerantlıq ənənələrinin yaşının əsrlərlə ölçüldüyünü, ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanların yüz illərlə qardaşcasına yanaşı yaşadığını vurğulayıb. Azərbaycan dünyada çox az ölkələrdəndir ki, burada bütün dinlərə mənsub insanlar rahat yaşayırlar. Ölkəmizdə bütün dinlərin və millətlərin nümayəndələrinə eyni münasibət var. Azərbaycanda mədəni, dini müxtəlifliyin qorunmasına xüsusi önəm verilir. Bu ənənə ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və hazırda Prezident İlham Əliyev bunu layiqli şəkildə davam etdirir. Ölkəmizdə multikulturalizm sahəsində mühüm tədbirlər keçirilib. Şöbə müdiri bildirib ki, Azərbaycan dövlətinin həyata keçirdiyi tolerantlıq siyasəti ölkəmizdə yaşayan etnik və dini icmalar arasında dostluğun və qardaşlığın daha da möhkəmlənməsinə zəmin yaradır.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının sədri, Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdullayev tədbirdə çıxış edərək bildirib ki, ölkəmizdəki tolerantlıq mühitinin hazırkı səviyyəyə gəlib çatması Prezident İlham Əliyevin bu istiqamətdə apardığı siyasətin, dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşımıza bərabər münasibətinin nəticəsidir. Azərbaycanda dini və milli mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşımız bərabərhüquqludur və öz inancına görə azaddır. Azərbaycan öz multikultural və tolerant yaşam tərzi ilə dünyaya nümunədir. Multikulturalizm Azərbaycanda həyat tərzidir və dövlət siyasətidir. Multikulturalizmin və tolerantlığın alternativi yoxdur. Bu siyasətdən imtina etmək antisemitizmə, ksenofobiyaya, islamofobiyaya qucaq açmaq deməkdir. Azərbaycan dövləti öz vətəndaşını qorumaq, davamlı sabitliyi təmin etmək üçün multikulturalizm siyasətinə böyük önəm verir.

Daha sonra Azərbaycanda multikulturalizmin inkişafında göstərdikləri xidmətə görə bir qrup şəxsə, müxtəlif dini icmaların nümayəndələrinə mükafatlar təqdim edilib.

Tədbir Azərbaycan Dillər Universitetinin müxtəlif ölkələri təmsil edən Mədəniyyət mərkəzlərinin təşkilatçılığı ilə hazırlanan bədii proqramla yekunlaşıb.

# Mövcud yolların yenidən qurulması dövlətin diqqət mərkəzindədir

Noyabrın 16-da Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) avtomobil yolları təsərrüfatının yaradılmasının 100 illiyinə həsr olunmuş tədbir keçirib. AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini anıb, məzarı önünə əklil qoyublar.



Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Daha sonra Şəhidlər xiyabanına gedən tədbir iştirakçıları ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə güllər düzüblər.

Tədbirdə Prezidentin iqtisadi məsələlər üzrə köməkçisi Əli Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına təbrik məktubunu oxuyub *(məktub qəzetin bugünkü nömrəsində dərc olunub).*

Daha sonra AAYDA-nın İdarə Heyətinin sədri Saleh Məmmədov Azərbaycan avtomobil yollarının tarixindən və son illər respublika yollarının təmiri, bərpası və yenidənqurulması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

Saleh Məmmədov qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində mövcud olsa da, yollar sahəsində o dövr üçün böyük işlər görülüb.

S.Məmmədov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə ölkə üzrə 15 min kilometr uzunluğunda yol çəkilib. Təkcə bu ilin 9 ayında 30-a yaxın rayonda və paytaxtda təqribən 1 milyon əhalinin yaşadığı 500-dən çox yaşayış məntəqəsini əhatə edən layihələr üzrə tikinti və yenidənqurma işləri başa çatdırılıb.

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, yol təsərrüfatında daha ciddi uğurların əldə olunması isə ulu öndər Heydər Əliyevin 1969-cu ildə respublika rəhbərliyinə gəlməsindən sonraya təsadüf edir. Respublika iqtisadiyyatının inkişafı ilə bağlı həyata keçirilən tədbirlər mövcud avtomobil yolları şəbəkəsinin genişləndirilməsini, bərpasını və yenidən qurulmasını zərurətə çevirib. Yol təsərrüfatında görülən işlər müstəqilliyimizi bərpa etdikdən sonra da davam etdirilib. Ümummilli lider Heydər Əliyev "Tarixi İpək yolu"nun bərpası ideyasını xəyaldan reallığa çevirib. Bu nəhəng layihənin gerçəkləşdirilməsi nəticəsində ölkəmizin geostrateji və geosiyasi əhəmiyyəti daha da artıb, Azərbaycan Şərqlə-Qərb arasında strateji körpü rolunu oynayan əlverişli tranzit məkanına çevrilib.

Sədr ölkədə yol infrastrukturunun daha da təkmilləşdirilməsinin, mövcud yolların yenidən qurulmasının Prezident İlham Əliyevin iqtisadi siyasətində də diqqət mərkəzində saxlanıldığını vurğulayıb. Bildirilib ki, magistral yolların beynəlxalq standartlara uyğun yenidən qurulması, avtomobil yollarının istismarı, tikintisi və təmiri, eyni zamanda, yolların qorunması, təhlükəsizliyi və ətrafının yaşıllaşdırılması istiqamətində ciddi dönüş yaranıb. Qəbul olunan proqramlar çərçivəsində Bakıda, habelə digər şəhər və rayonlarda yeni avtomobil yollarının salınması, nəqliyyat qovşaqlarının və körpülərin tikintisi geniş vüsət alıb. Azərbaycanın nəqliyyat potensialı daha da gücləndirilib.

Hazırda Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən respublikanın ümumi istifadədə olan 17500 kilometr uzunluğunda avtomobil yollarına və paytaxtın 1600 kilometr uzunluğundakı küçə və prospektlərinə, eləcə də bu yollar üzərində yerləşən 1400-dən yuxarı yol ötürücüsü, körpü və tunellərə xidmət göstərilir.

Onun sözlərinə görə, ölkəmizin yol təsərrüfatının inkişafında mühüm nəticələr qazanılıb. Bunu beynəlxalq reytinq agentliklərinin hesabatları da təsdiqləyir. Belə ki, Dünya İqtisadi Forumunun reytinqlərində öz yerini hər zaman möhkəmləndirən Azərbaycan 2017-ci ildə MDB məkanında ən yaxşı yolları olan ölkə seçilib. Dünya İqtisadi Forumunun apardığı tədqiqata görə, Azərbaycan yol infrastrukturunun keyfiyyəti reytinqində dünyanın 137 ölkəsi arasında 36-cı yerdə qərarlaşıb.

Tədbirdə Azərbaycan avtomobil yollarının 100 illiyinə həsr olunmuş film nümayiş olunub.

Yubiley tədbirində Türkiyə, Rusiya, Koreya Respublikası, Çin, Yunanıstan və digər ölkələrdən qonaqlar iştirak ediblər.

# Kamal Abdullayev Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri seçilib

Noyabrın 16-da Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) Himayəçilik Şurasının yeni tərkibdə ilk iclası keçirilib.

BBMM-in mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, professor Etibar Nəcəfovun sədrliyi ilə keçən iclasda BBMM-in Himayəçilik Şurasının digər üzvləri - Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə, Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdullayev, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, professor Firəngiz Əlizadə, Azərbaycanda Rus İcmasının sədri, deputat Mixail Zabelin və Azərbaycan Rus Dram Teatrının bədii rəhbəri, Xalq artisti Aleksandr Şarovski iştirak ediblər.

Toplantıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 8 noyabr tarixli sərəncamı ilə təyin edilən BBMM-in Himayəçilik Şurasının üzvləri Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdullayevi növbəti dörd il müddətinə yenidən sədr seçib.

Kamal Abdullayev göstərdikləri yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Himayəçilik Şurasının üzvlərinə təşəkkürünü bildirib, dövlət başçısı tərəfindən Mərkəzin qarşısında qoyulan vəzifələrin bundan sonra da uğurla həyata keçirilməsinə əmin olduğunu ifadə edib.

# Azərbaycan qazı sürətlə Avropaya yaxınlaşır

*Əvvəli 1-ci səh.*

2009-cu ildən bəri aparılan dizayn və mühəndislik işləri də daxil olmaqla, layihənin ümumi dəyərinin 4,5 milyard avro təşkil edəcəyi nəzərdə tutulmuşdur.

Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev TAP-ın uğurla irəlilədiyini vurğulayaraq demişdir: "Cənub qaz dəhlizi"nin reallaşmasında da çox böyük addımlar atılıb. May ayında "Cənub qaz dəhlizi"nin rəsmi açılışı olmuşdur və bu, tarixi hadisədir. İyun ayında isə TANAP-ın rəsmi açılışı oldu. Beləliklə, "Cənub qaz dəhlizi"nin dörd layihəsindən üçü artıq reallaşıb - "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəməri və TANAP layihəsi. Dördüncü layihə - TAP qrafik üzrə icra edilir".

Azərbaycan təbii qazı bu il mayın 29-da Səngəçal terminalından "Cənub qaz dəhlizi" sisteminə qoşulub. İyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP (Transanadolu Qaz Boru Kəməri) istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqlinə, əvvəlcədən nəzərdə tutulduğu kimi, iyunun 30-da başlanıb. 2020-ci ildə isə Azərbaycan qazının TAP-la Avropaya çatdırılması planlaşdırılır.

Hazırda TAP layihəsi üzrə mühəndis, təchizat və inşaat da daxil olmaqla işlərin ümumilikdə 80 faizdən çoxu icra olunub. Kəmərin Yunanıstan və Albaniya hissəsinin 98 faizində ərazi təmizlənib və qiymətləndirilib. Bu ölkələrdə boruların təxminən 90 faizi xəndəyə endirilib. Xəndəklərin qazılması işlərinin 97 faizi yekunlaşıb. Kəmərin sözügedən iki ölkədən keçən marşrutunun 80 faizində torpaq örtüyü bərpa edilib. Boruların qaynaq işlərinin 98 faizi arxada qalıb. TAP-ın dənizin altından keçəcək 105 kilometrlik hissəsində mikrotunel üçün qazma işləri və boruların qaynağına hazırlıq görülür. Dəniz hissəsinin inşası qrafikə uyğun olaraq gələn il həyata keçiriləcək. Sualtı işlər ən müasir borudüzmə gəmiləri vasitəsilə görüləcək.

Kəmərin keçdiyi yol qısa olmadığından və ayrı-ayrı hissələri fərqli coğrafi şəraitdə yerləşdiyindən tikinti işləri də mürəkkəbdir. Belə ki, marşrut boyu kəmərin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə olacaq. Ən yüksək hissəsi isə Albaniya dağlarında 1800 metrə çatan zirvələrdən keçəcək. Xəttin quru ərazidən keçən hissəsində boruların diametri 48, sualtı hissədə 37 düym olacaq.

Xatırladaq ki, TAP layihəsində SOCAR (20 faiz), BP (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz) şirkətləri iştirak edirlər.

Kəmərin müvəffəqiyyətlə istismara daxil olacağına heç bir şübhə yoxdur. Bu əminlik 2015-ci ildən başlayaraq hər ilin əvvəlində Bakıda keçirilən "Cənub qaz dəhlizi" Məşvərət Şurasının iclaslarında vurğulanıb və digər mötəbər tədbirlərdə də qeyd edilib. Layihəyə göstərilən hərtərəfli dəstək, o cümlədən Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) bu ilin sonuna kimi TAP üçün ayırdığı 500 milyon avroluq krediti yekunlaşdıracağı bu əminliyi daha da artırıb. Bundan əlavə, EBRD vasitəsilə digər maliyyə qurumlarından da 500 milyon avro məbləğində maliyyələşmə nəzərdə tutulur. Beləliklə, TAP üçün 1 milyard avroluq maliyyələşdirmə təmin olunacaq ki, bu da layihənin uğurla başa çatdırılmasına sanballı dəstəkdir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Pakistanın media qurumları ilə informasiya mübadiləsinin genişləndirilməsi zəruridir

Pakistanın "Dispatch News Desk" (DND) xəbər agentliyi AZƏRTAC ilə informasiya mübadiləsi sahəsində əməkdaşlıq etmək niyyətindədir.



İki media qurumu arasında əlaqələrin yaradılması noyabrın 16-da AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanovun DND xəbər agentliyinin baş redaktoru Ağa İqrar Harun ilə görüşdə müzakirə olunub.

Azərbaycan ilə Pakistanı sıx dostluq və qardaşlıq münasibətləri birləşdirdiyini deyən Aslan Aslanov bütün sahələrdə olduğu kimi KİV arasında da əməkdaşlığın genişləndirilməsinin önəmli olduğunu bildirib. Qeyd olunub ki, Pakistan Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən dövlət kimi Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin zəbt edilməsini daim pisləyir, bu işğalçı ölkəni beynəlxalq səviyyədə tanımır: "Regionun nüfuzlu ölkələrindən olan Pakistanın media qurumları ilə informasiya mübadiləsinin genişləndirilməsini zəruri hesab edirik. Bu, iki ölkənin və xalqlarımızın daha da yaxınlaşmasında, cəmiyyətlərimizdə məlumatlılığın artırılmasında mühüm əhəmiyyət kəsb edir", - deyə İdarə Heyətinin sədri qeyd edib. Vurğulanıb ki, DND agentliyi ilə ikitərəfli əməkdaşlıq qarşılıqlı xəbər yayımının gücləndirilməsi istiqamətində müsbət addım olacaq.

Azərbaycan Pakistanın xarici siyasətində özünəməxsus yer tutur. Bu barədə danışan Ağa İqrar Harun hər iki ölkənin bir-birinin ərazi bütövlüyünü dəstəkləməsinin qarşılıqlı münasibətlərdə vacib amil olduğunu qeyd edib. İnformasiya sahəsində əlaqələrin inkişaf etdirilməsi təşəbbüsünə dəstək verən baş redaktor AZƏRTAC-ın xəbərlərinin öz kanalları vasitəsilə Pakistan cəmiyyətinə çatdırmağa hazır olduqlarını söyləyib: "Agentliyimiz Azərbaycanla bağlı xəbərlərin yayılmasına diqqətlə yanaşır. Biz sizin xəbərləri urdu dilində də yaymaq istəyirik. Ümid edirik ki, bizim əməkdaşlığımız Pakistanla bağlı xəbərlərin də Azərbaycanda daha geniş yayılması üçün şərait yaradacaq", - deyə baş redaktor qeyd edib.

Görüşdə AZƏRTAC-ın hazırda Dünya Xəbər Agentlikləri Konqresi, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri (OANA) təşkilatına sədrliyi, bu beynəlxalq qurumlar çərçivəsində Pakistanın APP və PPİ agentlikləri ilə əməkdaşlıq etməsi barədə qonağa məlumat verilib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Bakıda Azərbaycan Gənclərinin VIII Forumu keçirilib

Noyabrın 16-da Bakı Konqres Mərkəzində "Cümhuriyyətin varisləri - Azərbaycanın gələcəyi" devizi altında Azərbaycan Gənclərinin VIII Forumu keçirilib.











AZƏRTAC xəbər verir ki, forumda dövlət və hökumət rəsmiləri, o cümlədən Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi - Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, gənclər və idman naziri Azad Rəhimov, Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Tahir Süleymanov, Milli Məclisin deputatları, gənclər təşkilatlarının rəhbərləri, ölkəmizin müxtəlif zonalarından foruma nümayəndə seçilmiş gənclər, idmançılar, hərbçi gənclər iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Birinci vitse-prezidentin köməkçisi - Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri **Yusuf Məmmədəliyev** Azərbaycan Prezidenti İlham Əliyevin forum iştirakçılarına təbrik məktubunu oxuyub *(məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).*

Sonra Azərbaycan Gənclərinin VII Forumundan ötən müddətdə ölkəmizdə gənclər sahəsində həyata keçirilən tədbirlər barədə hazırlanan videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən gənclər və idman naziri **Azad Rəhimov** VIII Forumun ölkəmiz üçün əlamətdar tarixdə - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinin qeyd olunduğu ildə keçirilməsindən məmnunluğunu bildirib.

Nazir deyib ki, 1996-cı ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə keçirilmiş Azərbaycan Gənclərinin Forumu ölkə gənclərinin Azərbaycanın gələcəyi olması ilə bağlı ciddi göstəriş və mesaj idi. İlk forumdan ötən 22 ildə gənclərin həyatında mühüm dəyişikliklərin olduğunu qeyd edən A.Rəhimov diqqətə çatdırıb ki, 1994-2003-cü illər Azərbaycanda gənclərin oyanış və təşkilatlanma dövrü olub. Məhz bu dövrdə ilk gənclər təşkilatları yarandı. Əməkdaşlığın genişlənməsi, məsuliyyətin artması nəticəsində Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının yaradılması gənclərin iştirakına, sosial təşəbbüskarlığına mühüm təkan verdi. Bundan sonra yerli idarələr vasitəsilə regionlardakı gənclərlə iş aparılmağa başlanıldı.

Diqqətə çatdırılıb ki, 2004-2010-cu illərdə - gənclərin ictimai savada yiyələnmə dövründə onların maraqlarının təmin olunması sahəsində ciddi işlər görülüb, Azərbaycan gənclərinin beynəlxalq əməkdaşlığı artıb. 2007-ci ildə ölkədə "Gənclər ili" elan olunub, 2008-ci ildə Azərbaycanın birinci xanımı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın fəxri sədrliyi ilə Gənclərin Məşğulluğu üzrə IV Dünya Sammiti, Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadası keçirilib. Prezident İlham Əliyevin bəyan etdiyi "Qara qızılın insan kapitalına çevrilməsi" prinsipi istiqamətində həyata keçirilən tədbirlərin ən böyük təsiri məhz gənclərə olub.

Nazir bildirib ki, gənclər siyasətində 2004-cü ildən yeni inkişaf dövrü başlanıb, bu sahənin maddi-texniki bazası möhkəmlənib. Dövlət büdcəsindən gənclər sahəsinə ayrılan vəsait on il ərzində yüz dəfəyədək artıb. 2005-ci və 2011-ci illərdə Azərbaycan gəncləri ilə bağlı ardıcıl olaraq iki dövlət proqramı qəbul edilib.

2011-2017-ci illərin gənclərin yüksək iştirakçılıq mərhələsi və Azərbaycan gənclər siyasəti təcrübəsinin beynəlxalq səviyyədə tanınması dövrü kimi dəyərləndirildiyini deyən nazir bildirib ki, bu illər, həmçinin gənclərə dövlət dəstəyinin ən sürətlə artdığı dövr olub. Artıq dövlət proqramlarının icrasında, beynəlxalq əməkdaşlığın inkişafında, Azərbaycan maraqlarının xaricdə müdafiəsində gənclər və gənclər təşkilatları daha yüksək fəallıq göstərməyə başlayıblar.

Bildirilib ki, dövlət proqramlarının icrası nəticəsində əsaslı yeniliklər baş verib - Gənclər Fondu yaradılıb, gənclər siyasətinin əsas infrastrukturu olan Gənclər evi şəbəkəsi genişlənib, Gənclər üçün Prezident mükafatı təsis olunub.

Bu illərdə əldə olunan uğurlar arasında "Gəncə - 2016-cı ilin Avropa paytaxtı", Virtual Qarabağ İKT Mərkəzinin layihələrini, Dünya Skaut Təşkilatının 41-ci Dünya Konfransının Azərbaycanda keçirilməsini, "Mən azərbaycanlıyam" milli intellektual televiziya yarışmasını və "Müasir Azərbaycan gənci" gündəlik televiziya proqramını qeyd edən nazir bununla yanaşı, yaradıcı gənclərin II və III forumlarının, kompüter oyunları üzrə müsabiqələrin, gənc alimlərin Avropa və dünya konfranslarının təşkilini, "İstedadların hazırlığı laboratoriyası"nı, milli intellektual oyunları və s. layihə və tədbirləri qeyd edib.

A.Rəhimov xüsusi vurğulayıb ki, son beş ildə nazirlik tərəfindən 681 tədbir, o cümlədən 107 beynəlxalq tədbir həyata keçirilib. Xarici heyətlər çərçivəsində 7305 əcnəbi Azərbaycana səfər edib, 1277 azərbaycanlı gənc beynəlxalq tədbirlərə qatılıblar. Gənclərimizin təşəbbüsü ilə mənzil-qərargahı Bakıda yerləşən 5 beynəlxalq gənclər təşkilatı yaradılıb.

Azərbaycan gənclərinin beynəlxalq əməkdaşlığı barədə də məlumat verən nazir bu baxımdan 2014-cü ildə ölkəmizdə keçirilən və 165 ölkədən 700 nümayəndənin iştirak etdiyi Gənclər Siyasəti üzrə I Qlobal Forumun əhəmiyyətini xüsusi vurğulayıb. Nazir bununla yanaşı, 42 xarici ölkədə keçirilən "Mən Azərbaycan haqqında nə bilirəm" esse müsabiqəsinin, könüllülük hərəkatının inkişafını qeyd edib.

VIII Forumun səmərəli müzakirələrlə gənclərin həyatında yaddaqalan tədbirə çevriləcəyinə əminliyini ifadə edən nazir tədbirin işinə uğurlar arzulayıb.

Milli Məclisin Gənclər və idman komitəsinin sədri **Ülvi Quliyev** Azərbaycanda gənclər siyasətinin dövlətin həyata keçirdiyi siyasi kursun prioritet istiqamətlərindən olduğunu bildirib. Cəmiyyətin aparıcı qüvvəsinə çevrilən gənclərin ölkə həyatının bütün sahələrində fəal iştirak etdiklərini vurğulayan komitə sədri deyib ki, gənclərimiz dövlətimizin dəstəyi ilə mühüm yerli və beynəlxalq tədbirlərdə uğurla çıxış edir, ölkəmizi beynəlxalq aləmdə uğurla təbliğ edirlər. Bu tədbirlər Azərbaycan gənclərinin dünyagörüşünün, fəallığının artmasında, onların beynəlxalq əlaqələrinin inkişafında da mühüm rol oynayıb.

Diqqətə çatdırılıb ki, müstəqilliyin bərpasından indiyə kimi Azərbaycanda gənclər sahəsində mühüm uğurlar əldə olunub. Bu uğurların əsas səbəbi dövlət gənclər siyasətinin təməlinin sağlam zəmində formalaşdırılması olub. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu dövlət gənclər siyasəti bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Dövlət başçısının bu sahəyə yüksək diqqət və qayğısı nəticəsində ölkəmizdə gənclərin inkişafı ilə bağlı mühüm dövlət proqramları və strategiyaları qəbul olunub, Gənclər mərkəzləri, Gənclər evləri, Olimpiya İdman Kompleksləri istifadəyə verilib.

Ülvi Quliyev dövlət gənclər siyasətinin uğurla reallaşdırılmasında digər qurumlarla yanaşı, Azərbaycan Respublikası Gənclər Fondunun uğurlu fəaliyyətini də xüsusi qeyd edib. Bu sahədə uğurlu fəaliyyətin əsasında möhkəm qanunvericilik bazasının da mühüm rol oynadığını vurğulayan komitə sədri bu baxımdan 2002-ci ildə parlamentdə qəbul olunmuş "Gənclər siyasəti haqqında" Qanunun qəbul edildiyini bildirib. O, cəmiyyətin sürətli inkişafı nəticəsində yaranan zərurətlə əlaqədar həmin qanuna yeni əlavə və dəyişikliklərin edildiyini diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri **Azad Cabbarov** dövlət gənclər siyasətinin muxtar respublikada da uğurla həyata keçirilməsi nəticəsində əldə olunan uğurlardan danışıb. Bildirilib ki, muxtar respublikada gənclərin problemlərinin həlli, onların məşğulluğu, yaradıcı təşəbbüslərinin reallaşdırılması, gənclər arasında sağlam həyat tərzinin təbliği məsələlərinə xüsusi diqqət yetirilir.

Muxtar respublika əhalisinin 140 min nəfərini (30,8 faiz) gənclərin təşkil etdiyini deyən A.Cabbarov bildirib ki, gənclərin vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir, onların muzeylərə, tarixi abidələrimizə ekskursiyaları təşkil olunur. Bu gün əldə olunan uğurlar bu sahəyə yüksək diqqət və qayğının göstəricisidir.

Naxçıvan Muxtar Respublikasında gənclərin fiziki inkişafının, sağlamlıqlarının qorunması, bədən tərbiyəsi və idmanın kütləviliyinin artırılması baxımından görülən işlərdən danışan A.Cabbarov vurğulayıb ki, muxtar respublikada bu imkanlardan bəhrələnən gənclərin sayı 40 minə yaxındır. Bu diqqətin nəticəsidir ki, naxçıvanlı idmançılar yerli və beynəlxalq turnirlərdə böyük uğurlar qazanırlar. Naxçıvanlı idmançılar il ərzində ümumilikdə 172, o cümlədən ölkə birinciliklərində 84, beynəlxalq turnirlərdə 83, Avropa çempionatlarında 3, dünya çempionatlarında 2 medal qazanıblar.

Muxtar respublikanın gənclər və idman naziri bildirib ki, Naxçıvanın 2018-ci il Azərbaycanın Gənclər paytaxtı və İslam Mədəniyyətinin paytaxtı seçilməsi muxtar respublika gənclərinin inkişafında, onların fəallıqlarının artırılmasında və beynəlxalq əlaqələrinin gücləndirilməsində mühüm rol oynayıb. O, çıxışının sonunda muxtar respublika gənclərinə göstərilən yüksək diqqət və qayğıya görə naxçıvanlı gənclər adından Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib.

Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru **Fərid Cəfərov** çıxışında ölkəmizdə gənclərin bilik və bacarıqlarının inkişafı, onların təşəbbüs və layihələrinin dəstəklənməsi istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, Azərbaycan gənclərə göstərilən xidmət və yaradılan şərait baxımından dünyanın ən qabaqcıl ölkələrindəndir. Azərbaycan, həmçinin BMT-nin "İnsan İnkişafı İndeksi"ndə də dünyada ilk sıralardadır.

Dövlət başçısının diqqət və qayğısı nəticəsində ölkəmizdə digər qurumlar kimi, Gənclər Fondunun da bu sahədə səmərəli fəaliyyət göstərdiyini vurğulayan F.Cəfərov Prezident İlham Əliyevin sərəncamı ilə fondun fəaliyyət dairəsinin və səlahiyyətlərinin genişləndirilməsinin gənclər üçün yeni imkanlar yaratdığını diqqətə çatdırıb. Bildirib ki, yaradılan imkanlardan bəhrələnən gənclərimiz ən müasir biliklərə yiyələnərək ölkəmizi beynəlxalq arenada uğurla təbliğ edir, dövlətimizin inkişafına mühüm töhfə verir, vətənimizin keşiyində ayıqsayıq dayanırlar.

Gənclərin ölkəmizin və cəmiyyətin inkişafında rolunu artırmaq, onların əlaqələrini gücləndirmək, dövlət və vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığı inkişaf etdirmək baxımından forumun əhəmiyyətini yüksək qiymətləndirən fondun sədri tədbirin işinə uğurlar arzulayıb.

Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (GTMŞ) sədri **Məryəm Məcidova** sıralarında 127 təşkilatın birləşdiyi qurumun ötən dörd ildəki fəaliyyətinin yekunları barədə məlumat verib. M.Məcidova bu tədbirlər arasında Azərbaycan Könüllülük Xidməti, "Xətdə", BMT ilə birgə reallaşdırılan "Gənclər daha yaxşı gələcək uğrunda", "Nifrət nitqinə yox" və s. layihə, kampaniya və proqramların uğurla reallaşdırıldığını bildirib. Diqqətə çatdırılıb ki, beynəlxalq əlaqələrin inkişafına xüsusi diqqət yetirən Şura Avropa Könüllülük Xidməti, "ERASMUS+" proqramları üzrə, eləcə də Avropa Gənclər Fondu və digər qurumlarla səmərəli əməkdaşlıq etdiyini deyib. Bildirib ki, Şura son dörd ildə 150-yə yaxın beynəlxalq tədbirdə ölkəmizi təmsil edib.

Gələcək planlardan danışan M.Məcidova paytaxt və region gəncləri arasında əlaqələrin gücləndirilməsi və Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşdırılması istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri **Seymur Orucov** Azərbaycan gəncliyinin bugünkü inkişafının, əldə etdiyi mühüm uğurların əsasında ulu öndər Heydər Əliyevin diqqət və qayğısının, uzaqgörənliklə əsasını qoyduğu dövlət gənclər siyasətinin yüksək səviyyədə reallaşdırılmasının dayandığını deyib. Qeyd olunub ki, bu yüksək diqqət və qayğı nəticəsində gündən-günə inkişaf edərək ən müasir tələblərə cavab verən Azərbaycan gəncləri ölkəmizi beynəlxalq təşkilatlarda, tədbir və forumlarda uğurla təmsil edirlər. Təsadüfi deyil ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə irəli sürülən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində bir sıra ölkələr və beynəlxalq qurumlar Xocalı soyqırımını tanıyıb.

Sonra Dünya Skautlar Təşkilatının icraçı direktoru Əhməd Əlhəndavinin və BMT baş katibinin gənclər üzrə xüsusi elçisi xanım Cayatma Vikramanayakenin Azərbaycan Gənclərinin VIII Forumunun iştirakçılarına videomüraciətləri dinlənilib.

Videomüraciətlərdə Azərbaycan dövlətinin dünyada gənclər siyasətinin inkişafına mühüm töhfələr verdiyi xüsusi vurğulanıb. Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda gənclərin inkişafı, onların beynəlxalq əlaqələrinin genişləndirilməsi üçün əlverişli şərait yaradılıb. Videomüraciətlərdə Azərbaycanın evsahibliyi etdiyi beynəlxalq konfrans və forumların dünyada gənclər hərəkatının inkişafında rolu yüksək qiymətləndirilib.

Fasilədən sonra zona toplantılarından foruma seçilmiş nümayəndə heyətlərinin rəhbərləri təmsil etdikləri bölgələrdə görülən işlər barədə hesabat məruzələri ilə çıxış ediblər. Həmçinin müxtəlif sahələri təmsil edən gənclərin, eləcə də aparıcı gənclər təşkilatlarının rəhbərlərinin və təmsilçilərinin çıxışları dinlənilib.

Yekunda tədbirin qətnaməsi və VIII Forumun iştirakçılarının adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul edilib.

Müstəqil Azərbaycan Gənclərinin ilk forumu ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı il fevralın 2-də keçirilib. 1997-ci il fevralın 1-də forumun ildönümü münasibətilə bir qrup gənci qəbul edən ulu öndər Heydər Əliyev ilk forumun keçirildiyi 2 fevral tarixinin Azərbaycan Gəncləri Günü kimi qeyd olunması haqqında fərman imzalayıb. Forum Azərbaycanın müasir ictimai-siyasi tarixində layiqli yer tutaraq dövlətin gənc nəslin hərtərəfli inkişafına yönəlmiş strategiyasına mühüm təkan verib. Sonuncu - VII Forum 2014-cü il iyunun 2-də Heydər Əliyev Sarayında keçirilib.

## Azərbaycan Gənclərinin VIII Forumunda qarşıdakı illər üçün əsas fəaliyyət istiqamətləri müəyyən ediləcək

"Azərbaycan Gənclərinin VIII Forumunda son beş ildə görülən işlər, qarşıda duran məsələlər və perspektiv planlar müzakirə edilir. Foruma hazırlıq işlərinə uzun müddətdir başlanılıb, zona toplantıları keçirilib. Bu gün isə Azərbaycan bütün regionunda olan gənclər Bakıda VIII Forumda iştirak edir, onları maraqlandıran məsələlər ətrafında müzakirələr aparırlar".

Bu sözləri noyabrın 16-da Bakı Konqres Mərkəzində keçirilən Azərbaycan Gənclərinin VIII Forumunda iştirak edən Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri, Milli Məclisin deputatı Şahin İsmayılov AZƏRTAC-a müsahibəsində deyib.

"Sonuncu - VII Forumdan ötən müddətdə Azərbaycanın sürətli inkişafı nəticəsində gənclər siyasəti sahəsində də mühüm yeniliklər baş verib, bir sıra nailiyyətlər qazanılıb. Azərbaycanın dövlət gənclər siyasəti artıq uğurlu model kimi qəbul olunur. Düşünürəm ki, Azərbaycan Gənclərinin VIII Forumu da əvvəlki tədbirlər kimi, uğurlu nəticələrlə yadda qalacaq və növbəti illərdə əsas fəaliyyət istiqamətlərini müəyyən edəcək", - deyə Ş.İsmayılov bildirib.

## Bu gün Azərbaycan gəncliyi istənilən sahədə öz sözünü demək iqtidarındadır

"Bu gün gənclər təşkilatları Azərbaycan Gənclərinin VII Forumundan ötən müddətdə özlərinin fəaliyyətləri barədə hesabat verirlər. Çünki forumlar gənclər siyasəti ilə bağlı görülən işlərin bir baxımdan hesabat tədbiridir". Bu sözləri noyabrın 16-da Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov AZƏRTAC-a müsahibəsində deyib.

Foruma hazırlıq işlərinə regionlardan start verildiyini xatırladan S.Orucov bildirib ki, region gənclərinin zona toplantılarında qaldırdıqları məsələlər və irəli sürdükləri təkliflər ümumiləşdirilərək forumun gündəliyinə salınıb. Bölgə gənclərinin təklif və təşəbbüsləri, həmçinin gənclərlə bağlı proqram və strategiyaların hazırlanması zamanı da diqqətə alınır. Nəticədə bu strategiya və proqramlar ölkəmizin bütün gənclərini əhatə edən mükəmməl sənədə çevrilir.

"Bu gün Azərbaycan dövləti gənclərimizin fəaliyyəti, onların inkişafı üçün hər cür şərait yaradıb. Məhz bu şəraitin nəticəsində bu gün Azərbaycan gəncliyi istənilən sahədə öz sözünü deməyə qadir qüvvəyə çevrilib. Ölkəmizdə elə bir sahə yoxdur ki, orada gənclərə diqqət və qayğı göstərilməsin. Sevindirici haldır ki, gənclərimiz Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın həyata keçirdikləri məqsədyönlü siyasətin fəal dəstəkçiləri kimi bu prosesdə fəal iştirak edirlər", - deyə S.Orucov bildirib.

## Bakıda keçirilən "Vəkillərin rolu və müstəqilliyi: müqayisəli perspektivlər" mövzusunda beynəlxalq konfrans başa çatıb

Avropa Şurasının, Hüquqşünasların Beynəlxalq Komissiyasının və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının birgə təşkilatçılığı ilə Bakıda keçirilən "Vəkillərin rolu və müstəqilliyi: müqayisəli perspektivlər" mövzusunda beynəlxalq konfrans noyabrın 16-da işini başa çatdırıb.





AZƏRTAC xəbər verir ki, konfransın ikinci günündə "Vəkillik peşəsinə qəbul: Təcrübələr və çağırışlar" və "Peşə müstəqilliyi üçün zəruri amil kimi peşəkar təlimlərin keyfiyyəti" mövzularında sessiyalar keçirilib. Sessiyalarda Azərbaycanda vəkilliyin inkişafı sahəsində görülən işlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib, digər ölkələrin vəkillik sahəsindəki təcrübələrindən, yeniliklərdən danışılıb, faydalı fikir mübadiləsi aparılıb.

İki gün davam edən və 4 sessiyada keçirilən konfransda müvəkkillərin insan hüquqlarının müdafiəsinin həyata keçirilməsi zamanı vəkillərin əməl etməli olduqları tələb və şərtlərin müqayisəli təhlili aparılıb. İştirakçılar vəkillik peşəsinin təşkili və idarə olunması, vəkil etikası və vəkillərin peşəyə qəbulu məsələlərini müzakirə ediblər. Müzakirələrdə, həmçinin Avropa Şurası və Hüquqşünasların Beynəlxalq Komissiyası tərəfindən təklif olunan, müstəqil vəkillik peşəsinin formalaşmasında vəkillər üçün təlimlərin roluna və müxtəlif resurslara xüsusi diqqət yetirilib.

Tədbirdə 16 xarici ölkənin, o cümlədən Belarus, Gürcüstan, Rusiya, Türkiyə, Niderland, Böyük Britaniya, Fransa, İsveçrə, Qazaxıstan, Ukrayna, Özbəkistan Vəkillər kollegiyalarının rəhbərləri və üzvləri, Avropa Şurasının, Avropa İttifaqının, Hüquqşünasların Beynəlxalq Komissiyasının, Birləşmiş Millətlər Təşkilatının, Avropa Vəkillər İttifaqının və digər beynəlxalq təşkilatların, hüquq cəmiyyətlərinin nümayəndələri, məhkəmələrin hakimləri, dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının, Vəkillər Kollegiyasının təmsilçiləri, yerli və beynəlxalq ekspertlər iştirak ediblər.

# Şeyxülislam Allahşükür Paşazadə Almaniya Federativ Respublikasına səfərə yola düşür

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə noyabrın 17-də Almaniya Federativ Respublikasına səfərə yola düşür.

İdarədən AZƏRTAC-a bildiriblər ki, səfərdən məqsəd Qafqaz Müsəlmanları İdarəsinin nəzdində daimi fəaliyyət göstərən Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin, Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, ölkəmizin Almaniyadakı səfirliyinin, Almaniya-Azərbaycan Forumunun və Berlin Mədəni Diplomatiya Akademiyasının birgə təşkilatçılığı ilə noyabrın 19-da Berlin şəhərində keçiriləcək "Dinlər və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda beynəlxalq konfransda iştirak etməkdir.

Prezident İlham Əliyevin sərəncamlarına əsasən Azərbaycanda "Multikulturalizm ili"nin və "İslam Həmrəyliyi ili"nin elan olunmasının ardınca, "Bakı Prosesi"nin 10 illiyi münasibətilə tədbirlərin davamı kimi keçiriləcək Berlin beynəlxalq konfransı dinlərarası və sivilizasiyalararası dialoqun davam etdirilməsinə, müasir dünya üçün narahatlıq doğuran problemlərin aradan qaldırılmasına beynəlxalq ictimaiyyətin diqqətini daha da artırmaq, sülhü və əmin-amanlığı təhdid edən amillərə qarşı müxtəlif mədəniyyətlərin, sivilizasiyaların və dinlərin nümayəndələrinin birgə mövqeyini ortaya qoymaq məramına xidmət edir.

Qırxa yaxın ölkədən 300-dək nümayəndənin iştirak edəcəyi Berlin konfransına dünyanın müxtəlif dini konfessiyalarının rəhbərləri, dövlət, elm və mədəniyyət xadimləri, Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin himayədarlar və məşvərət şuralarının üzvləri, konfransda təmsil olunan ölkələrin Almaniyadakı səfirliklərinin və beynəlxalq təşkilatların təmsilçiləri qatılacaqlar.

Azərbaycan nümayəndə heyətinə tanınmış dövlət, din və elm xadimləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri, ölkəmizdəki dini konfessiyaların rəhbərləri daxildir.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyətinin Almaniya hökumətinin üzvləri, ölkənin tanınmış ictimai-siyasi xadimləri ilə görüşləri nəzərdə tutulur.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Noyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımla görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri Türkiyə Böyük Millət Məclisinə deputat və Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupuna rəhbər seçilməsi münasibətilə Şamil Ayrımı təbrik edib, bu seçimin Azərbaycan-Türkiyə əlaqələri üçün faydalı olacağını bildirib. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı əlaqələrin tarixinə nəzər salan Ali Məclisin Sədri Şamil Ayrımın bu sahədəki xidmətlərini xatırladaraq ona təşəkkür edib.

Göstərilən səmimi münasibətə görə minnətdarlıq edən Şamil Ayrım əvvəllər Naxçıvanda olduğunu bildirib, ötən dövrdə muxtar respublikanın sürətlə inkişaf etdiyindən danışıb. Qonaq ölkələrimiz arasındakı ikitərəfli münasibətləri diqqətə çatdırıb, Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin bu baxımdan əhəmiyyətini vurğulayıb.

Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz görüşdə iştirak edib.

# Bolqarıstanın "Agrozona.bg" xəbər portalı Azərbaycanın ixrac missiyası barədə yazır




Bolqarıstanda kənd təsərrüfatı ilə bağlı xəbərləri işıqlandıran "Agrozona.bg" xəbər portalı, Azərbaycanın bu ölkədə "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Bolqarıstana təşkil edilmiş ixrac missiyası barədə yazır.

AZƏRTAC-ın məlumatına görə, yazıda bildirilir ki, Azərbaycan şirkətləri tərəfindən təqdim olunan məhsullar Bolqarıstan şirkətləri tərəfindən maraqla qarşılanıb. Azərbaycanın "Kaslar" MMC şirkəti ilə Bolqarıstanın "Stil Agro" LTD, "My Day" LLC və "KaPousouz" şirkətləri arasında fındığın ixracına dair ilkin razılıq əldə olunub. "Banu Organic" MMC, "Ayan" MMC, "Sun Food" MMC şirkətləri istehsal etdikləri məhsulların ixracına dair bolqar şirkətləri ilə razılığa gəliblər. Azərbaycanın "Az-Granata" MMC şirkəti istehsal etdiyi nar şirəsinin Bolqarıstana ixracına dair razılıq əldə edib.

# Daşkənddə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə konsert təşkil edilib





Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi ilə Özbəkistanda keçirilən "Azərbaycan mədəniyyəti və ədəbiyyatı həftəsi" çərçivəsində geniş konsert təşkil olunub.

AZƏRTAC xəbər verir ki, konsertdə səfirliyimizin əməkdaşları, "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin rəhbərliyi və üzvləri, Azərbaycandan gələn tanınmış alimlər, Daşkənddə aparıcı universitetlərin müəllim və tələbələri, Özbəkistanın elm, mədəniyyət və incəsənət xadimləri, yerli azərbaycanlılar iştirak ediblər.

AMM-in direktoru Samir Abbasov cəmi 23 ay mövcud olan Azərbaycan Xalq Cümhuriyyətinin əldə etdiyi uğurlar, Azərbaycanın dövlətçilik və müstəqillik tarixində oynadığı müstəsna rol, həyata keçirilən böyük islahatlar və bu respublikanın müasir Azərbaycanın müstəqilliyinə, onun inkişafına təsiri haqqında danışıb. O, 2018-ci ilin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edildiyini diqqətə çatdırıb, xalqımızın istiqlal ideyaları, dövlətçilik ənənələri sahəsində əldə etdiyi nailiyyətlərin dünyaya çatdırılmasının vacib məsələ olduğunu qeyd edib, bu mövzuda Özbəkistanda keçirilən tədbirlər və layihələr haqqında məlumat verib.

"Kaspi" qəzetinin təsisçisi, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva müstəqil, azad və demokratik bir cümhuriyyət yaratmaqla şərəfli bir vəzifənin öhdəsindən layiqincə gələn Azərbaycanın mərd oğullarının xalqımızın istiqlal tarixində mühüm bir səhifə açdıqlarını qeyd edib.

Natiq cümhuriyyət dövründə Azərbaycanın yaradıcı insanlarının fəaliyyəti, elmimiz və ədəbiyyatımızın inkişafı haqqında danışıb, Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın milli özünüdərk, müstəqil dövlət qurmaq imkanlarına malik olduğunu sübut və bütün dünyaya nümayiş etdirdiyini vurğulayıb. O, Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müstəqil Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı böyük uğurlardan danışıb.

Özbək tarixçisi Şuxrat Salamov XX əsrin əvvəllərində çətin və mürəkkəb bir dövr olmasına baxmayaraq Türküstan və Azərbaycan xalqlarının öz istiqlaliyyəti uğrunda mücadilə etdiyini qeyd edərək, 23 ay mövcud olan Azərbaycan Xalq Cümhuriyyətinin sonrakı nəsillərin yaddaşında Azərbaycan tarixinin ən parlaq səhifəsi kimi qaldığını söyləyib. Natiq bu istiqamətdə təbliğati tədbirlərin, mədəniyyət, ədəbiyyata aid layihələrin həyata keçirilməsinin vacib olduğunu bildirib.

Sonra Mədəniyyət Mərkəzinin layihəsi ilə Özbəkistan "SOQDİANA" Xalq Çalğı Alətləri Orkestrinin Azərbaycan bəstəkarlarının ölməz əsərlərindən ibarət konserti təqdim olunub.

Konsert proqramının bədii rəhbəri Özbəkistanın əməkdar artisti, professor Firuzə Abduraximova, dirijoru beynəlxalq müsabiqələr laureatı Qəhrəman Bazarov olub.

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Koroğlu" uvertürası ilə başlayan konsertdə "Sarı gəlin", "Ay Laçın", "Çahargah rapsodiyası", "Anadır arzulara Qarabağ", "Dostluq nəğməsi" və s. əsərlər səslənib.

Konsert proqramında Beynəlxalq müsabiqələr laureatı, Özbəkistanın tanınmış sənət ustaları Masuma Boltabaeva, Rüstəm Əlimərdanov, Səncər Qədirov, Sərdar Pirimov, Dilşod Fazilov, Lobar Cumadilova və başqaları çıxış ediblər.

# VII Beynəlxalq Sankt-Peterburq Mədəniyyət Forumu çərçivəsində Azərbaycan ilə Rusiya arasında birgə bəyanat imzalanıb



Noyabrın 16-da mədəniyyət naziri Əbülfəs Qarayevlə Rusiyanın mədəniyyət naziri Vladimir Medinski arasında ikitərəfli görüş keçirilib. Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdən sonra tərəflər Azərbaycanın 2020-ci ildə forumda "fəxri qonaq ölkə" statusunda təmsil olunması haqqında birgə bəyanat imzalayıblar.

VII Beynəlxalq Sankt-Peterburq Mədəniyyət Forumu çərçivəsində reallaşan imzalanma mərasimində iştirak edən Rusiya Federasiyası hökumət sədrinin müavini Olqa Qolodets və ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu, həmçinin hər iki ölkənin mədəniyyət nazirləri çıxış edərək ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi mədəniyyət sahəsində də əlaqələrin yüksək səviyyəli inkişafından məmnunluqlarını ifadə ediblər.

Qeyd edək ki, "fəxri qonaq ölkə" statusu forum müddətində müxtəlif tədbirlər keçirməklə ölkəmizin mədəniyyətinin təbliği üçün geniş imkanlar yaradır.

Sonra Əbülfəs Qarayev Sankt-Peterburq Musiqi liseyinin direktoru Vitaliy Romanov ilə görüşüb.

Forumun ikinci günü Ə.Qarayev "Kreativ mühit və urbanistika" mövzusunda plenar iclasda, Asif Xanın müasir arxitektura cərəyanlar mövzusunda mühazirəsində və digər sessiyalarda iştirak edib.

Forum noyabrın 18-dək davam edəcək.

# Sosial islahatlar real nəticələr verir

## *Səkkiz min manat əməkhaqqı alanlar 7 il gəlir vergisindən azad olunacaqlar, pensiyaya çıxacaq şəxslərə isə 25 illik staj hədiyyə ediləcək*

Noyabrın 16-da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirildi. İclasda çıxış edən komitə sədri Hadi Rəcəbli bildirdi ki, gündəliyə "Sosial sığorta haqqında", "İşsizlikdən sığorta haqqında", eləcə də "Əmək pensiyaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə layihələr daxil edilib.

### 25 faizlik sosial sığorta haqqının 10 faizini işçi, 15 faizini isə işəgötürən ödəyəcək

Parlamentin komitə sədri diqqətə çatdırdı ki, nəzərdə tutulan dəyişikliklərin böyük əksəriyyəti cəmiyyətin sosial rifahının yüksəlməsi üçün inqilabi əhəmiyyət kəsb edir.

Vergilər nazirinin birinci müavini Sahir Məmmədxanov növbəti ildən Vergi Məcəlləsində ediləcək dəyişikliklər barədə məlumat verərək qeyd etdi ki, bunlar sahibkarlığın inkişafının dəstəklənməsi, vergitutma bazasının genişləndirilməsi və bir neçə istiqamət üzrə olacaq.

Vergidən yayınma hallarına toxunan Sahir Məmmədxanovun sözlərinə görə, qeyri-neft sektoruna aid olan özəl sahələrdə işləyən şəxslərin vergi yükünün azaldılması əsas dəyişiklik sayılır. Dəyişikliklərə əsasən, özəl qeyri-neft sektoru üzrə 8000 manata qədər əməkhaqqıdan gəlir vergisinin tutulmaması təklif edilir. Bu zaman yalnız sosial sığorta haqqı 25 faiz tətbiq olunacaq. Bunun 10 faizini işçi, 15 faizini isə işəgötürən ödəyəcək.

Qeyd edildi ki, 7 il müddətinə 8000 manata qədər əməkhaqqı alan şəxslər gəlir vergisindən azad olunacaqlar. 8000 manatdan yuxarı əməkhaqqı alan şəxslərin isə gəlir vergisi 14 faiz miqdarında olacaq. Həm ƏDV, həm də sadələşdirilmiş vergi ödəyicilərində əməkhaqqıdan gəlir vergisi bu qaydada olacaq.

### Dəyişikliklər gəlir və xərclərin düzgün uçotunun aparılmasına təkan verəcək

Hazırda aktiv vergi ödəyicilərinin 65 faizi sadələşdirilmiş vergi ödəyiciləridir. Burada baş verən qanunsuzluqlar, işçilərin qeydiyyata alınmaması, əməkhaqlarının şəffaf göstərilməməsi nəticə etibarilə bu sahəyə güzəştlərin edilməsini önə çəkir. Güzəştlərin 7 il olması nəzərdə tutulur. Bu müddət dəyişə də bilər. Dövlət müəssisələri, bütöv neft sektoru mövcud qaydada olduğu kimi saxlanılacaq, yəni mövcud status qalır, əməkhaqqıdan gəlir vergisi 2500 manata qədər 14 faiz olacaq, 2500 manatdan yuxarı olduqda isə 25 faiz, 173 manatdan isə vergi tutulmayacaq.

Dövlət sektoru üzrə sosial sığorta haqlarının tətbiqi vəziyyəti bu gün olduğu kimi qalacaq. Hazırda təxminən 500 min nəfər 8 minə qədər, 175 min nəfər isə 200 manata qədər maaş alır. Dəyişikliklər "kölgə iqtisadiyyatı"nın ortadan qaldırılmasına, gəlir və xərclərin düzgün uçotunun aparılmasına təkan verəcək.

Qeyd edildi ki, həmçinin vergi sahəsində inzibatçılığın təkmilləşdirilməsi, elektron məlumat mübadiləsinin genişləndirilməsi, təhsil, mədəniyyət sahəsinə ayrılan vəsaitlərin stimullaşdırılması, publik hüquqi şəxslərin vergidən azad olunması ilə bağlı təkliflər də irəli sürülüb.

Müzakirə zamanı spirtli içkilərə və siqaret məhsullarına aksiz dərəcələrinin artırılması, bu məhsulların istehsalçılarına qarşı verginin sərtləşdirilməsi təklif edildi. Bildirildi ki, alkoqollu içkilər üçün minimum qiymət müəyyən ediləcək.

### Sığorta kapitalında əgər 1 manat pul varsa, yenə də güzəşt olunacaq

İclasda çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev gündəliyə daxil olan hər üç qanun layihəsi barədə məlumat verdi.

"Sosial sığorta haqqında" yeni qanun layihəsi ilə bağlı danışan Anar Əliyevin sözlərinə görə, təklif edilən dəyişikliyin əsas mahiyyəti odur ki, məcburi sosial sığorta haqlarının toplanmasına bundan sonra təkcə Vergilər Nazirliyi nəzarət edəcək.

Daha sonra "Əmək pensiyaları haqqında" qanun layihəsi barədə məlumat verən nazir müavini qeyd etdi ki, qanunun 22-ci maddəsinə edilən dəyişikliklərə əsasən, pensiyaya çıxacaq şəxs üçün 25 illik dövr hədiyyə veriləcək. Yəni şəxsin sığorta kapitalında 1 manat belə pul varsa, 25 illik dövrü onun üçün sığorta stajı kimi qəbul ediləcək. Bu sığorta stajı 2021-ci ildən etibarən isə hər təqvim ili üçün bir il azaldılmaqla hesablanacaq.

Bu güzəşt 2006-cı ildən əvvəlki dövr üçün elektron bazanın olmaması ilə əlaqəli edilir. Vətəndaşlar bu dövrdə olan sığorta stajını təsdiq etmək üçün arxivlərə, yaxud ləğv olunmuş müəssisələrə müraciət etməli olurlar. Bu dəyişikliyin mahiyyəti isə ondan ibarətdir ki, dövlət 25 illik dövrü, 01.01.2006-cı il tarixə qədər olan dövrü vətəndaşlara hədiyyə edəcək, yəni həmin dövrü avtomatik olaraq 25 illik staj kimi qəbul edəcək. 2006-cı ildən sonra elektron baza olduğu üçün pensiyaya çıxacaq şəxsin sığorta stajı və ödədiyi sığorta haqları bazadan görünəcək.

### Pensiyanın hesablanması da avtomatlaşdırılacaq

Bununla yanaşı, əmək pensiyalarının elektronlaşması və hesablanmasının avtomatlaşdırılması ilə bağlı təkliflər də hazırlanır. Yəni şəxsin pensiya yaşı tamam olduqda onun telefonuna SMS vasitəsilə məlumat göndəriləcək ki, siz pensiya yaşına çatmısınız, müəyyən edilən məbləğ, pensiya kartının hansı ünvandan götürülməsi ilə bağlı məlumat veriləcək. Burada dövlət qulluqçuları və güzəştli şərtlərlə pensiyaya çıxanlarla bağlı istisna var. Çünki onların hesablamaları bir qədər fərqlidir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial sığorta və pensiya siyasəti şöbəsinin müdiri Çingiz Əliyev də çıxış edərək qaçqın və məcburi köçkün məsələsinə toxundu. Bildirdi ki, onlar əmək kitabçalarını itiriblər. Əmək kitabçası da qanunvericilikdə əsas sənəd kimi öz əksini tapıb. Ona görə də bunun üçün məhkəməyə müraciət edirlər. Onlar məhkəməyə müraciət edəndə birinci instansiya məhkəməsinin qərarı ilə məsələ yekunlaşmırdı. Lakin indi bu məsələ müvafiq əmrlə tənzimlənir. Birinci instansiya məhkəməsinin qərarı nəzərə alınacaq.

Onun sözlərinə görə, 2006-cı il yanvarın 1-nə kimi sosial sığorta stajı qanunun 7-ci maddəsində qeyd edilən yaşa çatanlara münasibətdə əhalinin bütün təbəqələrini, o cümlədən, qaçqın və məcburi köçkünləri əhatə edir. Bu, çox önəmlidir. 13 il ərzində fərdi hesabında pensiya kapitalı olan və pensiya yaşına çatan şəxslərin hamısına 25 il sosial sığorta yalnız 2006-cı il yanvarın 1-nə qədər olan dövr üçün təqdim edilir. Bu tarixdən sonra fərdi uçot aparıldığından kim fərdi uçot dövründə işləyibsə, pensiya kapitalı qazanılır.

İclasda həmçinin "İşsizlikdən sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi nəzərdən keçirildi. Qeyd olundu ki, qanun layihəsində nəzərdə tutulan dəyişikliklər islahat məzmunlu dəyişikliklərdən ibarət olaraq altı maddəni əhatə edir. Dəyişikliklər işçilərin sığorta ödənişlərinin şəffaf şəkildə həyata keçirilməsi məqsədi daşıyır.

Müzakirələr zamanı deputatlardan Elmira Axundova, Yaqub Mahmudov, Musa Quliyev, İlham Məmmədov çıxış edərək öz təklif və fikirlərini bildirdilər. Hər üç qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olundu.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

# Sabit və faydalı münasibətlər yüksək səviyyədə etimada əsaslanır

*Əvvəli 1-ci səh.*

Belarusdan alınan hərbi texnikanın keyfiyyəti, taktika-texniki göstəricilərinin çox yüksək səviyyədə olması ölkəmizdə hərbi-texniki sahədə əməkdaşlığın davam etdirilməsinə maraq yaradır.

Azərbaycan yaxın və uzaq qonşuların hamısı ilə sıx əməkdaşlıq qurur və bu əlaqələr, işğalçı qonşudan fərqli olaraq, ilk növbədə sülhə və qarşılıqlı hörmətə əsaslanır. Məsələ bundadır ki, bütün qonşu ölkələrə ərazi iddialarında qızdırmalı ambisiyalarla körüklənən Ermənistan Belarusa qarşı da psixoz qıcıqlar nümayiş etdirir. Paradoks ondan ibarətdir ki, Ermənistanın Azərbaycana silah satan, hərbi texnikanın ən iri tədarükçüsü Rusiyaya qarşı sərt davranmaq əzmi yoxdur. Bu ölkə eyni zamanda bizim silah-sursat və texnika aldığımız Türkiyə, İsrail, Pakistan və Avropa ölkələrinə də barmaq silkələməkdə və nəyisə tələb etməkdə acizdir. İradların müstəsna olaraq Belarusa yönəlməsi isə məzhəkə xarakteri daşıyır. Bu isə, Azərbaycan Prezidentinin dili ilə desək, Ermənistanın Belarusa qarşı acizlik kompleksinin təzahürüdür.

Azərbaycan Prezidenti səfirin diqqətinə onu da çatdırıb ki, biz regionumuzda baş verən vəziyyəti müşahidə edirik, o cümlədən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının bu yaxınlarda Qazaxıstanda keçirilmiş sammitini çox diqqətlə izləmiş və həmin hərbi-siyasi təşkilata hansı ölkənin nümayəndəsinin rəhbərlik etməsinə biganə deyilik. Tərəfdaşlar və dostlar arasında bu və beynəlxalq siyasətin digər məsələlərinin müzakirəsi təbiidir. Bu zəmində Ermənistanın təşvişə düşməsi və Ermənistan Xarici İşlər Nazirliyinin bəyanat verməsi beynəlxalq təcrübə ilə ziddiyyət təşkil edir. Digər tərəfdən, Ermənistan tərəfi bəyan edir ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının problemləri mövcuddur. Əgər belə bir problem varsa, bu, Ermənistanın özü, onun törətdiyi problemlərdir.

Belarusla münasibətlərə gəldikdə, Azərbaycan Prezidenti sözügedən qəbul zamanı iki qardaş ölkənin münasibətlərinin sarsılmaz, möhkəm bünövrəyə malik olduğunu bildirmiş, dost ölkəyə qarşıdakı səfərinin münasibətlərimizin daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini ifadə etmişdir.

Belarusda Azərbaycan Prezidentinin Minskə gözlənilən səfərinə çox ciddi hazırlaşırlar. İmzalanmağa hazır olan razılaşmalar və layihələr belə qənaətə gəlməyə əsas verir ki, Belarus və Azərbaycan qarşılıqlı əməkdaşlıq üçün açıqdırlar. Hər iki dövlət başçısı siyasətlərində, digər ölkələrlə münasibətlərin inkişafında beynəlxalq hüququn əsas norma və prinsiplərinə sədaqət və münaqişələrin yalnız sülh yolu ilə həllində maraqlı olduqlarını nümayiş etdirirlər.

Səfir Gennadi Axramoviç həmişə müxtəlif beynəlxalq qurumlarda - BMT, ATƏT, Avropa Şurasında Azərbaycanı dəstəklədiklərini vurğulamışdır: "...Sizi Belarus Respublikasında görməyimizə çox şad olacağıq. Düşünürəm ki, səfər xüsusilə də bizim özünəməxsus yubileyimiz - diplomatik münasibətlərin qurulmasının 25 illiyi dövründə ikitərəfli münasibətlərimizin getdikcə inkişafına yeni dinamika, daha güclü impuls verəcək".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki Əsrik Cırdaxan, Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Cavahirli, Novruzlu, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan beynəlxalq forumlara davamlı evsahibliyi edir

*Mədəniyyətlərarası dialoq mövcud problemlərin həlli yollarının tapılmasına mühüm töhfə verir*

Çoxmədəniyyətli cəmiyyətin nümunəsi sayılan Azərbaycan eyni zamanda müstəqil dövlət olaraq hazırda dəyərli təşəbbüslərlə yerləşdiyi regionda və dünyada gedən proseslərə özünün müsbət təsirini göstərməkdədir. Təsadüfi deyil ki, dövlət başçısı İlham Əliyev tərəfindən irəli sürülmüş təşəbbüslər daim dünyada dəstəklənir.

Bu gün dünyada beynəlxalq aləmdə baş verən proseslər, əksər hallarda narahatedici vəziyyətlər tələb edir ki, humanitar sahəyə daha böyük diqqət ayrılsın. Dünyanın əksər ölkələrini eyni məqsəd uğrunda bir araya toplayan beynəlxalq tədbirlər bu baxımdan aktuallığı ilə seçilir və bəşəri əhəmiyyət daşıyır. Paytaxt Bakının belə beynəlxalq tədbirlərə evsahibliyi isə, təbii ki, təsadüfi deyil. Belə tədbirlərin sırasına daxil olan beynəlxalq humanitar forumların artıq altıncısı Azərbaycan paytaxtında keçirildi.

"Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal yerdir". Bu fikirlər hələ 2011-ci il 10-11 oktyabr tarixlərində keçirilən "XXI əsr: ümid və çağırışlar" adlı I Bakı Beynəlxalq Humanitar Forumunda səsləndirilmişdi. Bu gün də paytaxt Bakı beynəlxalq birliyin diqqətini çəkməkdədir. Əlbəttə, bu, ölkəmizin hərtərəfli inkişafının təzahürü ilə yanaşı, illərlə öz həllini gözləyən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq norma və prinsiplər əsasında nizamlanması baxımından da təbliğatın müəyyən forması kimi vacib məsələlərdəndir.

VI Bakı Beynəlxalq Forumu özündən əvvəlkilər kimi, ümumbəşəri narahatlığın müzakirə və diskussiya şəklində həlli yollarına həsr edildi. 2018-ci il oktyabrın 25-26-da Azərbaycanın paytaxtında "Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumunun açılışında Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan dünyada multikulturalizmin ünvanlarından birinə çevrilib və bu şərəfli status artıq dünya birliyi tərəfindən tanınır: "Multikulturalizm Azərbaycanda həm dövlət siyasətidir, həm həyat tərzidir, eyni zamanda, biz dünya birliyinin diqqətini bu məsələyə cəlb etməyə çalışdıq. Azərbaycanın bu sahədəki təcrübəsi həm təqdirəlayiqdir, həm də gözəl nümunə ola bilər. Biz multikulturalizmin bəhrəsini gündəlik həyatda görürük. Bu gün Azərbaycanda yaşanan sabitlik, vətəndaş həmrəyliyi, milli həmrəylik o cümlədən bu dəyərlərə əsaslanır".

VI Beynəlxalq Humanitar Forum çərçivəsində "Bakı prosesi" - İnsan təhlükəsizliyi, sülh və davamlı inkişaf naminə mədəniyyətlərarası dialoq: 10 ilin dərsləri və perspektivləri" mövzusunda mədəniyyət naziri Əbülfəs Qarayevin moderatorluğu ilə keçirilən III plenar sessiyada "Bakı prosesi"nin tarixi barədə məlumat verildi. Qeyd edildi ki, bu təşəbbüs mədəniyyətlərarası dialoqun təşviqi üçün Avropa və ona qonşu regionların ölkələrinin mədəniyyət nazirlərinin Avropa Şurası ilə tərəfdaşlıq çərçivəsində 2008-ci il dekabrın 2-3-də Bakıda keçirilmiş konfrans zamanı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülüb. "On il ərzində müxtəlif beynəlxalq təşkilatlarla bu məsələdə birgə əməkdaşlıq edilib. BMT, UNESCO, Dünya Turizm Təşkilatı və digər beynəlxalq təşkilatlar bu gün də "Bakı prosesi"nə, onun səmərəliliyinin artırılmasına dəstək verirlər. Qarşıdakı illərdə bu əməkdaşlıq daha da genişləndiriləcək".

İki gün davam edən forumda iştirakçı dövlətlərin sayının xeyli artması da onun əhəmiyyətini təsdiqləyirdi. 90-dan çox ölkə və 24 beynəlxalq təşkilatdan 580-dən artıq nümayəndənin (o cümlədən BMT Baş katibinin iki müavini, ISESCO, IRCICA, TÜRKPA, TÜRKSOY, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Türk Akademiyası, Parlamentlərarası Birlik, BMT-nin iqtisadi və sosial Şurası kimi təşkilatlarının, UNESCO, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, MDB İcraiyyə Komitəsi rəhbərlərinin müavinlərinin) iştirak etdiyi VI Bakı Beynəlxalq Humanitar Forumunda çox ciddi məsələlər müzakirə edildi.

2008-ci ildən etibarən başlanan "Bakı prosesi" çərçivəsində Azərbaycan dövlətinin mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi istiqamətində önəmli işlər gördüyünü qeyd edən mədəniyyət naziri Əbülfəs Qarayev bildirdi ki, bütün bu fəaliyyət dialoqa mühüm töhfələr verib: "Bakı Beynəlxalq Humanitar Forumuna marağın miqyası ildən-ilə artır. Bugünədək müxtəlif mövzularda müzakirələr aparılıb. Həmçinin müxtəlif sahələr üzrə, o cümlədən təhsil, mədəniyyət nazirlərinin görüşləri təşkil edilib. Bu görüşlərdə mədəniyyətlərarası dialoqla bağlı hökumətlərin gördükləri işlərə dair müzakirələr aparılıb. Həmçinin turizm sənayesi bu proqramlara qoşulub mədəni mübadilələrdə fəal iştirak edir. Biznes dairələrinin rəhbərləri, böyük şirkətlərin nümayəndələri də bu mədəni mübadilələrə qoşulmağa dəvət edilib. Davos İqtisadi Forumu çərçivəsində mədəniyyət nazirlərinin görüşü keçirilib. Cəmiyyətlərin formalaşmasında mədəniyyətlərin təsiri həmin görüşdə ətraflı müzakirə edilib".

Mədəniyyətlərarası dialoqla bağlı mühüm təşəbbüslərdən biri də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva tərəfindən irəli sürülüb. Belə ki, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Bakıda beynəlxalq təşkilatların rəhbərlərinin toplantısı keçirilib. Müxtəlif sahələr üzrə fəaliyyət göstərən bu təşkilatların rəhbərlərinin toplantısı da mədəniyyətlərarası dialoqa mühüm töhfə olub.

UNESCO-nun sabiq baş direktoru İrina Bokova "Bakı prosesi"nin 10 illiyi ilə bağlı keçirilən sessiyanın böyük əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb. O, bu istiqamətdə birgə aparılan işlərin davamlı olmasının vacibliyini vurğulayıb: "Biz birgə xalqlarımızın, cəmiyyətlərimizin gələcəyini müəyyənləşdiririk. Mədəniyyətlərarası dialoq üçün siyasi gündəliyin olması çox mühümdür. Burada mən şahidi oluram ki, Bakı forumları mövcud problemlərin müasir həlli yollarının tapılmasına mühüm töhfələr verir. Biz yalnız mədəniyyətlərarası dialoqa diqqət yetirməklə mənfi çağırışlara qarşı mübarizə apara bilərik".

Belə beynəlxalq tədbirlər sırasına Bakıda keçirilən sivilizasiyalararası dialoq forumları da əlavə edilməlidir. Respublikamızın təşəbbüsü ilə bir neçə il öncə dünya dini liderlərinin zirvə toplantısı da paytaxt Bakıda keçirildi. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, Bakı beynəlxalq humanitar forumlarının mahiyyəti genişdir və tarixi əhəmiyyət daşıyır.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Tarixin ən güclü Azərbaycanı

*Əvvəli 1-ci səh.*

Beləliklə, 1969-1982-ci illərdə Azərbaycanın gələcək dövlət müstəqilliyinin bünövrəsini qoyan Heydər Əliyev xalqımızın ciddi və taleyüklü problemlər qarşısında dayandığı bir dövrdə öz həyatını təhlükə qarşısında qoyaraq milli mübarizə meydanına atıldı, misilsiz tarixi xidmətlər göstərdi, Azərbaycanın müstəqilliyinin əldə olunmasında, milli dövlətçiliyinin yaşadılmasında, milli birliyinin qorunub saxlanılmasında tarixi missiya həyata keçirdi.

Beləliklə, Azərbaycanda dövlət müstəqilliyi yolunda mücadilə 1988-ci ildə xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər Heydər Əliyevin Azərbaycana qayıdışından sonra cərəyan etdi. Heydər Əliyevin gəlişindən sonra milli dirçəliş prosesi bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilərək, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılması ilə müşayiət olundu. Ulu öndərin Naxçıvanda parlament seçkilərinə qatılması və qalib gəlməsi, respublika ictimaiyyətinin qabaqcıl nümayəndələrinin Naxçıvana üz tutması, Heydər Əliyevlə təmasa can atması, insanlarla gündən-günə genişlənən çoxsaylı və kütləvi görüşlər Azərbaycanda milli azadlıq hərəkatının vüsət almasına və getdikcə daha mütəşəkkilləşməsinə müsbət təsir göstərməyə başladı. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə öz işinə başlayan Naxçıvan Ali Məclisinin sessiyası tariximizdə Azərbaycan dövlətçiliyinin dirçəlişi prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə olunması, Azərbaycanı müstəqilliyə aparan yolda tarixi qərarların qəbul edilməsi ilə əlamətdar oldu. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ilin noyabrında Naxçıvan Ali Məclisi müstəqilliyimizin əsas atributlarından olan üçrəngli bayrağımızın Naxçıvan MR-in dövlət bayrağı olması barədə qərar qəbul etdi. Qərarda həmçinin Azərbaycan Respublikasının ali qanunverici orqanına Azərbaycanın dövlət rəmzləri haqqında məsələyə baxması, respublikamızın milli tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzlərinin - bayrağın, gerbin, himnin qəbul olunması təklif edilmişdi. Naxçıvan Ali Məclisinin sonrakı iclaslarının birində Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ilin 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verildi. Ali Məclisin qəbul etdiyi qərarda SSRİ-nin və Azərbaycanın siyasi rəhbərliyinin 20 Yanvar faciəsinə görə birbaşa məsuliyyət daşıdıqları göstərildi.

Azərbaycanın dövlət müstəqilliyinin bərpası Heydər Əliyevin başlatdığı bu prosesin yekun nəticəsi olmalı idi. Görülən hər bir iş, atılan hər bir addım isə Azərbaycan xalqını bu nəticəyə - dövlət müstəqilliyinin bərpa olunmasına yaxınlaşdırırdı. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyasında dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu.

Müstəqillik mövzusu və bu istiqamətdə gərəkən addımlar ulu öndərin bütün çıxışlarının başlıca leytmotivi idi. Xüsusən Azərbaycan Ali Sovetinin iclaslarında Heydər Əliyev çıxışlarında Azərbaycanın dövlət müstəqilliyinin qaçılmaz proses olduğunu bəyan edirdi. 1991-ci il fevralın 5-də Azərbaycan Ali Sovetinin birinci sessiyasında təkidlə söz alan ulu öndər kommunist partiyası hakimiyyətinin sonunun çatdığını, SSRİ-nin tezliklə dağılacağını və respublikalarda başlanan müstəqillik mübarizələrinin qalib gələcəyinin dönməz bir proses olduğunu bəyan etdi. Ali Sovetin 1991-ci il martın 7-də keçirilən sessiyasında Heydər Əliyev Azərbaycanın milli müstəqilliyi və suverenliyi məsələsinə toxunaraq, müstəqilliyə çatmağın yollarını, əsas vasitələrini, demokratik dövlət quruculuğunun prinsiplərini göstərdi.

Ali Sovetdəki tarixi çıxışlarında Heydər Əliyev respublika rəhbərliyinin imzalamağa hazırlaşdığı ittifaq müqaviləsinin Azərbaycan üçün tam yararsız olduğunu yeni ittifaqa daxil olmağın və bunun üçün hər hansı referendum keçirməyin əleyhinə çıxdığını bildirirdi. 1991-ci il iyulun 19-da kommunist partiyası sıralarını tərk edən Heydər Əliyev Azərbaycanın rəhbərliyini xalqın haqlı tələblərini qulaqardına vurmamağa, kommunist partiyasının totalitar idarəçiliyinə son qoymağa çağırdı.

Zaman Heydər Əliyevin siyasi proseslərin gedişatını böyük uzaqgörənliklə gördüyünü və haqlı olduğunu sübut etdi. Hadisələr göstərdi ki, 1990-cı ildən başlayaraq SSRİ-nin və kommunist idarəçiliyinin perspektivsizliyi, Azərbaycanın müstəqil, demokratik dövlət qurmasının mümkünlüyü və mütləqliyi haqqında Heydər Əliyevin uzaqgörən bəyanatları, bunu əsaslandıran siyasi baxışları öz işini görmüş, gələcək proseslərin gedişinə həlledici təsir göstərmişdi. Moskvadakı avqust hadisələrindən dərhal sonra Naxçıvan ərazisində kommunist partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi. Bu proses bütün Azərbaycana sirayət etdi və beləliklə, sovet hakimiyyət orqanları xalqın əzmi qarşısında geri çəkilməli oldu. Proseslərin gedişatı göstərirdi ki, respublika rəhbərliyi xalqın milli azadlıq mübarizəsinin, müstəqil və demokratik dövlətçilik hərəkatının qarşısında tab gətirmək iqtidarında deyil. Respublika Ali Sovetinin 1991-ci il avqustun 30-da növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul etmək məcburiyyətində qalması faktı bu həqiqəti bir daha sübut etdi. Ali Sovetin 1991-ci il 30 avqust tarixli iclasında bəyanatla yanaşı, "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Konstitusiya Aktının layihəsini iki həftə müddətində hazırlamaq barədə qərar qəbul edildi. Lakin respublika rəhbərliyi bu prosesi iki aya yaxın ləngitdi. Siyasi hakimiyyət Heydər Əliyevin və Azərbaycan xalqının müstəqil və demokratik dövlətçilik uğrunda apardıqları mübarizənin qarşısında tab gətirə bilməyərək 1991-ci il oktyabrın 18-də, nəhayət ki, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul edilməsinə razılıq verdi. 1991-ci il oktyabrın 19-da Azərbaycan Ali Sovetinin sessiyasına ünvanladığı müraciətdə bu hadisəni yüksək qiymətləndirən Heydər Əliyev yazırdı: "Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikasının ali hakimiyyət orqanı milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atdı".

1991-ci il 18 oktyabr dövlət müstəqilliyinin elan olunması Azərbaycanın yeni intibahının bünövrəsi demək idi. Fəqət, müstəqilliyin ilk illərində hakimiyyətdə olan qüvvələr Konstitusiya Aktının prinsiplərinə əməl edə bilmədilər. O zamanlar hakimiyyətdə olan siyasi dairələrin səriştəsizliyi az qala bu müstəqilliyin də məhv olmasına gətirib çıxaracaqdı. 1991-1993-cü illərdə hakimiyyətdə olanlar yeni yaranan müstəqil dövlətçiliyin möhkəmlənməsi üçün nəinki bir iş görmədilər, əksinə, ölkəni dünyada gedən bütün proseslərdən uzaq salaraq təklənməsinə, təcrid olunmasına xidmət göstərdilər. Bütün bunlar isə nəticə etibarilə müstəqilliyin məhvinə aparırdı. Belə bir vəziyyətdə Azərbaycan vətəndaşlarının mütləq əksəriyyətinin tələb və istəyi ilə hakimiyyətə gələn xalqımızın böyük oğlu Heydər Əliyev müstəqil dövlətçiliyimizi, suverenliyimizi bütün təhlükələrdən, təhdidlərdən xilas etdi. 1993-cü ilin iyunundan dövlətimizin idarəçilik sükanının arxasına keçən Heydər Əliyev xilaskarlıq missiyasını müdrikliklə, yenilməz iradə, qətiyyət və böyük uzaqgörənliklə yerinə yetirməyə başladı. Ölkədə formalaşmağa başlayan yeni siyasi kurs vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, separatçılıq meyillərinə son qoydu, ən əsası, Azərbaycanın dövlət müstəqilliyini təmin etdi.

Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi ulu öndər Heydər Əliyevin ideyalarının başlıca qayəsini təşkil edir. Son 15 ildə ölkəmizdə həyata keçirilən siyasi kursun mahiyyətində məhz bu amil dayanır. Heydər Əliyev siyasətini layiqincə yaşatmaqla yanaşı, həm də dövlət idarəçiliyində və siyasət meydanında yeni məktəbin banisi olan Prezident İlham Əliyevin həyata keçirdiyi dərin məzmunlu və çoxşaxəli siyasi kurs Azərbaycanın dövlət müstəqilliyini daha da möhkəmləndirdi. İndi Azərbaycan regionda lider, dünyada söz sahibi, yüksək nüfuzu olan dövlətdir. Bütün bunlar 30 il əvvəl insanlara xəyal kimi görünə bilərdi. Lakin ulu öndər Heydər Əliyevin başlatdığı, son 15 ildə isə Prezident İlham Əliyevin əzmlə həyata keçirdiyi siyasi kurs Azərbaycanın müstəqilliyinin əbədi və sarsılmaz olmasını təmin edib. Təsadüfi deyil ki, bu gün biz tarixin ən güclü Azərbaycanının vətəndaşı olmağımızla fəxr edirik.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

17 noyabr Beynəlxalq Tələbə Günüdür

# Əcnəbi tələbələrin Azərbaycan sevdası

## Onların içərisində təhsil sistemimizi bəyənənlər, Bakının küləyindən qorxanlar və özünə yar axtaranlar da var







28 oktyabr 1939-cu il - faşist işğalı altında olan Çexoslovakiyada Respublika gününü qeyd etmək üçün küçələrə axışan tələbə və müəllimlər zorakılığa məruz qalırlar. Tələbələrdən biri - Yan Opletal güllələnərək ağır yaralanır. Noyabrın 11-də aldığı güllə yarasından dünyasını dəyişən Opletalın cəsədi noyabrın 15-də Praqadan yaşadığı Moraviya şəhərinə aparılır.

Dəfn mərasimi isə böyük etiraz aksiyasına çevrilir. Faşistlər hadisələrin qarşısının alınması məqsədilə tələbə yataqxanalarını mühasirəyə alırlar və 1200 tələbə saxlanılaraq həbs düşərgələrinə aparılır. Noyabrın 17-də tələbə hərəkatının 9 fəal üzvü və bir neçə professor məhkəmənin hökmü olmadan edam edilir. Adolf Hitlerin qərarı ilə Çexoslovakiyanın bütün ali təhsil müəssisələrinin fəaliyyəti müharibə bitənə qədər dayandırılır.

İki il sonra, 16 noyabr 1941-ci ildə Praqada çex vətənpərvər tələbələrin qətlinin ildönümünə həsr olunmuş beynəlxalq tələbələr konqresində 17 noyabr tarixinin Beynəlxalq Tələbə Günü kimi təsis edilməsi ilə bağlı qərar qəbul olunur.

17 noyabr 77 ildir dünya ölkələrində gənclik, romantika, şənlik günü kimi qeyd olunsa da, onun yaranma tarixinin qanlı hadisələrlə bağlı olması dünya tələbələrini daha da yaxınlaşdıra, dərinin rəngi, dil, ənənələrlə bağlı fərqləri mümkün qədər aradan qaldıra bilib.

### Azərbaycanda 6 minə yaxın əcnəbi tələbə təhsil alır

Dünya dövlətlərində olduğu kimi, ölkəmizdə də Beynəlxalq Tələbə Günü qeyd olunur. Bu gün Azərbaycanda 6 minə yaxın əcnəbi tələbə təhsil alır.

Tələbəlik illəri insan həyatının möcüzələrlə dolu gözəl dövrüdür. Biz də unudulmaz xatirələrlə zəngin olan tələbəlik illərini Odlar Yurdunda keçirən, yeni təhsil üçün ölkəmizə üz tutan əcnəbi tələbələrlə həmsöhbət olduq.

### Valideynlərinin istəyinin əksinə gedərək ölkəmizi seçən afrikalı

İlk həmsöhbətimiz afrikalı Jaime Lima Piresdir. "Qoşulmama Hərəkatı" çərçivəsində tələbə mübadiləsi proqramı əsasında ölkəmizə gəlib. San-Tome və Prinsipi Demokratik Respublikasının vətəndaşıdır. Azərbaycan Texniki Universitetində hazırlıq mərhələsindədir. Bir aydır ki, Bakıdadır.

Xatırladaq ki, 2018-ci ilin aprel ayından Texniki Universitetdə Beynəlxalq Əlaqələr Departamenti yaradılıb. Departamentin əsas fəaliyyəti universitetə daha çox əcnəbi tələbə cəlb etmək, ikili diplomların hazırlanması üçün layihələrin icrası və ali təhsil ocağının beynəlxalq əlaqələrini genişləndirməkdir. Universitetdə təxminən 300-ə yaxın əcnəbi tələbə təhsil alır.

Həmsöhbətim Jaimenin dediyinə görə, burada onun ölkəsini, demək olar ki, heç kim tanımır: "19 yaşım var. Məktəbi bitirəndən sonra ali təhsil almaq üçün çox fikirləşdim. Atam İngiltərədə oxumağımı istəyirdi, çünki bacım orada yaşayır. Anam isə dostları Portuqaliyada qalır deyə orada təhsil almağımı arzulayırdı. Mən isə Bakını seçdim. Azərbaycan haqqında heç bir anlayışım yox idi. Müsəlman ölkəsi olduğunu bilirdim. Təsəvvürümdə başqa cür canlandırsam da, bura gələndən sonra klassik və bir o qədər də müasir bir şəhər, ölkə ilə qarşılaşdım. Tarix, coğrafiya kimi humanitar fənlər məni cəlb etmir. Buna görə texniki ixtisas üzrə təhsil almağa üstünlük verdim".

Jaime deyir ki, burada hansı ölkədən gəldiyini deyəndə hər kəs təəccüblə qarşılayır. Çünki çoxları bu ölkənin adını eşitməyib. ADA Universitetində müəllim kimi çalışan professor qadın onun ölkəsini tanıyan hələlik tək insandır. Onunla çox yaxşı dost olduqlarını deyən əcnəbi tələbə müəllimə ilə "Gənclik" metrostansiyası yaxınlığında yerləşən kilsəyə gedir, birlikdə qolf oynayırlar.

Dərisinin rənginə görə həmişə diqqət mərkəzində olduğunu deyən Jaime bu baxışları çox hiss etməmək üçün qara eynək taxır. Ona elə gəlir ki, küçədə, metroda, avtobusda, harada olursa-olsun hamı ona fokuslanır.

Müsahibim gələcəyə dair plan quran insan deyil. Deyir, ola bilər ki, getdiyi yolda qarşısına tamam başqa imkanlar çıxsın. O halda yeni plan tərtib etməli olur.

"Bacı-qardaşın varmı" sualına "Bu, uzun hekayədir" cavabını verib yayınmaq istəsə də, bizim üçün maraqlı olduğunu görüb danışmağa başladı. Məlum oldu ki, Jaimenin nə az, nə çox - düz 17 bacı-qardaşı var. Səbəbi isə Jaime doğulandan sonra valideynlərinin müəyyən problemlər üzündən ayrılmasıdır: "Onlar ayrılandan sonra anam ailə qurub. İki qızı var. Atamın isə 15 uşağı var".

Jaime deyir ki, Azərbaycanda qız-oğlan dostluğu elə də qəbul edilmir. Burada mentalitet bəzi qadağalar qoyur. Ona elə gəlir ki, ölkəmizdə insanlar sanki planlaşdırılmış həyat yaşayırlar: "Burada bəzi məkanlarda kişi və qadınlar üçün yemək yerləri ayrıdır. Əsasən oğlanların oturduğu çayxanada və ya bəzi restoranlarda qadınlar çox olmur".

### "Azərbaycanda insanlar çox mehribandır, sənə kömək etməyə can atırlar"

Almaniyadan gəlmiş 29 yaşlı Aleksey Andryuşin Azərbaycan Texniki Universitetində Maşınqayırma ixtisası üzrə bakalavr təhsili alır. Rusiyada anadan olan tələbə hələ birinci kursdadır. İki qardaşı var.

Aleksey 12 yaşında olanda ailəsi Almaniyaya köçüb. Rus dilini yaxşı bildiyi üçün Azərbaycanda təhsil şansını dəyərləndirmək qərarına gəlib: "Düşündüm ki, bu, həm də başqa ölkədə yaşamaq üçün əla şansdır. Gəlməmişdən əvvəl buranı Qazaxıstan, Rusiya kimi təsəvvür edirdim. Azərbaycanda insanlar çox mehribandır. İnsanlar sənə kömək etməyə can atırlar. Rasizm, mənfi münasibət duymamışam. Kirayə ev tutmuşam. Təhsil təqaüdü alıram və bu, mənim dolanışığım üçün yetərlidir. Çalışıram ki, başımı çox qatım və ailəm üçün darıxmayım. Burada hamı rus dilini bilmir, amma ünsiyyət qurmaqda elə də çətinliyim olmur. Azərbaycan dilində ancaq "Salam, sağ ol, maşallah, inşallah" sözlərini bilirəm.

Aleksey deyir ki, onu ən çox təəccübləndirən Bakının küçələrində çoxlu pişiyin olmasıdır. Amma xoşlamadığı şeylər də var. Bunlar, əsasən, tıxaclar və avtobusların sərnişinlə dolu olmasıdır. Bu da bütün iri şəhərlər üçün eyni hal sayılır: "Təhsilimi bitirəndən sonra burada qalmaq istəyərəm, amma üç illik təhsildən sonra geri qayıdıb 5 il işlədiyim İsveç şirkətində təcrübə keçməliyəm".

### "Sizin insanlar dostluğu sevəndir"

Artıq 3 ildir ki, Azərbaycan Texniki Universitetində Metallurgiya mühəndisliyi ixtisası üzrə bakalavr təhsili alan Guo Yuyangın 23 yaşı var. Çin Xalq Respublikasının şimal-şərqində yerləşən Harbin şəhərinin vətəndaşıdır.

Çinlə Azərbaycan arasında "Bir kəmər, bir yol" layihəsi çərçivəsində təcrübə mübadiləsi proqramı əsasında bura gəlib. Gələn il təhsilini başa vurduqdan sonra geri qayıdacaq. Bakını çox sevdiyini və bura üçün darıxacağını deyir.

Guo azərbaycanlıların dostluğu yaxşı bacardıqlarını söyləyir: "Sizin insanlar çox mehriban və dostluğu sevəndir. Onlar kömək etməyi xoşlayırlar. Burada təhsil elə də çətin deyil, amma mənə çətin gəlir. Çünki mən dili bilmirəm. Rus dili biliyim yaxşı deyil və çətin dil olduğundan üç ildir ki, hələ də öyrənib qurtara bilmirəm. Rus dili biliyim ünsiyyət üçün kifayət edir, amma təhsil üçün yetərli deyil".

Bakıda tıxac hallarının çox yaşandığını deyən Guo buna görə də hər gün dərsə 40-45 dəqiqəyə gəlib çata bildiyini deyir: "Dərsə gecikməyim deyə yuxudan durub hazırlaşan kimi evdən çıxıram. Səhər yeməyə də vaxtım çatmır. Yataqxanada qalıram. Yeməyi, əsasən, universitetin bufetində yeyirəm. Hərdən metrodan da istifadə edirəm. Avtobuslarda havalandırma sistemi olsa da, metro qatarlarında yoxdur. Çox isti olur. Günümə, əsasən, 10 manat pul xərcləyirəm. Dostum mənə Azərbaycan dilini öyrədir, mən də ona çin dilini başa salıram. Hərdən buradakı çinli dostlarımla yığışıb Çinin milli yeməklərini hazırlayırıq".

### "Bakı mənim ikinci şəhərim olub"

Digər müsahibimiz də Çin vətəndaşı Gao Şuanveydir. 25 yaşı var. Azərbaycan Memarlıq və İnşaat Universitetinin Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi fakültəsi üzrə magistr təhsili alır. Çinin İnner Monqolia şəhərindəndir. Çinlə Azərbaycan arasında "Bir kəmər, bir yol" çərçivəsində təcrübə mübadiləsi proqramı əsasında Azərbaycana gələn ilk tələbədir.

Bakını çox sevdiyini və burada rahat yaşadığını deyən Şuanvey əvvəl internet vasitəsilə ölkəmiz haqqında araşdırma da aparıb: "Çində hidrometeorologiya ixtisası üzrə bakalavr təhsili aldım. Magistr təhsili barədə düşünəndə belə bir imkan yarandı və dəyərləndirmək istədim. Çində də oxşar ixtisas tədris olunur, ancaq düşündüm ki, ölkələrimizin təhsil sistemləri başqadır, eləcə də fərqli bir mədəniyyət, insanlarla tanışlıq mənə daha maraqlı gəldi. Əvvəlcə internetdən Bakının görüntülərinə baxdım. Dənizin sahilində yerləşməsi çox xoşuma gəldi. Artıq iki ildir buradayam. Ötən il ancaq rus dili tədrisi ilə məşğul oldum. Universitetimizin yataqxanasında qalıram. Bakı artıq mənim ikinci şəhərim sayılır".

İnsanların ona qarşı mehriban davrandığını, hər çətinlikdə ona kömək etdiyini deyən Şuanvey ilk günlər dil bilmədiyi üçün ünsiyyət qurmaqda çətinlik çəkirmiş. İndi rus dilini öyrənib və hər şeyin normal olduğunu deyir: "Başlanğıcda, təbii ki, hər şey çətin gəlir. Rus və ingilis dillərini pis bilirdim. Bura gələndə əvvəlcə fikirləşdim ki, bacarmayacam, amma müəllimlərim mənə çox kömək oldu. İndi hər şey normaldır. Dərsimiz axşam saat 6-da başlayır deyə o saata kimi boş durmuram. Səhər saat 7-də durub universitetə, rus dili hazırlığına gedirəm. Sonra kitabxanaya gedib mütaliə ilə məşğul oluram. Dərsdən axşam saat 9-da çıxıram. Evə yorğun gəlirəm. Tapşırıqlarımı edib yatıram. Hər günüm belə keçir. İndi mənim üçün əsas olan yüksək təhsil almaqdır".

Bakını çox bəyənsə də, küləkli olmasından gileylənir. Şuanvey deyir ki, Çində də küləkli hava olur, amma Bakının küləyi çox soyuqdur. Universitetdə təhsildən qane olan Şuanvey təhsilini başa vurduqdan sonra geri qayıtmalıdır. Ancaq o, burada qalmağı çox istəyir.

### "Mədəniyyətlərimizdə oxşar nüanslar var"

Yəməndən olan Haşid əl-Əvlaki də Memarlıq və İnşaat Universitetində inşaat mühəndisliyi ixtisası üzrə təhsil alır. 26 yaşı var. İordaniyada mühəndislik üzrə bakalavr təhsili alıb. 3 bacı, 4 qardaşı var.

Yəməndə müharibə şəraiti olduğundan yaşayışın çox çətin olduğunu deyən Haşid burada sanki yeni bir həyata başlayıb. Rahatlığa qovuşduğunu deyən tələbə artıq bir aydır ki, Bakıdadır. Deyir ki, Yəməndə çox şey məhv edilib: "Bura gəlməmişdən əvvəl düz bir ay düşündüm və nəhayət, qərarımı verdim. İndi düşünürəm, yaxşı ki, bu qərarı vermişəm. Azərbaycanın mədəniyyəti, şəhərləri, təhsili haqqında məlumatlandım. Yəmən və Azərbaycan islam ölkəsi olduğundan mədəniyyətlərimizdə oxşar nüanslar var. Ancaq ölkənizdə insanlar daha ünsiyyətcildir, onlar mənə çox kömək edirlər. Azərbaycan dilini bilməsəm də, istəklərimi hərəkətlərimlə izah edirəm. Azərbaycan haqqında çox məlumat toplamağı, dilinizi öyrənməyi çox istəyirəm".

Təhsil təqaüdü vasitəsilə dolanan Haşid evdəkilər üçün çox darıxsa da, artıq bununla barışıb. Buradakı təhsil onu çox qane edir. Deyir ki, əgər təhsilini bitirəndən sonra burada qalıb işləmək imkanı olarsa, qalacaq. Respublikamızı multikultural ölkə adlandıran Haşid hətta burada azərbaycanlı xanımla evlənə biləcəyini də istisna etmir: "Ola bilər ki, azərbaycanlı bir xanımla evlənim. Ailəm də buna razı olar. Əsas hansı ölkədən, mədəniyyətdən olması deyil, insanın özüdür. Hələ ki Bakını çox yaxşı tanımıram deyə elə həftəsonları universitetimizin yaxınlığındakı yerləri gəzirəm. Azərbaycan yeməkləri çox dadlıdır. Bizdə də kabab var deyə bura gələndə əvvəlcə kabab axtardım. Çalışıram ki, buradakı insanlarda Yəmən barədə müsbət təsir yarada bilim. Eləcə də Azərbaycandan da ora yaxşı təəssürat aparacağıma ümid edirəm".

### Azərbaycanda təhsil alan xarici nazirlər, hətta prezident var

Gəncliyin ən gözəl günləri sayılır tələbəlik illəri. Bu illər hər birimizin yaddaşına özünəməxsus xatirələri ilə həkk olunub. Hələ də hər dəfə o mehriban, qayğısız illərimi xatırlayanda ürəyimizin telləri sızıldayır.

Xatırladaq ki, vaxtilə Azərbaycanda təhsil almış əcnəbi tələbələrin uğurlu karyeraları olub. Onların içərisində sonradan öz ölkəsində müxtəlif yüksək dövlət strukturlarında işləyən, deputat, nazir, baş nazir, spiker, hətta prezident olanı da olub. İnanırıq ki, bu gün ölkəmizdə təhsil alan əcnəbi tələbələr öz ölkələrində uğur qazanacaq, həm də Azərbaycanın təbliğatı istiqamətində faydalı lobbiçilik edəcəklər.

***Fərizə ƏHMƏDOVA, "Azərbaycan"***




# Ölkəmizi tanıyaq




# Gənclərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayan layihə

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə reallaşan "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində Səbail rayonunun təhsildə, idmanda və oxuduqları tədris müəssisəsinin ictimai həyatında fərqlənən 40 nəfər məktəblisi Lənkəran-Masallı-Astara marşrutu ilə yola salınıblar.

Səbail RİH-in binasında yolasalınma mərasiminə toplaşan məktəblilər və valideynlər, rayon ictimaiyyəti nümayəndələri, veteranlar Azərbaycanın Dövlət himni sədaları altında ümummilli lider Heydər Əliyevin büstü önünə güllər düzüblər.

Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalov iştirakçıları salamlayaraq ümummilli lider Heydər Əliyevin yaradıcısı olduğu müstəqil Azərbaycanın bu gün dünya miqyasında böyük nüfuz qazandığını, bölgənin lider dövlətinə çevrildiyini nəzərə çatdırıb. Bu misilsiz nailiyyətlərin müəllifi olan Prezident İlham Əliyevin qətiyyəti və iradəsi sayəsində bu gün ölkədə bütün sahələrdə əldə olunan uğurlardan, həyata keçirilən dinamik sosial-iqtisadi inkişafdan, yeni qlobal layihələrdən danışan icra başçısı vurğulayıb ki, gənc nəslə göstərilən dövlət qayğısı, gənclərin hərtərəfli inkişafı üçün yaradılan şərait də real nəticələr verir. Belə ki, yeniyetmələrin, gənclərin intellektual və fiziki hazırlığının yüksəldilməsini sosial siyasətin prioritetlərindən elan edən Prezident İlham Əliyevin birbaşa nəzarəti altında həyata keçirilən islahatlar nəticəsində yeni nəsil elmdən idmana, mədəniyyətdən ədəbiyyata qədər bütün sahələrdə mühüm uğurlar qazanıb və nəticə etibarilə həm dövlətin, həm də liderimizin etimadını doğruldub.

Məktəblilər üçün təşkil olunan gəzinti turunu da bu qayğının növbəti təcəssümü kimi dəyərləndirən Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalov qeyd edib ki, bu təşəbbüs gənc nəsildə vətənpərvərlik hissinin gücləndirilməsinə xidmət edir. Yeniyetmələr bu səfər vasitəsilə Azərbaycanın bölgələrini, ölkəmizin zəngin təbiətini, mədəniyyətini, tarixi keçmişini daha yaxından tanımaq fürsəti qazanacaqlar. Tədbirin sonunda məktəblilərə RİH-in xatirə hədiyyələri təqdim edilib və xatirə şəkilləri çəkilib.

Qeyd edək ki, tur-aksiya iştirakçılarının dörd gün ərzində Lənkəran şəhərinin müasir üslubda inşa olunan Heydər Əliyev Mərkəzinə, Bayraq meydanına, Gənclər Mərkəzinə, yeni salınan parklara, həmçinin şəhərin qədim tarixini əks etdirən Qoşa qala qapılarına, Dairəvi qalaya, Mayak binasına, Hirkan Milli Parkına, Həzi Aslanovun ev-muzeyinə, Xanbulan gölünə, çay plantasiyaları və sitrus meyvə bağlarına ekskursiyaları təşkil ediləcək.

* * *

Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə hərəkət edən Cəbrayıl, Cəlilabad, Qubadlı (Sumqayıt), Saatlı və Sabirabad rayonlarının məktəblilərindən ibarət qruplar qədim Şəkiyə gəliblər. Tur-aksiyanın iştirakçıları yeni istifadəyə verilən Heydər Əliyev Mərkəzində şəhər rəhbərliyi tərəfindən mehribanlıqla qarşılanıblar.

Şəhər icra hakimiyyəti başçısının müavini Zərinə Cavadova məktəblilərə qədim Şəkinin tarixi, mədəniyyəti, özünəməxsus adət-ənənələri, iqtisadiyyatı və turizm potensialı barədə məlumat verib. Bildirilib ki, bu il oktyabrın 29-da istifadəyə verilən Heydər Əliyev Mərkəzinin ümumi sahəsi 3700 kvadratmetrdir. Mərkəzdə rəsm və fotostudiyalar, elektron kitabxana, kompüter, rəqs, intellektual oyun dərnəkləri fəaliyyət göstərəcək. Mərkəzin yanında yeni istifadəyə verilən Bayraq Muzeyi dövlət atributlarına olan sonsuz sevgini nümayiş etdirir. Muzey gənc nəslin Azərbaycan bayrağına hörmət ruhunda tərbiyə olunmasına mühüm töhfələr verəcək. Burada 72 metr hündürlükdə bayraq dirəyi quraşdırılıb.

Məktəblilərin diqqətinə çatdırılıb ki, 2700 ildən çox yaşı olan bu qədim diyar dünya əhəmiyyətli tarixi-memarlıq abidələri ilə məşhurdur. Şəkidə dövlət qeydiyyatına götürülən 84 tarix və mədəniyyət abidəsi var. Füsunkar təbiəti, nadir tarixi-memarlıq abidələri, inkişaf etmiş sənətkarlığı, həmçinin zəngin irsinin qorunması nəticəsində Şəki bu gün Azərbaycanda turizmin yüksək səviyyədə inkişaf etdiyi bölgələrdən birinə çevrilib. 2017-ci ildə Şəkiyə 200 minə yaxın turist gəlib. Hər il bu şəhərdə beynəlxalq səviyyəli bir neçə festival keçirilir. Ənənəvi olaraq hər il keçirilən "İpək yolu" Beynəlxalq Musiqi Festivalında dünyanın bir sıra ölkələrinin tanınmış musiqi və folklor kollektivləri iştirak edir.

XVIII əsrə aid nadir tarixi-memarlıq abidəsi - Şəki xanlarının sarayı ilə tanışlıq tur-aksiya iştirakçılarında böyük maraq oyadıb. Bildirilib ki, Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan Hacı Çələbi xanın nəvəsi, "Müştaq" təxəllüsü ilə şeirlər yazan Hüseyn xanın dövründə - 1761-1762-ci illərdə inşa edilən bu sarayın dünyada bənzəri yoxdur. Sarayın tikintisində mismar və yapışqandan istifadə olunmayıb.

Məktəblilər sarayın həyətində xatirə şəkilləri çəkdiriblər.

Qoruğun ərazisində yeni istifadəyə verilən "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi ilə tanışlıq zamanı diqqətə çatdırılıb ki, mərkəzin yerləşdiyi bina 1867-ci ildə tikilmiş tarix-memarlıq abidəsidir. Mərkəzdə keramika və tətbiqi sənətlə məşğul olanlar üçün hər cür şərait yaradılıb. Keramika və Tətbiqi Sənət Mərkəzinin yaradılmasında əsas məqsəd ölkəmizin, əsasən də Şəki rayonunun tarixi keramika ənənələrinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsindən ibarətdir.

Məktəblilər qoruğun ərazisində fəaliyyət göstərən sənətkarlıq emalatxanalarına da baş çəkiblər. Diqqətə çatdırılıb ki, Şəki əsrlər boyu sənətkarlar məskəni olub. Şəki sənətkarlarının yüzillər boyu əldə etdikləri təcrübə nəsildən-nəslə keçməklə zəmanəmizədək gəlib çatıb. Şəkinin tarixi məkanları ilə tanışlıqdan sonra tur-aksiya iştirakçıları Zaqatala rayonuna yola düşüblər.

* * *

Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə tur-aksiyada iştirak edən Sumqayıt şəhərindən, Yasamal, Nəsimi, Nizami, Masallı, Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarından olan IX-XI sinif şagirdləri Gəncənin tarixi abidələri, müqəddəs məkanları, mədəniyyət mərkəzləri, eləcə də son illərdə inşa edilən turizm və istirahət məkanları ilə tanış olublar.

Maarifləndirici tur-aksiya iştirakçılarının üz tutduqları ilk məkan böyük mütəfəkkir, dahi Azərbaycan şairi Nizami Gəncəvinin türbə kompleksi olub. Məktəblilər əvvəlcə Şeyx Nizaminin və şairin valideynlərinin qəbirlərini ziyarət ediblər. Məlumat verilib ki, Nizami Gəncəvinin qəbri üzərində ilk türbə XIV əsrdə tikilib. Bu vaxtadək şairin məzarı üzərində müxtəlif əsrlərdə dörd dəfə türbə tikilsə də, onların heç biri bu qədər möhtəşəm və əzəmətli olmayıb. Hündürlüyü 24 metr olan hazırkı türbənin inşasında qırmızı qranitdən istifadə edilib.

Komplekslə tanışlığı davam etdirən şagirdlər türbə ətrafında yaradılan şəraitlə tanış olub, Nizami Gəncəvinin poemalarının motivləri əsasında işlənən heykəllərə baxıb, şəkillər çəkdiriblər.

Sonra tur-aksiya iştirakçıları Nizami Gəncəvi Muzeyinə gəliblər. Bildirilib ki, muzeyin binasının təməli 2013-cü ildə qoyulub. Bundan bir il sonra Prezident İlham Əliyevin Gəncəyə növbəti səfəri zamanı muzey istifadəyə verilib.

Burada məktəblilər vaxtilə dahi şairin əsərlərinə həsr edilən və dünyanın Metropoliten, Viktoriya və Albert, Drezden, Vatikan kimi muzeylərinin ən qiymətli eksponatları sırasında yer alan, "Xəmsə"nin motivləri əsasında işlənən miniatürlərin surətləri ilə tanış olublar.

Bildirilib ki, "İmamzadə" kompleksinin ətrafında böyük kompleks yaradılıb. Yenidənqurma işlərindən sonra Şahzadə İbrahimin qəbri üzərində tikilən tarixi türbələr saxlanılmaqla üzəri günbəzlə tamamlanan möhtəşəm türbə, ətrafında isə yaraşıqlı minarələr inşa edilib. Ziyarətgahda möminlərin rahat ibadəti üçün Hüseyniyyə və Zeynəbiyyə məscidləri, dəstəmazxana, mehmanxana, dini muzey tikilib. İnsanların mənəvi saflıq, doğruluq və halallıq məkanı olan "İmamzadə" kompleksi məktəblilərdə böyük maraq oyadıb.

Daha sonra tur-aksiya iştirakçıları Heydər Əliyev adına meydanda ümummilli liderin abidəsini ziyarət edib, xatirəsini ehtiramla anıblar.

Məktəblilər 1606-cı ilin yadigarları olan Şah Abbas məscidi, Çökək hamam, Uğurlu xan karvansarası ilə tanış olub, Gəncə xanlığının sonuncu hökmdarı Cavad xanın türbəsini ziyarət ediblər.

Açıq səma altında muzeyi xatırladan Cavad xan küçəsindəki gəzinti də şagirdlərə xoş təsir bağışlayıb. Küçə boyu irəlilədikcə onlara Gəncənin zəngin və çoxəsrlik memarlığının ən gözəl nümunələrinin qorunub saxlandığı, vaxtilə şəhərin mülkədarları və varlı tacirləri tərəfindən inşa edilən imarətlər, tarixi tikililər haqqında ətraflı məlumat verilib.

Tur-aksiya iştirakçıları daha sonra Məhsəti Gəncəvi adına mədəniyyət mərkəzinə gəliblər. Mədəniyyət ocağı ilə tanışlıq zamanı bildirilib ki, mərkəz Heydər Əliyev Fondunun dəstəyi ilə tikilib. Burada XII əsrdə yaşamış Azərbaycanın ilk qadın şairəsi Məhsəti Gəncəvinin həyat və yaradıcılığı haqqında zəngin materiallar toplanıb. Bundan başqa, mərkəzdə muzey, qalereya, kitabxana, müxtəlif tədbirlər üçün iclas zalı və sərgi salonu fəaliyyət göstərir.

Sonda tur-aksiya iştirakçıları Mirzə Şəfi Vazeh Muzeyinə və şairin adını daşıyan parka gəliblər.

Məktəblilərə məlumat verilib ki, Mirzə Şəfi Vazeh Muzeyi Prezident İlham Əliyevin tapşırığına əsasən Gəncədə tarixi-mədəni irsin qorunması və təbliği istiqamətində görülən işlər çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilib. Tur-aksiya iştirakçılarına Gəncədə XIX əsrdə yaşamış Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair və tanınmış maarifçi Mirzə Şəfi Vazehin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verilib. Mirzə Şəfi Vazehin yaradıcılığının Azərbaycan ilə Avropa arasında ədəbi-mədəni əlaqələrin inkişafında mühüm yer tutduğunu deyən bələdçilər mütəfəkkirin adını daşıyan muzeydə görülən işləri də diqqətə çatdırıblar.

Bildirilib ki, şəhərin "Gülüstan" ərazisində yerləşən muzeyin inşasına 2016-cı ilin martında başlanılıb və tikinti işləri 2017-ci ilin noyabrında sona çatdırılıb. Milli memarlıq üslubunda inşa olunan muzeyin ətrafında Mirzə Şəfi Vazehin adını daşıyan park salınıb.

"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində məktəblilərin səfəri davam edir.

* * *

8 rayon və bir şəhəri təmsil edən, ümumilikdə 300 nəfərdən çox məktəblinin qədim Quba və Azərbaycanın şimal qapısı sayılan Qusarla tanışlığı davam edir. Beyləqan, Ağcabədi, Xocavənd və Laçın rayon ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri Qubanın görməli yerlərini gəziblər.

Qədim Qubaya ekskursiya dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı qəsəbədən başlayıb. Şagirdlər qəsəbədə salınan Heydər Əliyev parkını gəzib, eləcə də Qudyalçayın üzərindəki Tağlı körpü ilə tanış olublar.

Qəsəbədəki sinaqoqla tanışlıq zamanı şagirdlərin diqqətinə çatdırılıb ki, uzun illərdir buradakı yəhudilər azərbaycanlılarla birlikdə, sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Dağ yəhudilərinin Quba ərazisində yığcam şəkildə məskunlaşmasının tarixi XVIII əsrin ortalarına təsadüf edir. Quba xanlığına Fətəli xanın rəhbərlik etdiyi dövrlərdə bütün ətraf ərazilərdə yaşayan yəhudilər bura köçməyə başlayıblar. Həmin vaxt salınan yəhudi məhəllələrində 10-dan çox sinaqoq inşa olunub.

Tur-aksiya iştirakçıları şəhərdə fəaliyyət göstərən "Qədim Quba" xalçaçılıq müəssisəsində xalça toxunması prosesini də izləyiblər.

Quba Soyqırımı Memorial Kompleksini ziyarət zamanı tur-aksiyanın iştirakçıları ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar.

Daha sonra məktəblilər Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki "ABAD" (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxsin Quba şəhərindəki "ABAD Factory" İstehsalat Kompleksi ilə yaxından tanış olublar.

Günün ikinci yarısında məktəblilər Quba rayonu ərazisində, Xınalıq yolu üzərində yerləşən dağ şəlaləsinə ekskursiya ediblər.

Tur-aksiya iştirakçıları, həmçinin "Quba Palace" mehmanxana kompleksində və burada yerləşən Qolf klubunda da olublar.

Ağdam, Bərdə, Goranboy, Naftalan və Tərtər məktəblərinin şagirdləri Azərbaycanın şimal qapısı sayılan Qusara səfər ediblər.

Məktəblilər Qusar şəhərinin girişindəki Bayraq meydanında qarşılanıblar. Rayon icra hakimiyyətinin, mədəniyyət və turizm, təhsil şöbələrinin nümayəndələri şagirdlərə Qusar rayonu haqqında ətraflı məlumat veriblər. Bildirilib ki, Qusar rayonu təkcə təbii gözəllikləri ilə deyil, həm də qədim mədəniyyət abidələri, sənətkarlıq nümunələri ilə də məşhurdur. Yayda gözəlliyi ilə göz oxşayan meşələri, qışda qara bürünmüş dağ və dərələri buraya gələnlərin diqqətini çəkir. Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edır.

Sonra tur-aksiya iştirakçıları "Şahdağ" Turizm Mərkəzi ilə tanış olublar. Məktəblilərə buradakı hotellər və müxtəlif xidmətlər barədə ətraflı məlumatlar verilib. Tur-aksiya iştirakçıları mərkəzin xidmətlərindən pulsuz yararlanmaq imkanı da qazanıblar.

Məktəblilər günün ikinci yarısında Həzrə kəndində Şeyx Cüneyd türbəsini ziyarət edib, şəhərdəki Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin irsini və fəaliyyətini əks etdirən fotoşəkillərə baxıblar. Daha sonra şagirdlər Qusar Tarix-Diyarşünaslıq Muzeyinə, Olimpiya İdman Kompleksinə və rəsm qalereyasına ekskursiya ediblər.

* * *

Qəbələ-Şəki-Zaqatala marşrutu ilə hərəkət edən Biləsuvar, Hacıqabul, Kürdəmir, Ucar və Zərdab rayonlarının məktəblilərindən ibarət qruplar ekskursiyanın üçüncü günündə, noyabrın 16-da qədim Şəkinin tarixi məkanları ilə tanış olublar.

Tur-aksiya iştirakçıları yeni istifadəyə verilən Heydər Əliyev Mərkəzində şəhər rəhbərliyi tərəfindən mehribanlıqla qarşılanıblar.

Məktəblilərə Şəkinin tarixi, mədəniyyəti, iqtisadiyyatı, turizm potensialı barədə məlumat verilib. Diqqətə çatdırılıb ki, 2700 ildən çox yaşı olan bu qədim diyar dünya və ölkə əhəmiyyətli tarixi-memarlıq abidələri ilə məşhurdur. Füsunkar təbiəti, nadir tarixi-memarlıq abidələri, inkişaf etmiş sənətkarlığı, həmçinin zəngin irsinin qorunması nəticəsində Şəki bu gün Azərbaycanda turizmin yüksək səviyyədə inkişaf etdiyi bölgələrdən birinə çevrilib. Hər il bu şəhərdə beynəlxalq tədbirlər, festivallar keçirilir. Şəki şəhəri 2008-ci ildə Dünya Tarixi Şəhərlər Liqasının üzvü seçilib, 2010-cu ildə Azərbaycanın Sənətkarlıq Paytaxtı elan edilib, 2017-ci ildə isə UNESCO-nun "Yaradıcı şəhərlər şəbəkəsi" siyahısına salınıb.

Mərkəzlə tanışlıqdan sonra beş rayonun məktəbliləri şəhərin qədim tarixi hissəsinə - "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisinə gəliblər. Məlumat verilib ki, qoruq Şəkiyə gələn yerli və xarici turistlərin ən çox üz tutduqları tarixi məkanlardan biridir. Qoruğu əhatələyən əzəmətli qala divarlarının təxminən 1743-1755-ci illərdə tikildiyi ehtimal edilir.

Azərbaycan memarlığının nadir incilərindən olan Şəki xanlarının sarayı tur-aksiya iştirakçılarında böyük maraq doğurub. Məktəblilərin diqqətinə çatdırılıb ki, saray XVIII əsrə aid nadir tarixi-memarlıq abidəsidir. Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan Hacı Çələbi xanın nəvəsi Hüseyn xan Müştağın dövründə, 1761-1762-ci illərdə inşa edilən bu bənzərsiz sarayın tikintisində mismar və yapışqandan istifadə olunmayıb. Sarayı bəzəyən sadə şəbəkənin bir kvadratmetrinə 5 min, pəncərə şəbəkələrin hər kvadratmetrinə isə 14 minədək xırda detal və rəngli şüşə düşür.

Məktəblilər sarayın önündə xatirə şəkilləri çəkdiriblər.

Qoruğun ərazisində yeni istifadəyə verilən "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi ilə tanışlıq zamanı qeyd olunub ki, keramika sənəti qədim dövrlərdən başlayaraq Azərbaycanda ən geniş yayılmış sənət sahələrindən biri olub. Sənətkarlar diyarı kimi tanınan qədim Şəkidə sənətkarlığın digər növləri kimi, keramika sənəti də bu günə qədər öz əhəmiyyətini saxlayıb. Bildirilib ki, mərkəzin yerləşdiyi bina 1867-ci ildə tikilmiş tarix-memarlıq abidəsidir. Mərkəzdə keramika və tətbiqi sənətlə məşğul olanlar üçün hər cür şərait yaradılıb. Keramika və Tətbiqi Sənət Mərkəzinin yaradılmasında əsas məqsəd ölkəmizin, əsasən də Şəki rayonunun tarixi keramika ənənələrinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsindən ibarətdir.

Tur-aksiya iştirakçıları sonra qoruğun ərazisində yerləşən Xalq Tətbiqi Sənəti və Tarix-Diyarşünaslıq muzeyləri, həmçinin "Yuxarı Karvansaray" mehmanxana-kompleksi ilə tanış olub, sənətkarlıq emalatxanalarına baş çəkiblər. Səfər proqramına uyğun olaraq, tur-aksiya iştirakçıları günün ikinci yarısında Zaqatala rayonunun tarixi məkanları ilə tanış olacaqlar.

* * *

Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə ekskursiyaya çıxan Biləsuvar, Hacıqabul, Kürdəmir, Ucar və Zərdab məktəbliləri noyabrın 16-da, günün ikinci yarısında "Qızılgüllər diyarı" kimi tanınan Zaqatala rayonuna gəliblər.












Tur-aksiyanın iştirakçıları Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzinin qarşısında rayonun rəhbər işçiləri tərəfindən mehribanlıqla qarşılanıblar.

Rayon icra hakimiyyəti başçısının müavini Vəfa Süleymanova məktəblilərə Zaqatalanın tarixi, coğrafi mövqeyi, mədəniyyəti və turizm potensialı barədə məlumat verib. Bildirilib ki, Böyük Qafqaz sıra dağlarının cənub yamaclarında yerləşən, 128 min nəfər əhalisi olan Zaqatala rayonunda 20-dən çox xalqın nümayəndəsi uzun illərdir dostluq və qardaşlıq şəraitində mehriban yaşayır.

Sonra məktəblilər Heydər Əliyev Mərkəzi ilə yaxından tanış olublar. Qeyd edilib ki, 2008-ci ildən fəaliyyət göstərən Heydər Əliyev Mərkəzinin yeni binası 2015-ci ilin noyabrında istifadəyə verilib. Ümumi sahəsi 2765 kvadratmetr olan ikimərtəbəli binada müxtəlif təyinatlı bölmələr fəaliyyət göstərir. Binanın birinci mərtəbəsindəki ekspozisiya zalında ulu öndərin zəngin həyat yolu və çoxşaxəli fəaliyyətinin bütün dövrləri barədə ətraflı məlumat almaq mümkündür. Binada, həmçinin akt və konfrans zalları, elektron kitabxana, kinozal, müxtəlif dərnək otaqları, fotostudiya, poliqrafiya emalatxanası və digər otaqlar yerləşir. Mərkəzdə fəaliyyət göstərən rəqs, rəsm, gitara, gənc fotoqraf, dekorativ tikmə, xalçaçılıq və toxuculuq dərnəklərində hər gün onlarla yeniyetmə və gənc məşğul olur.

Zərdab rayonunun məktəbliləri adından Mərkəzə "Əkinçi" qəzetinin nüsxələri təqdim edilib.

Zaqatala Tarix-Mədəniyyət Qoruğu ilə tanışlıq zamanı məlumat verilib ki, qoruq 1804-1830-cu illərdə inşa edilən Zaqatala qalasında yerləşir. Çar hakimiyyəti tərəfindən Zaqatalaya sürgün edilmiş "Potyomkin" zirehli gəmisinin inqilabçı matrosları vaxtilə məhz bu qalada məhbus kimi saxlanılıblar. Üç giriş qapısı olan qalanın daxilində müxtəlif məqsədlər üçün tikilmiş 15 yerli əhəmiyyətli tarixi abidə var.

Bildirilib ki, Zaqatala qalasında saxlanılan matrosların inqilabi fəaliyyəti barədə yazıçı Qılman İlkin "Qalada üsyan" romanını yazıb və bu əsər əsasında "Yenilməz batalyon" bədii filmi çəkilib. Müstəqillik illərində lentə alınan "Cavad xan" filminin bəzi səhnələri də Zaqatala qalası və onun ətrafında çəkilib.

Tur-aksiya iştirakçıları qalanın ərazisini gəzib, xatirə şəkilləri çəkdiriblər.

Zaqatalaya səfərləri çərçivəsində məktəblilər rayon tarix-diyarşünaslıq muzeyi ilə də tanış olublar. Məlumat verilib ki, 1967-ci ildə yaradılan muzeydə 16 minə yaxın eksponat qorunub saxlanılır.

Zaqatalaya ekskursiyalarını başa vuran tur-aksiya iştirakçıları axşam saatlarında Qəbələ rayonuna qayıdıblar.

* * *

Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə ekskursiyaya çıxan Sumqayıt şəhərindən, Yasamal, Nəsimi, Nizami, Masallı, Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarından olan məktəblilər noyabrın 16-da Göygöl və Şəmkir rayonları ilə tanış olublar. Əvvəlcə tur-aksiya iştirakçıları Göygöl rayonuna gəliblər. Qonaqları şəhər mərkəzində Göygöl Rayon İcra Hakimiyyətinin, mədəniyyət idarəsinin əməkdaşları, həmçinin şəhər ictimaiyyətinin nümayəndələri qarşılayıblar.

Rayon icra hakimiyyəti başçısının müavini Kəmalə İbrahimova tur-aksiya iştirakçılarını salamlayıb, məktəblilərə xoş səfər təəssüratları arzulayıb. Bildirilib ki, Göygöl şəhərinin əsası 1819-cu ildə Almaniyanın Virtemberq krallığından gələn koloniyaçılar tərəfindən qoyulub. Şəhərin adı da elə alman koloniyaçıları tərəfindən Helenendorf adlandırılıb. İkinci Dünya müharibəsi başlayana qədər burada dinc və əmin-amanlıq şəraitində yaşayan almanlar 1941-ci ildə Stalinin əmri ilə Sibirə və Qazaxıstana sürgün ediliblər. Ötən illərdə bir neçə dəfə adını dəyişən rayon 2008-ci ildən Göygöl adlandırılıb. Vaxtilə almanlar tərəfindən salınan küçələr, tikilən eyvanlı, çatmatağlı evlər və alman lüteran kilsəsi bu gün də olduğu kimi mühafizə edilir. Kilsədə rayonun keçmişini, eləcə də almanların tarixini və məişətini əks etdirən çoxlu sayda qiymətli eksponatlar qorunub saxlanılır.

Qeyd edilib ki, multikulturalizm ənənələrinə yüksək qiymət verilən Göygöl şəhərində küçələrlə irəlilədikcə burada almanlara məxsus onlarla maddi-mədəni tikiliyə, tarixi nişanəyə rast gəlmək mümkündür.

Tur-aksiya iştirakçıları şəhərlə tanışlığa Heydər Əliyev Mərkəzindən başlayıblar. Əvvəlcə məktəblilər burada ümummilli liderin həyatının, siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərini əks etdirən foto və sənədlərə baxıb, mərkəzin fəaliyyəti ilə tanış olublar. Bildirilib ki, buradakı muzeydə gənclər üçün xalçaçılıq və bədii biçmə-tikmə evləri, həmçinin kinozal fəaliyyət göstərir.

Daha sonra Göygöl Rayon Tarix-Diyarşünaslıq Muzeyinə gələn məktəblilərə məlumat verilib ki, vaxtilə alman koloniyaçıları tərəfindən tikilən kilsə hazırda muzey binası kimi fəaliyyət göstərir. Muzeydə nümayiş olunan tarixi eksponatlar, vaxtilə almanlar tərəfindən istifadə edilən məişət əşyaları, geyim nümunələri və tarixi fotolar şagirdlərdə böyük maraq yaradıb.

Açıq səma altında ölkəmizin multikultural ənənələrinin əks olunduğu muzeyi xatırladan Göygöl şəhəri buraya səfər edən hər kəsdə olduğu kimi, tur-aksiya iştirakçılarında da dolğun fikir və zəngin təəssürat doğurub.

Rayonla tanışlıqlarını başa vuran tur-aksiya iştirakçıları sonra Şəmkirə səfər ediblər.

Şəmkir şəhərinin mərkəzinə gələn məktəbliləri Heydər Əliyev Mərkəzinin qarşısında rayon rəhbərliyi qarşılayıb.

Əvvəlcə tur-aksiya iştirakçılarına Heydər Əliyev Mərkəzi haqqında məlumat verilərək bildirilib ki, bina orijinal memarlıq üslubunda inşa edilib. Belə ki, mərkəzin daxilində yan divarlarda ümummilli liderin həyat və siyasi fəaliyyətini əks etdirən fotolara baxan hər kəs irəlilədikcə istər-istəməz yüksəkliyə qalxmış olur. Bu cür memarlıq həlli isə həm rəmzi məna daşıyır, həm də ümummilli lider Heydər Əliyevin yüksələn siyasi fəaliyyətini əks etdirir.

Şagirdlər Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin irsini əks etdirən fotoşəkillərə, ümummilli liderə həsr olunan kitablara baxıblar. Bildirilib ki, mərkəzdə ümummilli lider Heydər Əliyevin müxtəlif vəzifələrdə olduğu dövrlərdə işlədiyi kabinetlərin və iş otaqlarının bənzərləri yaradılıb. Bayraq meydanında tarixən Azərbaycanda mövcud olan dövlətlərin bayraqlarının və nişanlarının əks olunduğu guşələr də tur-aksiya iştirakçılarında böyük maraq doğurub.

"Zəka" Gənclərin İntellektual İnkişaf və Yaradıcılıq Mərkəzi ilə tanışlıq da tur-aksiya iştirakçıları üçün yaddaqalan olub. Bildirilib ki, "Zəka" mərkəzinin qalereyasında burada fəaliyyət göstərən dərnək üzvlərinin müxtəlif texnika və üslublarda hazırladıqları əl işləri, rəsm əsərləri sərgilənir.

Məktəblilər Şəmkirdə vaxtilə alman koloniyaçıları tərəfindən inşa olunan lüteran kilsəsi ilə də tanış olublar. Onlara Şəmkirin əsasını qoyan alman koloniyaçıları haqqında ətraflı məlumat verilib.

Şagirdlərin Göygöl və Şəmkir rayonları ilə tanışlığı zəngin səfər təəssüratları ilə başa çatıb.

**AZƏRTAC**

AZPETROL

Azpetrol Şirkətinin
rəhbərliyi və kollektivi
Azərbaycan xalqını
**17 noyabr - Milli Dirçəliş Günü**
münasibətilə təbrik edir.
Şirkət xalqımıza sülh, əmin-amanlıq, firavan həyat, tərəqqi, birlik, hər bir ailəyə xoşbəxtlik və xoş gələcək arzulayır!




Bayramınız mübarək!

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Moskvada "Nəsimi - şeir, sənət və mənəviyyat festivalı" keçiriləcək

Noyabrın 19-20-də Rusiyanın paytaxtı Moskvada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Nəsimi - şeir, sənət və mənəviyyat festivalı" keçiriləcək. Layihə Şərqin dahi şair və mütəfəkkirlərindən biri olan İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığının təbliği və iki ölkə arasında mədəni-ədəbi əlaqələrin genişləndirilməsi məqsədi daşıyır.

AZƏRTAC xəbər verir ki, festival çərçivəsində Moskva Beynəlxalq Əlaqələr İnstitutunda İmadəddin Nəsiminin büstünün açılış mərasimi keçiriləcək. Açılış zamanı Nəsimi poeziyasından müxtəlif nümunələr də səsləndiriləcək.

Festival zamanı həmçinin M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Asiya və Afrika Ölkələri İnstitutunda Nəsimi yaradıcılığına həsr olunmuş tədbir keçiriləcək. Çıxışlarda İmadəddin Nəsiminin Azərbaycan poeziyasının inkişafında oynadığı roldan, dünya mədəniyyəti və ədəbiyyatına verdiyi töhfədən bəhs olunacaq. Tədbirdə MDU-nun tələbələri Nəsiminin şeirlərini müxtəlif dillərdə səsləndirəcək, həmçinin Azərbaycandan olan aktyorların ifasında "Mərhəba" musiqili-poetik tamaşası təqdim ediləcək.

Festival noyabrın 20-də M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Asiya və Afrika Ölkələri İnstitutunda Nəsimi irsinə həsr olunmuş konfransla davam edəcək. Tədbirdə "Nəsimi festivalı: ideoloji-mədəni irsin dinamik interpretasiya təcrübəsi", "Nəsimi və Yan Qus. Şərq və Qərbin mədəni birliyi", "Nəsiminin dili - dünən, bu gün, sabah" və digər mövzularda məruzələr ediləcək. Konfransda Nəsimi yaradıcılığını, şairin ədəbi-fəlsəfi irsini müxtəlif aspektlərdən təhlil edən çıxışlarla yanaşı, müasir gəncliyin mənəviyyatı, iki ölkənin gəncləri arasında əlaqələrin inkişafına dair müzakirələr də aparılacaq.

Xatırladaq ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə sentyabrın 27-30-da Azərbaycanda ilk dəfə olaraq "Nəsimi - şeir, sənət və mənəviyyat festivalı" təşkil olunub. Layihə çərçivəsində həm şairin doğulduğu Şamaxı şəhərində, həm də Bakıda müxtəlif sənət növləri üzrə sərgilər, musiqi layihələri, tamaşalar, eləcə də mühazirə, simpozium və seminarlar təşkil olunub. Dörd gün davam edən festival Nəsimi yaradıcılığının tərənnümü ilə yanaşı, şeir və sənətin yaşadılması, müxtəlif müstəvilərdə və formatlarda təqdimatlar ilə yadda qalıb.

# Brexit baş tutacaqmı?

## *Britaniyanın Aİ-dən ayrılması prosesi dalana dirənə bilər*

Böyük Britaniyanın Avropa İttifaqından (Aİ) ayrılması (Brexit) iki ildən çoxdur Köhnə dünyanın gündəmində aparıcı məsələ olaraq qalır.



2016-cı il iyunun 23-də Birləşmiş Krallıqda ölkənin Aİ-nin tərkibində qalıb-qalmamasına dair referendum keçirildi və Brexitin tərəfdarları ümumxalq səsverməsində cüzi səs soxluğu ilə qələbə qazandılar. Bundan sonra rəsmi London xalqın iradəsini nəzərə alaraq Aİ-dən ayrılma prosesinə start verdi, hərçənd referendum məşvərətçi xarakter daşıyırdı və onun nəticələrinin məcburi hüquqi qüvvəsi yox idi.

Ötən müddət ərzində Londonla Brüssel arasında keçirilmiş danışıqların gedişində mütəşəkkil ayrılmanın şərtləri müzakirə olundu və nəhayət, ötən çərşənbə axşamı Böyük Britaniya Baş nazirinin mətbuat xidməti tərəflərin Brexitin şərtləri barədə ortaq məxrəcə gəldiyini bəyan etdi. Layihədə qeyd olunur ki, "boşanma" prosesi, əvvəllər razılaşdırıldığı kimi, gələn il martın 29-da başa çatacaq. Eyni zamanda sənəd 2020-ci il dekabrın 31-də bitəcək keçid dövrünü nəzərdə tutur. Keçid dövründə Böyük Britaniya Aİ qarşısında bütün öhdəliklərini yerinə yetirəcək, Aİ ümumi bazarının bütün imkanlarından yararlanacaq, Aİ Məhkəməsinin qərarlarına tabe olacaq. Bununla belə, London Aİ səviyyəsində qərarların qəbul olunmasında iştirak edə bilməyəcək. Özü də keçid dövrü iki tərəfin razılığı ilə cəmi bir dəfə uzadıla bilər.

Noyabrın 14-də Baş nazir Tereza Mey hökumətin təcili iclasını çağırdı və səs çoxluğu ilə kabinetin saziş layihəsini bəyənməsinə nail oldu. Ardınca hökumətin başçısı parlamentin İcmalar Palatasında çıxış edərək saziş layihəsini müdafiə etməyə çalışdı. Öz növbəsində Aİ rəsmiləri və təşkilatın üzvü olan ayrı-ayrı dövlətlərin yüksək vəzifəli nümayəndələri sazişin şərtlərini birmənalı şəkildə dəstəkləyib danışıqların birinci mərhələsinin başa çatmasından məmnunluq ifadə etdilər.

Prosedura uyğun olaraq, saziş layihəsi Böyük Britaniya Nazirlər Kabineti səviyyəsində rəsmən təsdiqləndikdən sonra Aİ sammitində bütün üzv-ölkələr tərəfindən bəyənilməlidir. Aİ-nin zirvə görüşünün cari ayın 25-də keçirilməsi planlaşdırılır. Daha sonra layihə Britaniya və Avropa parlamentlərində təsdiqlənməlidir.

Lakin razılaşdırılmış saziş layihəsinin açıqlanması ilə Brexitin gerçəkləşməsinə əngəl ola biləcək "sualtı qayalar" özünü göstərdi. Belə ki, istər Böyük Britaniya hökumətinin bir sıra üzvləri, istər parlamentin həm müxalifəti, həm də hakim Mühafizəkarlar Partiyasını təmsil edən bir çox deputatları, istərsə də ayrı-ayrı siyasətçilər layihəyə mənfi münasibət bildirdilər. Şotlandiya hökumətinin fikrincə, saziş layihəsi "ölü"dür. Brexitin tərəfdarlarını ən çox narahat edən məsələ Aİ-nin üzvü olan İrlandiya Respublikası ilə Böyük Britaniyanın Şimali İrlandiya bölgəsi arasında sərhəddə nəzarət rejiminin tənzimlənməsidir. Hər iki tərəf Britaniya Aİ-dən çıxdıqdan sonra sərhədin vətəndaşlar, həmçinin mallar və xidmətlər üçün şəffaf qalmasına tərəfdardır. Amma London və Brüssel hələ də müvafiq qərar işləyib hazırlaya bilməmişdir.

Brexit məsələləri üzrə nazir Dominik Raab sazişin şərtləri ilə razılaşmadığından istefa verdi. O, Baş nazirə ünvanladığı istefa ərizəsində vəzifəni tərk etməsini iki səbəblə əlaqələndirirdi: birincisi, Raab hesab edir ki, Şimali İrlandiya ilə İrlandiya Respublikası arasında sərhədin təklif olunmuş tənzimlənməsi rejimi Birləşmiş Krallığın ərazi bütövlüyü üçün çox ciddi təhlükədir. İkincisi, onun fikrincə, Böyük Britaniyanın Aİ-dən çıxmasına Aİ-nin veto qoymasının zaman baxımından qeyri-məhdud olmasını dəstəkləmək mümkün deyil. Raabın ardınca hökumətin daha iki üzvü - əmək naziri Ester Makvey və Şimali İrlandiya işləri üzrə dövlət naziri Şeyleş Vara, eləcə də bir çox yüksək vəzifəli məmurlar istefa ərizəsi yazdılar.

Hadisələrin gedişi göstərir ki, Brexitə dair saziş layihəsinin Aİ qurumları tərəfindən təsdiqlənməsində elə bir problem olmayacaq. Bununla yanaşı, layihənin Britaniya parlamentindən keçəcəyi asan görünmür, çünki müqaviləyə qarşı çıxan deputatların sayı artır. Mühafizəkar deputat və Brexitin radikal tərəfdarı Mark Fransua hesab edir ki, sazişin İcmalar Palatasında təsdiqlənməsinə nail olmaq riyazi cəhətdən mümkün deyil. Onun dediyinə görə, "leyboristlər, Şotlandiya Milli Partiyası, Liberal Partiya, həmçinin əsas müttəfiqimiz - Demokratik Yunionist Partiya sənədin əleyhinə səs verəcəklər". Bundan başqa, Fransua qeyd etmişdir ki, Mühafizəkarlar Partiyasını təmsil edən 80-dən çox parlamentar sazişi rədd etmək niyyətindədir.

Digər tərəfdən, Britaniya sakinlərinin yarıdan çoxu ölkənin Aİ-dən çıxmasını dəstəkləmir və təkrar referendum keçirməyə çağırır. "Sky News" telekanalının keçirdiyi rəy sorğusunun nəticələrinə görə, britaniyalıların 54 faizi Birləşmiş Krallığın Aİ-nin tərkibində qalmasını istəyir, 32 faizi isə Brexiti dəstəkləyir. Respondentlərin cəmi 14 faizi ölkənin Tereza Mey hökumətinin razılaşdırdığı şərtlərlə Aİ-dən çıxmasını bəyənir. Bundan başqa, Britaniya sakinlərinin əksəriyyəti təkrar referenduma tərəfdardır: rəyi soruşulanların 55 faizi bu təşəbbüsü dəstəkləyir. Brexitin əleyhdarları ümid edirlər ki, Baş nazir Meyin saziş layihəsini parlamentdən keçirə bilməməsi təkrar referendumun keçirilməsinə gətirib çıxarar və nəticə etibarilə Böyük Britaniya Aİ-nin tərkibində qalar.

Bəs belə bir şəraitdə Brexitin taleyini nə gözləyir? Aydındır ki, Britaniya siyasi isteblişmenti param-parça vəziyyətdədir. Xüsusilə Tereza Meyi dəstəkləyən mühafizəkarların vəziyyəti qibtəediləcək deyil. Növbəti parlament seçkilərində hakimiyyətə gəlmək niyyətində olan müxalif Leyboristlər Partiyası mühafizəkarların düşərgəsində Brexitlə əlaqədar ziddiyyətlərin kəskinləşməsində və Baş nazirin mövqeyinin zəifləməsində maraqlıdır. Odur ki, leyboristlərin mühafizəkarlarla birləşib parlamentdə Brexit sazişinə "qırmızı işıq" yandırması gözləniləndir. Onda müqavilə tarixin zibilliyinə atılacaq və Tereza Meyin siyasi səhnəni tərk etməkdən başqa yolu qalmayacaq, çünki o, hökumətin başçısı vəzifəsinə Brexiti həyata keçirmək missiyası ilə gəlmişdir. Belə olan halda ya ölkədə təkrar referendum keçiriləcək, ya da yeni Baş nazir Brüssellə danışıqlara sıfırdan başlayacaq.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

**İqtisadi xəbərlər**

# 10 ayda 65,2 milyard manatlıqdan çox ÜDM istehsal olunmuşdur

Dövlət Statistika Komitəsi ölkə üzrə ÜDM istehsalı haqqında son məlumatı açıqlayıb. Məlumatda bildirilir ki, cari ilin yanvar-oktyabr aylarında Azərbaycanda ümumi daxili məhsul (ÜDM) istehsalı 0,8 faiz artaraq 65 milyard 233 milyon manata çatmışdır.

Əvvəlki ilin müvafiq dövrünə nisbətən iqtisadiyyatın qeyri-neft sektorunda 1, neft sektorunda 0,3 faiz artan ÜDM-in 45,7 faizi sənaye, 9,4 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,5 faizi tikinti, 6,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,5 faizi informasiya və rabitə, 14,7 faizi digər sahələrdə istehsal olunmuşdur. Məhsula və idxala xalis vergilər ÜDM-in 7,9 faizini təşkil etmişdir.

Bu dövrdə informasiya və rabitə sahələrində əlavə dəyər istehsalı 8,8, nəqliyyat və anbar təsərrüfatına 8,6, turistlərin yerləşdirilməsi və ictimai iaşədə 7,6, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 5, ticarət; nəqliyyat vasitələrinin təmirində 2,6, sənayedə 1,4, digər xidmət sahələrində 0,3 faiz artmış, tikintidə 15,8 faiz azalmışdır.

Əhalinin hər nəfərinə düşən ÜDM istehsalının həcmi 6648,1 manata bərabər olmuşdur.

# Qeyri-neft sənaye məhsullarının istehsalında 10 faiz artım var

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-oktyabr aylarında ölkə üzrə 40 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çox sənaye məhsulları istehsal edilmişdir. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 10, neft sektorunda 0,2 faiz artmışdır.

Sənaye məhsullarının 73,4 faizi mədənçıxarma, 22 faizi emal, 3,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. Mədənçıxarma sektorunda neft hasilatı 0,1, əmtəəlik qaz hasilatı 3,5 faiz artmışdır. Emal sektorunda avtomobil, qoşqu və yarımqoşquların istehsalı 26,5, poliqrafiya məhsullarının istehsalı 2,9, tütün məmulatlarının istehsalı 2,5, elektrik avadanlıqlarının istehsalı 2,4, mebel istehsalı 2,1 dəfə, toxuculuq sənayesi məhsullarının istehsalı 48,8, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 35,6, tikinti materiallarının istehsalı 28,9, ağacın emalı və ağacdan məmulatların istehsalı 21, metallurgiya sənayesi məhsullarının istehsalı 13,3, içki istehsalı 10,6, kağız və karton istehsalı 6,8, kimya sənayesi məhsullarının istehsalı 3,8, rezin və plastik kütlə məmulatlarının istehsalı 0,1 faiz artmışdır.

Artım həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında qeydə alınmışdır - müvafiq olaraq 5,7 və 3,3 faiz.

# İslahatların real nəticəsi - idxal azalır, ixrac artır

Cari ilin yanvar-sentyabr aylarında Azərbaycan dünyanın 176 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirmişdir. 102 ölkəyə məhsul ixrac, 168 ölkədən idxal olunmuşdur.

Dövlət Statistika Komitəsinin məlumatına görə, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla bu ilin yanvar-sentyabr aylarında ölkənin xarici ticarət dövriyyəsi 23 milyard 159,4 milyon, o cümlədən ixracın dəyəri 15 milyard 254,2 milyon, idxalın dəyəri 7 milyard 905,2 milyon dollar təşkil etmiş və nəticədə 7 milyard 349 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. 2017-ci ilin yanvar-sentyabr ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 34,3, o cümlədən ixrac 37,9, idxal 28 faiz artmışdır. Real ifadədə dövriyyə 0,2, o cümlədən idxal 2,3 faiz azalmış, ixrac 0,9 faiz çoxalmışdır.

Dövlət Gömrük Komitəsinin məlumatlarına görə, ixracın 26,9 faizini İtaliyaya, 8,8 faizini Türkiyəyə, 7 faizini İsrailə, 5,2 faizini Hindistana, 4,7 faizini Çexiyaya, 4,4 faizini Almaniyaya, 3,9 faizini Tayvana (Çinin əyaləti), 3,8 faizini İndoneziyaya, 3,6 faizini Kanadaya, 3,3 faizini Portuqaliyaya, 3,1 faizini Rusiyaya, hər biri 2,7 faiz olmaqla Fransa və Gürcüstana, 2,3 faizini İspaniyaya, qalan 17,6 faizini digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir. İdxal olunmuş məhsullara gəldikdə, onların ümumi dəyərinin 15,8 faizi Rusiya, 14,2 faizi Türkiyə, 10,3 faizi Çin, 6,1 faizi Almaniya, 4,9 faizi ABŞ, 4 faizi Ukrayna, 3,3 faizi Yaponiya, hər biri 3,1 faiz olmaqla İran və İtaliya, 2,6 faizi İsveçrə, 2,3 faizi İngiltərə, 2,1 faizi Cənubi Afrika Respublikası, 28,2 faizi isə digər ölkələrlə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

Hesabat dövründə 1 milyard 207,4 milyon dollarlıq qeyri-neft məhsulları ixrac edilmişdir ki, bu da keçən ilin yanvar-sentyabr aylarına nisbətən faktiki qiymətlərlə 12,9, real ifadədə 3,5 faiz çoxdur.

***"Azərbaycan"***

# Elife ÇEKEM: "AZƏRTAC və Anadolu düzgün informasiya təminatı məsələsində eyni mövqedən çıxış edir"

VI Bakı Beynəlxalq Humanitar Forumu dünya ictimaiyyətini narahat edən məsələlərin müzakirəsi ilə yanaşı, gündəlikdə duran mövzular arasında praktik əlaqə və uyğunluq yaradılması baxımından da mühüm əhəmiyyət daşıyır.

Bu fikri AZƏRTAC-a müsahibəsində forumun iştirakçısı, Türkiyənin Anadolu agentliyinin məsul əməkdaşı Elife Çekem səsləndirib. Düzgün informasiya təminatı məsələsində AZƏRTAC və Anadolu agentliyinin hər zaman eyni dərəcədə sağlam mövqe nümayiş etdirdiklərini diqqətə çəkən Elife Çekem deyib ki, yanlış xəbərlərin yayılması müasir dövrdə bütün ölkələr üçün böyük problemə çevrilir. Bu mənada forum çərçivəsində AZƏRTAC-ın təşkilatçılığı ilə keçirilən "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusunda işçi sessiyası ənənəvi medianın sağlam ruhda idarə edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Yanlış xəbərlərin yayılmasının qarşısını almaq məsələsində AZƏRTAC-ın qətiyyətli mövqeyini tam dəstəklədiyini bildirən həmsöhbətimiz qeyd edib ki, işçi sessiyada irəli sürülən ideyalar, səslənən təkliflər mövcud problemin həlli istiqamətində təkanverici təsir gücünə malikdir.

Bakı Forumunda iştirak etmək şansı qazandığı üçün minnətdarlığını ifadə edən Elife Çekem deyib: "Bakıda qarşılaşdığım hər bir azərbaycanlının "Türkiyəyə salamlar" deyərək sonsuz səmimiyyət göstərməsi məni çox təsirləndirdi. Bu, Azərbaycanda Türkiyəyə olan sonsuz qardaşlıq sevgisinin nişanəsidir. Forum sayəsində ilk dəfə olaraq Bakıya səfər etdim. Paytaxtınızın gözəlliyinə, tarixiliyin qorunması ilə bərabər, müasir inkişafına heyran qaldım. İnsanların səmimiyyəti, qayğıkeşliyi və qonaqpərvərliyi isə tükənməz bir milli sərvətdir. Ən böyük arzum yaxın zamanlarda ailəmlə birlikdə Azərbaycana, xüsusilə də paytaxt Bakıya səfər etməkdir".

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Noyabrın 16-da təhsil naziri Ceyhun Bayramov Saatlı şəhərindəki Gənclər mərkəzində Sabirabad, Saatlı, İmişli rayon və Şirvan şəhər sakinlərini qəbul edib. Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin noyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, qəbulda qeyd edilən şəhər və rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Təhsil Nazirliyindən bildiriblər ki, nazir qəbula yazılmış vətəndaşların müraciət və təkliflərini diqqətlə dinləyərək, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən müəllimlərin işə qəbulu və yerdəyişməsi, dərs saatlarının artırılması, təhsil sənədlərinin tanınması və digər məsələlərlə əlaqədar müraciət ediblər.

***

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə Bərdə şəhərində vətəndaşlarla görüşüb. Görüşdə Bərdə ilə yanaşı, Yevlax, Tərtər və Ağdam rayonlarının da sakinləri iştirak edib.

Görüşdə vətəndaşların müraciətləri dinlənilib, qaldırılan məsələlərin həlli üçün nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib. Əksər müraciətlər yerindəcə öz müsbət həllini tapıb.

Müraciətlər daha çox telekommunikasiya, internet, poçt xidmətləri, yol təmir-tikintisi, yeni marşrut xəttinin açılması, marşrut qrafiklərində dəyişiklik edilməsi, işə qəbul kimi məsələləri əhatə edib.

Bəzi vətəndaşlar tərəfindən qaldırılan məsələlər nazirliyin səlahiyyətlərinə aid olmadığı üçün müvafiq qurumlara ünvanlanması üzrə qeydiyyata alınıb.

***

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, noyabrın 16-da səhiyyə naziri Oqtay Şirəliyev qəbul cədvəlinə uyğun olaraq Tərtər Rayon Mərkəzi Xəstəxanasında Tərtər, Bərdə, Goranboy, Ağdam rayon sakinlərini qəbul edib. Qəbulda 12 vətəndaş iştirak edib. Sakinlərin sağlamlıq problemləri, işlə təminat və sair məsələlərlə bağlı müraciətləri dinlənilib.

Vətəndaşların müraciətində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb, onların bəziləri yerində həllini tapıb.

Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

***

Noyabrın 16-da Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Xızı şəhər Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Qəbul zamanı Sumqayıt şəhəri, Abşeron, Xızı, Siyəzən rayonlarının sakinləri və həmin rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkün vətəndaşların müraciətləri dinlənilib.

Sakinlərin müraciətləri əsasən ali və orta ixtisas təhsili müəssisələrinə qəbul, 2019-cu ildə tətbiqi nəzərdə tutulan ümumi təhsil pilləsində təhsil alanların yekun qiymətləndirilməsi (buraxılış) imtahanlarının və ali təhsil müəssisələrinə qəbul imtahanlarının modeli, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, namizədlərlə müsahibələrin keçirilməsi və s. məsələlərlə bağlı olub.

Hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib. Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb. Araşdırılması zəruri olan bəzi məsələlər qeydiyyata alınıb, həlli ilə bağlı müvafiq şəxslərə konkret tapşırıqlar verilib.

DİM-in səlahiyyətlərinə aid olmayan məsələlər isə aidiyyəti qurumlara göndərilmək üçün qeydiyyata götürülüb.

***AZƏRTAC***

# TÜRKSOY-un xalq çalğı alətləri orkestrinin Yokohamadakı konserti böyük maraq və alqışlarla qarşılanıb

TÜRKSOY-un xalq çalğı alətləri orkestrinin Yaponiyanın üçüncü şəhəri hesab edilən Yokohamadakı konserti böyük maraq və alqışlarla qarşılanıb.

AZƏRTAC xəbər verir ki, TÜRKSOY-un yaradılmasının 25 illiyi münasibətilə təşkil edilən Yaponiya turnesi artıq üç gündür davam edir. Noyabrın 13-də Yaponiya İncəsənət Universitetində, 14-də isə Kavasaki şəhərində təşkil edilən konsertlərdə 12 ölkədən 50 artistin iştirakı ilə möhtəşəm konsert proqramı nümayiş etdirilib.

Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Türkiyənin Tokiodakı səfirliklərinin dəstəyi ilə təşkil edilən konsertlər yapon musiqisevərlərin böyük marağına səbəb olub.

Noyabrın 15-də Yokohamanın "Mirai Hall" zalında təşkil olunan konsertdə əvvəlcə Azərbaycanın Yaponiyadakı səfiri Gürsel İsmayılzadə çıxış edərək qonaqları salamlayıb, konsertin təşkilinə görə TÜRKSOY-un baş katibi Düsen Kaseinova və Yokohama şəhərinin meriyasına minnətdarlığını bildirib.

TÜRKSOY təşkilatının yaranması və tarixi haqqında məlumat verən G.İsmayılzadə qeyd edib ki, təşkilatın məqsədi türk mənşəli xalqların birliyini və dostluğunu gücləndirmək, bu xalqların qədim, zəngin mədəniyyətini dünyaya tanıtmaq və eləcə də gələcək nəsillərə çatdırmaqdan ibarətdir.

Səfir TÜRKSOY təşkilatı ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin fikirlərini də tədbir iştirakçılarının diqqətinə çatdırıb: "TÜRKSOY bizləri daha yaxınlaşdırır. Bizim birliyimizin təməlində ümumi köklər, mədəniyyət və tarix mövcuddur. TÜRKSOY-u gücləndirmək üçün səylərimizi əsirgəməyəcəyik".

2018-ci ildə görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin 100 illik yubileyinin qeyd olunduğunu bildirən səfir, onun əsərlərinin ölkəmizin hüdudlarından kənarda da yaxşı tanındığını qeyd edib.

Səhnəyə qalxan TÜRKSOY-un baş katibi D.Kaseinov səfir G.İsmayılzadəni və bütün Azərbaycan xalqını Qara Qarayevin 100 illik yubileyi münasibətilə təbrik edib, 2018-ci ilin TÜRKSOY tərəfindən bu görkəmli Azərbaycan bəstəkarına həsr edildiyini vurğulayıb. Qeyd edib ki, Q.Qarayev tərəfindən yaradılmış əsərlər türk mənşəli xalqların klassik musiqisinin təməlini təşkil edir. Bu görkəmli bəstəkarın əsərləri nəinki türk mənşəli xalqlar arasında, həmçinin bütün dünyada geniş tanınır və sevilir. Məhz buna görə də, Q.Qarayevin "İldırımlı yollarla" əsərindən bir parça konsertin proqramına daxil edilib.

Sonra baş katib üzərində Qara Qarayevin təsviri olan xatirə hədiyyəsini səfirimizə təqdim edib.

Azərbaycanlı musiqiçilər - Muğam televiziya müsabiqəsinin laureatı Babək Quliyevin, Rasim Zərbəliyevin (tar), beynəlxalq müsabiqələr laureatı Şəhriyar Musayevin (kamança), Azərbaycanın əməkdar artisti Çinarə Heydərovanın (kanon) və Elnur Əliyevin (nağara) də qatıldığı konsert proqramı ümumilikdə 90 dəqiqə davam edib və yapon musiqisevərlər tərəfindən böyük maraq və alqışlarla qarşılanıb.

Bu gün Tokionun Akasaka ictimai mərkəzində, 18-də isə Hamamtsuda davam edəcək turne ayın 20-də Tokionun Mequro rayonunun "Persimmon Hall" mərkəzində qala-konsertlə başa çatacaq.

---

*2019-cu il üçün "Bakı Metropoliteni" QSC-nin tunellərində korroziya əleyhinə mühafizə üzlüklərinin çəkilməsi zamanı texniki xidmət göstərilməsinin satın alınması üzrə*

## açıq tender elan edir

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 16-dan, (Əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1.** 2019-cu il üçün "Bakı Metropoliteni" QSC-nin tunellərində korroziya əleyhinə mühafizə üzlüklərinin çəkilməsi zamanı texniki xidmət göstərilməsinin satın alınması

**İştirak haqqı- 300 manat**

Hesabın adı: "BAKI METROPOLITENI" QSC
Hesab: AZ98AZRT38050019440010268002
VÖEN 1402871431
Bank: AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)
Kodu: 501361
VÖEN: 9900006111
M/H: AZ02NABZ01350100000000022944
SWİFT: AZRTAZ22

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Metropoliten sahəsində iş təcrübəsi.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 dekabr 2018-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **27 dekabr 2018-ci il saat 17:00-a** qədər Bakı şəhəri, M.Rəfili küçəsi 16 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **28 dekabr 2018-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

"Azərişıq"ASC tərəfindən ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan mal-materialların satın alınması üzrə Tender komissiyasının qərarına əsasən qalib elan olunmuş "Gatdigital" MMC ilə satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

"Azərişıq"ASC tərəfindən Elektrik qurğuları və avtomobil ehtiyat hissələrinin satın alınması məqsədilə keçirilmiş Açıq Tenderin LOT-4 (Paylayıcı qurğuların satın alınması) üzrə Tender komissiyasının qərarına əsasən "Tikinti-Təmir-Təchizat-Bərpa" QSC qalib elan olunmuş və satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

"Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin Masallı Sənaye Məhəlləsi üçün mühafizə xidmətlərinin satın alınması məqsədilə keçirdiyi kotirovka sorğusu başa çatıb.

Tender komissiyasının 06.11.2018-ci il tarixli qərarı ilə "Alov Mühafizə Xidməti" MMC-nin "Binəqədi" filialı kotirovka sorğusunun qalibi elan olunub.

Qalib şirkətlə 14.11.2018-ci il tarixdə satınalma müqaviləsi imzalanıb.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin ATƏT-in keçmiş rəhbəri cənab Mario Rafaellinin iştirakı ilə keçiriləcək "İşğal olunmuş ərazilərdə qanunsuz iqtisadi fəaliyyət" adlı konfransın təşkili ilə əlaqədar işlərin və xidmətlərin satın alınması üzrə 08.11.2018-ci il tarixdə keçirdiyi təkliflər sorğusunun qalibi "VICTORIA DIZAYN" MMC olmuşdur.

***Tender komissiyası***

---

*Təkrar*

## "Azərbaycan İnvestisiya Şirkəti" ASC

*şirkətin 2017-ci il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən tərtib olunmuş maliyyə hesabatlarının Beynəlxalq Audit Standartlarına uyğun olaraq müstəqil auditinin həyata keçirilməsi üçün xidmətlərin satın alınması ilə əlaqədar*

***açıq tender elan edir***

**Tender 1 LOT üzrə keçirilir.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Tender təkliflərinin qiymətləndirilməsində aşagıdakı meyara üstünlük veriləcəkdir:

- Ən aşağı qiymət.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderə iştirakçı qismində, işçi heyətində çalışan ACCA və və ya CPA kvalifikasiya proqramlarına daxil olan bütün imtahanları uğurla tamamlamış peşəkar auditorların sayı ən azı 5 (beş) nəfər olan audit şirkətləri buraxılır.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" 20-ci mərtəbə ünvanında yerləşən ofisindən ala bilərlər (əlaqələndirici şəxs: Mixayil Qomelko, əlaqə telefonu: 488-80-10, faks: 488-80-12, elektron poçt ünvanı: ***mgomelko@aic.az*** ).

İştirak haqqı: 150 (bir yüz əlli) manat.

**Bank rekvizitləri:**
**H/H: AZ54PAHA38090AZNHC0190002317**
**Bankın adı: "Paşa Bank"ASC**
**Bankın VÖEN-i: 1700767721**
**Bankın kodu: 505141**
**M/H: AZ82NABZ01350100000000071944**
**SWIFT: PAHAAZ22**

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçı statusu almaq və tenderdə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *iddiaçının tam adı və hüquqi statusunu əks etdirən hüquqi sənədlərin notarial qaydada təsdiq edilmiş surətləri (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilmə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayışlar;*
- *iddiaçının son 1 (bir) il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənəd;*
- *auditor fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyanın notarial qaydada təsdiq edilmiş surəti;*
- *ən azı 5 (beş) işçisinin ACCA və ya CPA kvalifikasiya proqramlarına daxil olan bütün imtahanların uğurla tamamlanmasını təsdiq edən sənədlər və həmin işçilərin əmək kitabçaları və ya elektron informasiya sistemindən onların əmək müqaviləsi barədə bildiriş;*
- *tender təklifi qiymətinin 1 faizi həcmində bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
- *tender təklifi (zərfin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə qalır);*
- *iddiaçının ixtisas göstəricilərini təsdiq edən məlumatlar.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 11 dekabr 2018-ci il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 24 dekabr 2018-ci il saat 17:00-dək "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinə (ünvan: Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" 20-ci mərtəbə) təqdim etməlidirlər.

Yuxarıda qeyd olunmuş sənədlərin göndərilməsi qaydası:

- tender təklifi bir zərfdə (iki nüsxədə: əsli və surəti), digər sənədlər isə digər (ikinci) zərfdə göndərilməlidir. Hər bir zərfdə hansı sənədin olduğu üzərində qeyd olunmalıdır ("tender təklifi" və ya "digər sənədlər");
- tender təklifinin təminatı (bank zəmanəti) "tender təklifi" zərfində təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 25 dekabr 2018-ci il saat 10:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

***Tender komissiyası***

---

*Təkrar*

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "Sumqayıt Kimya Sənaye Parkı" MMC təşviqat materialları və çap məhsullarının satın alınması ilə əlaqədar

***açıq tender elan edir***

**Tender 1 LOT üzrə keçirilir:**

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən təşviqat materialları və çap məhsullarının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üçün aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65).

**İştirak haqqı: 300 manat.**

**H/H: AZ65PAHA38090AZNHC0190006581**
**VÖEN: 2902478331**
**Bank: "PAŞA Bank" ASC**
**Bankın VÖEN-i: 1700767721**
**Bankın kodu: 505141**
**SWIFT: PAHAAZ22**
**M/H: AZ82NABZ01350100000000071944**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tələb olunan digər zəruri sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **5 dekabr 2018-ci il** tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **13 dekabr 2018-ci il** saat 18:00-dək "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **14 dekabr 2018-ci il** saat 15:00-da Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

"ELİT" LTD MMC-yə (VÖEN: 1700203231) məxsus möhür itdiyi üçün etibarsız sayılır.

---

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

---

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və hakimləri xalq rəssamı, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, AMEA-nın həqiqi üzvü Ömər Eldarova həyat yoldaşı

**ERNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi təşkilatın baş məsləhətçisi, Əmlakların idarə olunması və müsabiqə komissiyasının işinin təşkili departamentinin direktoru Məhəmmədəli Əfəndiyevə anası

**GÜLSƏFA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin rektorluğu BDU-nun Qazax filialının direktoru, professor Vüsət Əfəndiyevə anası

**GÜLSƏFA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və komitənin üzvləri Eldar Quliyev, Tahir Süleymanov, Mahir Aslanov, Novruzəli Aslanov, Hüseynbala Mirələmov, İqbal Məmmədov, Elçin Quliyev, Eldəniz Səlimov, Cavanşir Paşazadə, Aydın Hüseynov və Milli Məclis Aparatının əməkdaşları Vilayət Əlizadə, İsa Hüseynov, Məhəmməd Gülməmmədov Aqrar siyasət komitəsinin eksperti Zahid Abbasova qardaşı

**ZİYA ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Neftçala Rayon Məhkəməsinin sədri Xanlar Fərhadov Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarova anası

**QÖNÇƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov ailəsi ilə birlikdə professor

**FƏRMAN İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İradə Gülməmmədova və Abşeron Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İradə Gülməmmədova və Abşeron Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi "Abşeron" qəzetinin baş redaktoru Elimxan Mehrəliyevə qardaşı

**SÜBHAN MEHRƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8398
Sifariş 3363